Gen Lat:Azeri Bible Cyrillic 14.01.2009 15:53 Page 1

# YARADILIŞ

## KİTABI

## GİRİŞ

*«Yaradılış»* Kitabı Tövratın birinci kitabıdır. Bu kitab həm də bəşər tarixində ən qədim kitablardan biridir. *«Yaradılış»* Kitabının ilk fəsillərində göy və yerin yaranması, dünyada canlı aləmin meydana gəlməsi barədə danışılır və bu fəsillərin mövzusu əsasında da kitab belə adlanır. Burada Allahın dünya və insanı yaratmasından, ideal mühitdə yaşayan insanın günaha batması və günahın get-gedə artıb çoxalmasından bəhs olunur. Kitabda təsvir olunan mövzular bəşər tarixinin təşəkkülünü, sivilizasiyanın meydana gəlməsini, qədim dünyanın ayrı-ayrı tarixi simalarının və xalqlarının fəaliyyətini əhatə edir.

*«Yaradılış»* Kitabı şərti olaraq iki əsas hissəyə bölünə bilər: birinci hissə (1:1-11:9) dünyanın yaranması və bəşərin qədim tarixi, ikinci hissə (11:10-50:26) isə İsrail xalqının əcdadları barədə hekayətlərdən ibarətdir.

*«Yaradılış»* Kitabının əsas ideyasını kamil yaranmış, lakin günaha bataraq maddi və mənəvi problemlərə düçar olmuş insanın Allah fəaliyyəti nəticəsində ruhani məqsədlərə istiqamətləndirilməsi fikri təşkil edir. Bu kitabda Allahın bütün varlıq üzərində hakimiyyətə malik olması və bəşər tarixini Öz məqsədinə – seçilmiş ruhani xalqın xilasına doğru yönəltməsi ideyaları xüsusi vurğulanır.

***Kitabın məzmunu:***

1:1-2:25 Kainatın və insanın yaranması
3:1-24 İnsanın günaha batması
4:1-5:32 Adəmdən Nuha qədər
6:1-10:32 Nuh və daşqın
11:1-9 Babil qülləsi
11:10-32 Samdan İbrahimə qədər
12:1-35:29 Əcdadlar: İbrahim, İshaq, Yaqub
36:1-43 Esavın nəsli
37:1-45:28 Yusif və onun qardaşları
46:1-50:26 İsraillilər Misirdə

***Dünyanın yaranması***

1 [1]Başlanğıcda Allah göyləri və yeri
yaratdı. [2]Yer quruluşsuz və boş idi.
Dərin sular üzərində qaranlıq var idi.
Allahın Ruhu suların üzərində dola-
şırdı.
[3]Allah dedi: «Qoy işıq olsun». İşıq
oldu. [4]Allah gördü ki, işıq yaxşıdır.
Sonra O, işığı qaranlıqdan ayırdı.

**1:1** *Yəh. 1:1-3; İbr. 11:3* **1:3** *2Kor. 4:6*

Gen Lat:Azeri Bible Cyrillic 14.01.2009 15:53 Page 2



5Allah işığı «gündüz», qaranlığı isə «gecə» adlandırdı. Axşam oldu, səhər açıldı; bu, birinci gün idi.

6Sonra Allah dedi: «Qoy suların arasında bir qübbə olsun və suları bir-birindən ayırsın». 7Allah qübbəni düzəltdi və qübbənin altındakı suları onun üstündəki sulardan ayırdı. Belə də oldu. 8Allah qübbəni «göy» adlandırdı. Axşam oldu, səhər açıldı; bu, ikinci gün idi.

9Sonra Allah dedi: «Qoy göyün altındakı sular bir yerə yığılsın ki, quru görünsün». Belə də oldu. 10Allah qurunu «yer», su yığınlarını isə «dənizlər» adlandırdı. Allah gördü ki, bu, yaxşıdır.

11Sonra Allah dedi: «Qoy yer üzü bitkilər yetirsin: toxumlar bitirən ot-ələf və torpaqda hər növ bəhərli ağaclar yetişsin. Ağaclar meyvə gətirsin və toxumları meyvələrinin içində olsun». Belə də oldu. 12Yer üzü bitkilər yetirdi: hər növ toxum bitirən ot-ələf və hər növ ağac yetişdi. Ağaclar meyvə gətirirdi və toxumları meyvələrinin içində idi. Allah gördü ki, bu, yaxşıdır. 13Axşam oldu, səhər açıldı; bu, üçüncü gün idi.

14Sonra Allah dedi: «Qoy göy qübbəsində gecəni gündüzdən ayıran çıraqlar olsun. Onlar işarələri, fəsilləri və günlərlə illəri göstərsin. 15Qoy onlar göy qübbəsində çıraq olub, yer üzünə işıq saçsın». Belə də oldu. 16Allah iki böyük çıraq düzəltdi: gündüzü idarə etmək üçün böyük çıraq, gecəni idarə etmək üçün kiçik çıraq. O həmçinin ulduzları düzəltdi. 17Allah onları göy qübbəsinə qoydu ki, yer üzünə işıq saçsın, 18gündüzü və gecəni idarə etsin, işığı qaranlıqdan ayırsın. Allah gördü ki, bu, yaxşıdır. 19Axşam oldu, səhər açıldı; bu, dördüncü gün idi.

20Sonra Allah dedi: «Qoy sular çoxlu canlı məxluqlarla qaynaşsın, yer üstündəki göy qübbəsində quşlar uçsun». 21Allah nəhəng su əjdahalarını və suda qaynaşan hər növ bütün sürünən canlı məxluqları, həmçinin hər növ bütün qanadlı quşları yaratdı. Allah gördü ki, bu, yaxşıdır. 22Allah onlara bərəkət verərək dedi: «Törəyib çoxalın və dənizlərdəki suları doldurun, quşlar da yer üzündə çoxalsın». 23Axşam oldu, səhər açıldı; bu, beşinci gün idi.

24Sonra Allah dedi: «Qoy yer üzü hər növ canlı məxluqlar – hər növ ev heyvanları, sürünən canlılar və çöl heyvanları əmələ gətirsin». Belə də oldu. 25Allah hər növ çöl heyvanlarını, hər növ ev heyvanlarını və yerdə sürünən bütün canlıları yaratdı. Allah gördü ki, bu, yaxşıdır.

26Sonra Allah dedi: «Öz surətimizə və bənzərimizə görə insanı yaradaq. Qoy o, dənizdəki heyvanlara, göydəki quşlara, yerdəki heyvanlara, bütün yer üzünə və yerdə sürünən canlıların hamısına hökmranlıq etsin». 27Allah insanı Öz surətində yaratdı, Allahın surətində yaratdı, onları kişi və qadın olaraq yaratdı. 28Allah onlara xeyir-dua verərək dedi: «Törəyib çoxalın və yer üzünü bürüyüb ona sahib olun: dənizdəki heyvanlar, göydəki quşlar, yerdə sürünən bütün canlılar üzərində hökmranlıq edin». 29Allah dedi: «Budur, yer üzündə toxum verən bütün ot-ələfi və meyvələrində toxumu olan bütün ağacların bəhərini sizə verirəm ki, qidalanasınız. 30Yerdəki heyvanların, göydəki quşların və yerdə sürünən

---

**1:6-8** *2Pet. 3:5* **1:26** *1Kor. 11:7* **1:27** *Yar. 5:2; Mat. 19:4-5; Mark 10:6* **1:27-28** *Yar. 5:1-2*

Gen Lat:Azeri Bible Cyrillic 14.01.2009 15:53 Page 3



canlıların hamısına – nəfəsi olan bütün
canlılara isə yem olmaq üçün bütün
yaşıl otları verirəm». Belə də oldu.
31Allah gördü ki, yaratdığı hər şey çox
yaxşıdır. Axşam oldu, səhər açıldı; bu,
altıncı gün idi.

2 1Göylər və yer, oradakı hər şey
beləcə tamamlandı. 2Allah yed-
dinci günə qədər gördüyü işləri qur-
tardı və yeddinci gün gördüyü işlərdən
ayrılıb istirahət etdi. 3Allah yeddinci
günə bərəkət verdi və onu təqdis etdi,
çünki gördüyü bütün yaratma işini
qurtarıb həmin gün istirahət etdi.

### *Adəm və Həvva Eden bağında*

4Rəbb Allahın göyləri və yeri
yaratmasının hekayəti belədir: Rəbb
Allah göyləri və yeri yaradanda 5yer
üzündə heç bir bitki yox idi, heç bir çöl
otu da bitmirdi, çünki Rəbb Allah yer
üzünə hələ yağış göndərməmişdi və
torpağı becərən insan da yaranmamış-
dı. 6Amma yerdən su çıxırdı və bütün
torpağı sulayırdı. 7Rəbb Allah yerin
torpağından insanı[a] düzəltdi və onun
burnuna həyat nəfəsi üfürdü. Beləcə
insan canlı varlıq oldu.

8Sonra Rəbb Allah şərqdə yerləşən
Edendə bir bağ saldı və düzəltdiyi
insanı orada yerləşdirdi. 9Rəbb Allah
torpaqda gözəl görünüşlü və yemək
üçün şirin meyvəli cürbəcür ağaclar
yetirdi. O həmçinin bağın ortasında
həyat ağacını və xeyirlə şəri bilmə ağa-
cını bitirdi.

10Bağı suvarmaq üçün Edendən bir
çay çıxırdı, oradan isə dörd qola
bölünürdü. 11Onlardan birinin adı
Pişondur. O bütün Xavila ölkəsini
dolanaraq axır. Orada qızıl çıxır. 12Bu
ölkənin qızılı yaxşıdır. Burada həm də
ətirli qatran və damarlı əqiq var.
13İkinci çayın adı Gixondur. O, Kuş
ölkəsini dolanaraq axır. 14Üçüncü
çayın adı Dəclədir. O, Aşşur ölkəsinin
şərqindən axır. Dördüncü çay Fərat-
dır.

15Rəbb Allah insanı götürüb Eden
bağına qoydu ki, oranı becərsin və
saxlasın. 16Rəbb Allah insana əmr
edib dedi: «Bağdakı bütün ağacların
bəhrəsindən istəyəndə yeyə bilərsən.
17Ancaq xeyirlə şəri bilmə ağacının
meyvəsindən yemə, çünki ondan yeyən
gün hökmən öləcəksən».

18Rəbb Allah yenə dedi: «İnsanın
tək olması yaxşı deyil, Mən ona mü-
nasib olan bir köməkçi yaradacağam».
19Rəbb Allah bütün çöl heyvanlarını
və göydəki bütün quşları torpaqdan
düzəltdi. Sonra onları insanın yanına
gətirdi ki, onun bunları necə adlandı-
racağını görsün. İnsan hər heyvana
hansı adı qoydusa, o cür də adlandı.
20İnsan bütün ev heyvanlarına, göy-
dəki quşlara və bütün çöl heyvanlarına
ad verdi, amma insana münasib olan
bir köməkçi tapılmadı. 21O zaman
Rəbb Allah insana dərin yuxu gön-
dərdi və o yuxuya getdi. Onda Rəbb
Allah onun qabırğasının birini götür-
dü və yerini ətlə örtdü. 22Rəbb Allah
insandan götürdüyü qabırğadan qadı-
nı düzəltdi və onu insanın yanına
gətirdi. 23İnsan dedi:

«Bax, nəhayət, bunun
Sümüyü mənim sümüyümdən,
Bədəni mənim bədənimdəndir.
Adına "qadın" deyiləcək,

a **2:7** *İnsan* – ibrani mətnində *adam* sözü olub ilk insana verilən adı ifadə edir. Bu söz həm də *torpaq – adama* sözünə bənzəyir.

**2:2** *İbr. 4:4,10* **2:2-3** *Çıx. 20:11* **2:7** *1Kor. 15:45* **2:9** *Yar. 3:22; Vəhy 2:7; 22:2,14*

Gen Lat:Azeri Bible Cyrillic 14.01.2009 15:53 Page 4



Çünki o, kişidən[a] götürülüb».
24 Buna görə də kişi öz ata-anasını
tərk edib arvadına qovuşacaq və onlar
bir bədən olacaq. 25 Adəm və arvadı –
ikisi də çılpaq idi, ancaq bundan
utanmırdılar.

### *Adəm və Həvvanın günaha batması*

3 1 Rəbb Allahın yaratdığı bütün çöl
heyvanlarının ən hiyləgəri ilan idi.
İlan qadına dedi: «Doğrudanmı, Allah
sizə "bağda olan heç bir ağacın bəh-
rələrindən yeməyin" deyib?» 2 Qadın
ilana dedi: «Bağdakı ağacların bəhrə-
lərindən yeyə bilərik. 3 Amma bağın
ortasındakı ağacın meyvələri barədə
Allah deyib: "Ondan yeməyin və ona
toxunmayın, yoxsa öləcəksiniz!"»
4 İlan qadına dedi: «Yox, əsla ölməz-
siniz. 5 Əksinə, Allah bilir ki, o mey-
vələrdən yediyiniz gün gözləriniz
açılacaq və xeyirlə şəri bilərək Allah
kimi olacaqsınız». 6 Qadın gördü ki,
ağacın meyvəsi yemək üçün yaxşıdır,
gözə xoş görünür və bu ağac insana
dərrakə verməyi vəd edir. Buna görə
də o həmin meyvədən dərib yedi.
Sonra yanında olan ərinə də verdi, o
da yedi. 7 O vaxt ikisinin də gözləri
açıldı və çılpaq olduqlarını bildilər.
Buna görə də əncir yarpaqlarını bir-
birinə hörüb özlərinə fitə düzəltdilər.
8 Onlar günün sərinliyində bağda
gəzişən Rəbb Allahın səsini eşitdilər.
Adəm və onun arvadı Rəbb Allahın
hüzurundan qaçıb bağdakı ağacların
arasında gizləndilər. 9 Rəbb Allah
Adəmi səsləyib dedi: «Haradasan?»
10 O cavab verdi: «Bağda səsini eşitdim
və çılpaq olduğum üçün qorxdum, ona
görə də gizlənmişəm». 11 Rəbb Allah
dedi: «Kim sənə bildirdi ki, çılpaqsan?
Sənə yeməyi qadağan etdiyim ağacın
meyvəsindən yeməmisən ki?» 12 Adəm
dedi: «Mənimlə birgə olmaq üçün
verdiyin qadın o ağacın meyvəsindən
verdi, mən də yedim». 13 Rəbb Allah
qadına dedi: «Sən niyə belə etdin?»
Qadın dedi: «İlan məni yoldan çıxart-
dı, mən də yedim».
14 Rəbb Allah ilana dedi:
«Sən bunu etdiyin üçün
Bütün ev heyvanları və çöl
heyvanları arasında
Lənət qazanırsan.
Qarnın üstündə sürünəcəksən,
Bütün ömrün boyu torpaq
yeyəcəksən.
15 Mən səninlə qadın arasına,
Sənin balanla onun övladı arasına
Düşmənçilik salıram.
Bu övlad sənin başından vuracaq,
Sən də onu dabanından
sancacaqsan».
16 Sonra Rəbb Allah qadına dedi:
«Hamilə olanda sənə
Çox əziyyət verəcəyəm,
Uşaqlarını ağrı içində doğacaqsan.
Ərinə meylli olacaqsan,
O sənə ağalıq edəcək».
17 Sonra Rəbb Allah Adəmə dedi:
«Arvadının sözünə qulaq asdığın
üçün,
Qadağan etdiyim, "meyvəsini
yemə" dediyim
Ağacdan yediyin üçün
Sənə görə torpaq lənətlənir.
Ömrün boyu zəhmətlə
Torpaqdan yemək əldə edəcəksən.
18 O sənə tikan və qanqal bitirəcək,

---

a **2:23** *Kişi* – ibrani mətnində *iş*, *qadın* – *işşa*.

**2:24** *Mat. 19:4-5; Mark 10:7-8; 1Kor. 6:16; Ef. 5:31* **3:1** *Vəhy 12:9; 20:2* **3:6** *Rom. 5:12*
**3:13** *Rom. 7:11; 2Kor. 11:3; 1Tim. 2:14* **3:15** *Vəhy 12:17* **3:17-18** *İbr. 6:8*

Gen Lat:Azeri Bible Cyrillic 14.01.2009 15:53 Page 5



Sən də çöldəki ot-ələfi yeyəcəksən.
19 Alın tərinlə çörək yeyəcəksən.
Axırda torpağa qayıdacaqsan,
Çünki oradan götürülmüsən,
Ona görə ki yerin torpağısan,
Torpağa da qayıdacaqsan».

20 Adəm arvadının adını Həvva[a]
qoydu, çünki o, yer üzündə yaşayan-
ların hamısının anası oldu. 21 Onda
Rəbb Allah Adəmlə arvadı üçün də-
ridən paltar düzəltdi və onlara geyin-
dirdi.

22 Sonra Rəbb Allah dedi: «Budur,
insan xeyirlə şərin nə olduğunu bilərək
bizlərdən biri kimi oldu. Qoy indi əlini
uzadaraq həyat ağacının meyvəsindən
dərib yeməsin və əbədi yaşamasın!»
23 Rəbb Allah insanı Eden bağından
çıxartdı ki, o özünün də bir qismindən
götürüldüyü torpağı becərsin. 24 Rəbb
Allah insanı qovdu. O, Eden bağının
şərqinə keruvlarını və hər tərəfə fır-
lanan odlu qılıncını qoydu ki, həyat
ağacına gedən yolu qorusunlar.

### *Qabil və Habil*

4 1 Adəm arvadı Həvva ilə yaxınlıq
etdi və Həvva hamilə olub Qabili[b]
doğdu. Həvva dedi: «Rəbbin köməyi
ilə bir insan qazandım». 2 Sonra o,
Qabilin qardaşı Habili doğdu. Habil
çoban oldu, Qabil isə əkinçi.

3 Bir müddət keçəndən sonra Qabil
torpağın bəhrəsindən Rəbb Allaha
təqdim gətirdi. 4 Habil də sürüsündə ilk
doğulan heyvanlardan bir neçəsini və
onların piyini təqdim etdi. Rəbb
Habili və onun təqdimini qəbul etdi,
5 ancaq Qabili və onun təqdimini qəbul
etmədi. Buna görə də Qabil bərk
qəzəblənib qaşqabağını salladı. 6 Rəbb
Qabilə dedi: «Niyə qəzəblənmisən?
Niyə qaşqabağını sallamısan? 7 Əgər
yaxşı iş görürsənsə, Mən qəbul etmə-
rəmmi? Əgər yaxşı iş görmürsənsə,
günah qapının ağzında durub. Onun
meyli sənədir, ancaq sən ona üstün
gəlməlisən».

8 Sonra Qabil qardaşı Habilə bir söz
dedi və onlar çölə getdilər. Orada
Qabil qardaşı Habilin üstünə hücum
çəkib onu öldürdü. 9 Sonra Rəbb
Qabildən soruşdu: «Qardaşın Habil
haradadır?» O dedi: «Bilmirəm, mə-
gər mən qardaşımın keşikçisiyəm?»
10 Rəbb dedi: «Sən nə etdin? Qarda-
şının qanının səsi torpaqdan Mənə
fəryad edir. 11 Buna görə də bu tor-
paqda lənət almısan; o torpaq ki sənin
əlinlə tökülən qardaş qanını udmaq
üçün ağzını açdı. 12 Torpağı becərdiyin
zaman o daha gücünü sənə verməyə-
yəcək. Yer üzündə qaçaq və sərgərdan
olacaqsan». 13 Qabil Rəbbə dedi:
«Cəzam çəkə biləcəyimdən daha
artıqdır. 14 Bax bu gün Sən məni
torpaqdan qovursan. Mən də Sənin
hüzurundan gizlənib yer üzündə
qaçaq və sərgərdan olacağam. Ancaq
kim mənə rast gəlsə, məni öldürəcək».
15 Rəbb ona dedi: «Xeyr! Kim Qabili
öldürsə, ondan yeddi qat intiqam
alınacaq». Rəbb Qabilə bir əlamət
qoydu ki, ona rast gələn kəs onu
öldürməsin. 16 Beləcə Qabil Rəbbin
hüzurunu tərk etdi və Eden bağından
şərqdə – Nod torpağında yaşamağa
başladı.

---

a **3:20** *Həvva* – ibrani dilində *yaşamaq* mənası verən bir sözdən götürülmüşdür.
b **4:1** *Qabil* – ibrani mətnində *qayin* sözü olub *qazanma* deməkdir.
**3:22** *Yar. 2:9; Vəhy 2:7; 22:2,14* **4:4** *İbr. 1:4* **4:8** *Mat. 23:35; Luka 11:51; 1Yəh. 3:12*
**4:10** *İbr. 12:22-24*

Gen Lat:Azeri Bible Cyrillic 14.01.2009 15:53 Page 6



### *Qabilin nəsli*

17Qabil arvadı ilə yaxınlıq etdi və
arvadı hamilə olub Xanoku doğdu. O
zaman o, bir şəhər tikdi, şəhərə oğlu
Xanokun adını verdi. 18Xanokdan
İrad törədi. İraddan Mehuyael törədi.
Mehuyaeldən Metuşael törədi. Metu-
şaeldən Lemek törədi. 19Lemek iki
arvad aldı: birinin adı Ada, o birinin
adı Silla idi. 20Ada Yavalı doğdu.
Yaval çadırda yaşamağın və sürü
saxlamağın əsasını qoydu. 21Onun
qardaşının adı Yuval idi. O hər cür lira
və tütək çalmağın əsasını qoydu.
22Silla isə Tuval-Qayini doğdu. Tuval-
Qayin tuncdan və dəmirdən hər cür
kəsici alətlər düzəldərdi. Onun Naama
adlı bacısı var idi.

23Bir dəfə Lemek arvadlarına dedi:
«Ey Ada və Silla, səsimi eşidin,
Ey Lemekin arvadları, sözümə
qulaq asın:
Məni yaraladığı üçün
Bir adam öldürdüm,
Məni zədələdiyi üçün
Bir cavan öldürdüm.
24Qabil üçün yeddi qat qisas
alınacaqsa,
Lemek üçün yetmiş yeddi qat
alınacaq».

### *Şet və Enoş*

25Adəm yenə arvadı ilə yaxınlıq etdi
və Həvva bir oğlan doğub adını Şet[a]
qoyaraq dedi: «Qabilin öldürdüyü
Habilin yerinə Allah mənə başqa bir
oğul bəxş etdi». 26Şetin də bir oğlu
oldu və adını Enoş qoydu. O zaman
insanlar Rəbbin adını çağırmağa baş-
ladı.

### *Adəmdən Nuha qədər olan nəsillər*

*(1Saln. 1:1-4)*

5 1Adəmin nəsil tarixçəsi belədir.
Allah insanı yaradanda onu Öz
bənzərinə görə yaratdı. 2Allah onları
kişi və qadın olaraq yaratdı, onlara
xeyir-dua verdi və yaratdığı gün onları
«insan» adlandırdı.

3Adəmin yüz otuz yaşı olanda
özünə bənzər, öz surətində bir oğlu
oldu və adını Şet qoydu. 4Şet doğu-
landan sonra Adəm səkkiz yüz il
yaşadı. Onun çoxlu oğlu və qızı oldu.
5Adəm doqquz yüz otuz il ömür sürüb
öldü.

6Şet yüz beş yaşında olanda oğlu
Enoş doğuldu. 7Enoş doğulandan
sonra Şet səkkiz yüz yeddi il yaşadı.
Onun çoxlu oğlu və qızı oldu. 8Şet
doqquz yüz on iki il ömür sürüb öldü.

9Enoş doxsan yaşında olanda oğlu
Qenan doğuldu. 10Qenan doğulandan
sonra Enoş səkkiz yüz on beş il yaşadı.
Onun çoxlu oğlu və qızı oldu. 11Enoş
doqquz yüz beş il ömür sürüb öldü.

12Qenan yetmiş yaşında olanda
oğlu Mahalalel doğuldu. 13Mahalalel
doğulandan sonra Qenan səkkiz yüz
qırx il yaşadı. Onun çoxlu oğlu və qızı
oldu. 14Qenan doqquz yüz on il ömür
sürüb öldü.

15Mahalalel altmış beş yaşında
olanda oğlu Yered doğuldu. 16Yered
doğulandan sonra Mahalalel səkkiz
yüz otuz il yaşadı. Onun çoxlu oğlu və
qızı oldu. 17Mahalalel səkkiz yüz
doxsan beş il ömür sürüb öldü.

18Yered yüz altmış iki yaşında
olanda oğlu Xanok doğuldu. 19Xanok
doğulandan sonra Yered səkkiz yüz il

---

a **4:25** *Şet* – ibrani dilində *bəxş etmək.*

**5:1-2** *Yar. 1:27-28* **5:2** *Yar. 1:27; Mat. 19:4-5; Mark 10:6*

Gen Lat:Azeri Bible Cyrillic 14.01.2009 15:53 Page 7



yaşadı. Onun çoxlu oğlu və qızı oldu.
**20**Yered doqquz yüz altmış iki il ömür
sürüb öldü.

**21**Xanok altmış beş yaşında olanda
oğlu Metuşelah doğuldu. **22**Metuşelah
doğulandan sonra Xanok üç yüz il
Allahla bir yol getdi. Onun çoxlu oğlu
və qızı oldu. **23**Xanok üç yüz altmış beş
il yaşadı. **24**O, Allahla bir yol getdi.
Sonra qeyb oldu, çünki Allah onu Öz
yanına götürdü.

**25**Metuşelah yüz səksən yeddi
yaşında olanda oğlu Lemek doğuldu.
**26**Lemek doğulandan sonra Metuşe-
lah yeddi yüz səksən iki il yaşadı.
Onun çoxlu oğlu və qızı oldu. **27**Me-
tuşelah doqquz yüz altmış doqquz il
ömür sürüb öldü.

**28**Lemek yüz səksən iki yaşında
olanda bir oğlu doğuldu. **29**O dedi:
«Bu oğul Rəbbin lənətlədiyi torpağı
becərəndə çəkdiyimiz əziyyətlərdə, əli-
mizin zəhmətində bizə təsəlli verəcək».
Buna görə də onun adını Nuh[a] qoydu.
**30**Nuh doğulandan sonra Lemek beş
yüz doxsan beş il yaşadı. Onun çoxlu
oğlu və qızı oldu. **31**Lemek yeddi yüz
yetmiş yeddi il ömür sürüb öldü.

**32**Nuh beş yüz yaşında olanda Sam,
Ham və Yafəs adında oğulları oldu.

### *İnsanların pozğunlaşması və daşqın*

**6** **1**İnsanlar yer üzündə çoxalmağa
başladı və onların qızları doğuldu.
**2**O zaman Allah oğulları gördülər ki,
insan qızları çox gözəldir və bəyən-
dikləri hər qızı özlərinə arvad etdilər.
**3**Rəbb dedi: «Mənim Ruhum insanda
əbədi qalmayacaq, çünki onlar ancaq
bədəndir. Onların ömrü yüz iyirmi il
olacaq».

**4**Həmin dövrdə və Allah oğulları
insan qızlarını arvad alıb övladları
doğulan dövrdə də yer üzündə böyük
adamlar[b] yaşayırdı. Bunlar qədim
dövrün qəhrəman və adlı-sanlı adam-
ları idi.

**5**Rəbb gördü ki, yer üzündəki
insanların şər əməlləri çoxdur və hər
zaman onların ürəyindəki fikirlər və
niyyətlər pisliyə doğru yönəlir. **6**O, yer
üzündə insanları yaratdığına peşman
oldu və ürəyində kədərləndi. **7**Rəbb
dedi: «Yaratdığım insanları yer üzün-
dən siləcəyəm, bunu insanlarla birgə
heyvanların, sürünənlərin və quşların
da başına gətirəcəyəm, çünki onları
yaratmağıma peşman olmuşam».
**8**Ancaq Nuh Rəbbin gözündə lütf
tapdı.

**9**Nuhun tarixçəsi belədir: Nuh saleh
və öz nəsli arasında qüsursuz bir adam
idi. O, Allahla bir yol gedirdi.
**10**Nuhun üç oğlu oldu: Sam, Ham və
Yafəs. **11**Ancaq Allahın nəzərində yer
üzündəki insanlar pozğunlaşmışdı və
dünya zorakılıqla dolmuşdu. **12**Allah
yer üzündəki insanların daha da poz-
ğunlaşdığını gördü, çünki dünyadakı
bütün bəşər yolunu azmışdı.

**13**Allah Nuha dedi: «Önümdə olan
bütün bəşərin sonu çatıb, çünki yer üzü
onların zorakılığı ilə dolub. Buna görə
də Mən onları yer üzü ilə birgə məhv
edəcəyəm. **14**Özünə qofer[c] ağacından
bir gəmi düzəlt, onun içində otaqlar
düzəlt, üstünə içəridən və bayırdan
qatran vur. **15**Gəmini belə düzəlt:

---

a **5:29** *Nuh* – ibrani dilində *təsəlli.*
b **6:4** *Böyük adamlar* – ibrani mətnində *nefilim* sözü olub mənası tam aydın deyil.
c **6:14** *Qofer* – naməlum bir ağac növü.
**5:21-24** *İbr. 11:5; Yəhd. 14-15* **6:5-8** *Mat. 24:37; Luka 17:26; 1Pet. 3:20* **6:9** *2Pet. 2:5*

Gen Lat:Azeri Bible Cyrillic 14.01.2009 15:53 Page 8



onun uzunluğu üç yüz qulac, eni əlli qulac, hündürlüyü isə otuz qulac olsun. 16 Gəminin üstündən bir qulac aşağı pəncərə açarsan və qapısını yan tərəfdən qoyarsan. Gəminin üç mərtəbəsi olsun: biri altda, biri ortada, biri də üstdə.

17 Bax Mən yer üzünü suya qərq edəcəyəm ki, göylər altında həyat nəfəsi olan bütün canlılar məhv olsun və yer üzündə olanların hamısı öləcək. 18 Ancaq əhdimi səninlə bağlayıram. Sən oğulların, arvadın və gəlinlərinlə birgə gəmiyə minərsən. 19 Bütün heyvanlardan, canlı məxluqlardan bir cütünü – erkək və dişisini gəmiyə götürərsən ki, səninlə birgə sağ qalsın. 20 Növlərinə görə quşların, heyvanların və yerdə sürünənlərin hər birindən bir cütü sənin yanına gələcək ki, sağ qalsın. 21 Həmçinin özünlə birlikdə hər cür azuqə götürüb yanına yığ ki, sənin və onların yeməyi olsun».

22 Nuh hər şeyi etdi: Allah ona necə əmr etmişdisə, o da hər şeyi eləcə yerinə yetirdi.

7 1 Rəbb Nuha dedi: «Sən bütün ailənlə birgə gəmiyə gir, çünki bu bəşər nəsli içində yalnız səni önümdə saleh gördüm. 2 Bütün yer üzündə nəsli kəsilməsin deyə hər pak heyvanın erkək və dişisindən yeddi cüt, hər murdar heyvanın erkək və dişisindən bir cüt götür. 3 Həmçinin göydəki hər quşun erkək və dişisindən yeddi cüt götür. 4 Çünki yeddi gün sonra yer üzünə qırx gün-qırx gecə yağış yağdıracağam və yaratdığım bütün canlıları yer üzündə məhv edəcəyəm». 5 Rəbb Nuha necə əmr etmişdisə, o da hər şeyi eləcə yerinə yetirdi.

6 Yer üzündə daşqın olanda Nuhun altı yüz yaşı var idi. 7 Nuh, onun arvadı, oğulları və gəlinləri daşqından qurtarmaq üçün birlikdə gəmiyə mindilər. 8 Allahın Nuha əmr etdiyi kimi pak və murdar heyvanların, quşların, bütün yerdə sürünənlərin 9 erkək və dişisi cüt-cüt Nuhun yanına gəlib gəmiyə mindi.

10 Yeddi gün sonra yer üzündə daşqın oldu. 11 Həmin gün – Nuhun ömrünün altı yüzüncü ilində, ikinci ayın on yeddinci günü dərinlikdə olan bütün gur su qaynaqları püskürdü və göylərin pəncərələri açıldı. 12 Yer üzünə qırx gün-qırx gecə yağış yağdı.

13 Elə həmin gün Nuh, onun arvadı, oğulları Sam, Ham, Yafəs və üç gəlini gəmiyə mindilər. 14 Onlarla birgə hər növ çöl heyvanı, hər növ ev heyvanı, hər növ yerdə sürünən, hər növ göydə uçan canlı və hər cür quş gəmiyə girdi: 15 həyat nəfəsi olan bütün canlılardan cüt-cüt Nuhun yanına gəlib gəmiyə mindi. 16 Allahın Nuha əmr etdiyi kimi bütün canlılardan erkək və dişi heyvanlar gəmiyə girdilər. Onların dalınca Rəbb gəminin qapısını örtdü.

17 Yer üzündə qırx gün daşqın oldu və su çoxalıb gəmini yerdən yuxarı qaldırdı. 18 Su çox yuxarı qalxıb yer üzünü aldı və gəmi suyun üzündə üzməyə başladı. 19 Su yer üzünü elə tutdu ki, göylər altında olan bütün uca dağlar suya qərq oldu. 20 Su dağların zirvəsindən on beş qulac qalxdı və onları örtdü. 21 Yer üzündə hərəkət edən canlıların hamısı – quşlar, ev heyvanları, çöl heyvanları, yerdə sürünənlər və bütün insanlar məhv oldu. 22 Quruda yaşayan, burnunda həyat nəfəsi olan canlı varlıqların hamısı öldü. 23 Rəbb yer üzündə olan bütün

---

**6:22** *İbr. 11:7* **7:7** *Mat. 24:38-39; Luka 17:27* **7:11-12** *2Pet. 3:6*

Gen Lat:Azeri Bible Cyrillic 14.01.2009 15:53 Page 9



canlıları məhv etdi: insanlardan tutmuş heyvanlara, sürünənlərə və göydəki quşlara qədər hər şey yer üzündə məhv oldu. Yalnız Nuh və onunla birgə gəmidə olanlar sağ qaldı. 24Yüz əlli gün ərzində su yer üzündə çoxaldı.

### *Daşqının sonu*

8 1Allah Nuhu və onunla birgə gəmidə olan bütün çöl heyvanlarını və ev heyvanlarını yada saldı. Allah yer üzünə külək göndərdi və su azalmağa başladı. 2Dərinlikdə olan su qaynaqları və göylərin pəncərələri bağlandı, yağış dayandı. 3Su yer üzündən tədricən çəkildi, yüz əlli gün keçdikdən sonra su azaldı. 4Yeddinci ayın on yeddinci günü gəmi Ararat dağlarında dayandı. 5Onuncu aya qədər su yavaş-yavaş çəkildi, onuncu ayın birinci günü dağların zirvələri göründü.

6Qırx gün sonra Nuh düzəltdiyi gəminin pəncərəsini açıb 7bir qarğa buraxdı; qarğa uçub getdi və yer üzündə su quruyana qədər hər tərəfi dolaşdı. 8Nuh bu dəfə bir göyərçin buraxdı ki, suyun yer üzündən çəkilib-çəkilmədiyini bilsin. 9Amma göyərçin qonmaq üçün rahat bir yer tapmadığına görə onun yanına – gəmiyə qayıtdı, çünki hələ bütün yer üzündə su var idi. Nuh əlini uzadıb göyərçini tutdu və gəmiyə – öz yanına apardı. 10O daha yeddi gün gözlədi və göyərçini yenə gəmidən buraxdı. 11Axşamüstü göyərçin onun yanına qayıtdı. Göyərçinin ağzında təzə zeytun yarpağı var idi. Nuh suyun yer üzündən çəkildiyini bildi. 12O daha yeddi gün gözlədi və göyərçini yenə buraxdı, artıq göyərçin onun yanına qayıtmadı.

13Nuhun ömrünün altı yüz birinci ilində, birinci ayın birinci günü yer üzündə su qurudu. Nuh gəminin qapağını qaldırdı və torpağın üzərindəki suyun quruduğunu gördü. 14İkinci ayın iyirmi yeddinci günü yer üzündəki su tamamilə qurudu.

15Allah Nuha dedi: 16«Sən öz arvadın, oğulların və gəlinlərinlə birgə gəmidən çıx. 17Səninlə birgə olan bütün canlıları – quşları, heyvanları və yerdə sürünənləri bayıra çıxart. Qoy yer üzünə yayılsınlar və yer üzündə törəyib çoxalsınlar». 18Nuh öz arvadı, oğulları və gəlinləri ilə birgə gəmidən çıxdı. 19Bütün heyvanlar, sürünənlər, quşlar və yerdə sürünən bütün canlılar dəstə-dəstə gəmini tərk etdilər.

20Nuh Rəbbə bir qurbangah düzəltdi. O hər cür pak heyvandan və pak quşdan götürüb orada yandırma qurbanı təqdim etdi. 21Bundan Rəbbə xoş ətir qalxdı və Rəbb ürəyində dedi: «Cavanlığından bəri insan ürəyinin fikirlərinin həmişə pis olmasına baxmayaraq, insanlara görə bir daha yer üzünü lənətləməyəcəyəm. İndi elədiyim kimi bütün canlıları bir daha məhv etməyəcəyəm.

22Dünya durduqca
Əkin-biçin, isti-soyuq,
Yay-qış və gecə-gündüz
Sona yetməyəcək».

### *Allahın Nuha vədi*

9 1Allah Nuha və onun oğullarına xeyir-dua verib dedi: «Törəyib çoxalın və yer üzünü bürüyün. 2Qurudakı bütün heyvanlar, göydəki bütün quşlar, yerdə sürünən bütün

**9:1** *Yar. 1:28*

Gen Lat:Azeri Bible Cyrillic 14.01.2009 15:53 Page 10



canlılar və dənizdə olan bütün balıqlar
sizdən qorxub dəhşətə gələcək. Onlar
sizin ixtiyarınıza verilib. 3Bütün can-
lılar da sizə qida olsun, onların hamı-
sını bütün göy otlar kimi sizə verirəm.
4Ancaq əti onun canı olan qanla birgə
yeməyin. 5Sizin isə qanınız tökülərsə,
əvəzini hökmən alacağam. Hər hey-
vandan hesabınızı alacağam. Həm-
çinin insandan – qardaşının canını
alan hər kəsdən əvəzini alacağam.

6Kim insan qanı töksə,[1]
Onun da qanı
İnsan əli ilə töküləcək.
Çünki Allah insanı
Öz surətinə görə yaradıb.[2]
7Siz törəyib çoxalın,
Yer üzünə yayılın,
Orada çoxalın».

8Allah Nuha və yanında olan
oğullarına dedi: 9«Mən sizinlə, sizdən
sonrakı nəslinizlə Öz əhdimi bağ-
layıram, 10gəmidən çıxan yer üzündəki
bütün canlı məxluqlarla – quşlar, ev
heyvanları və bütün çöl heyvanları ilə
əhdimi bağlayıram. 11Sizinlə Öz
əhdimi qoyuram ki, bütün canlılar bir
daha daşqınla məhv olmayacaq və heç
vaxt yer üzünü viran edən daşqın baş
verməyəcək». 12Allah yenə dedi:
«Mənim sizinlə və sizinlə olan bütün
canlılarla əbədi olaraq bağladığım
əhdin əlaməti budur: 13buludda Öz
göy qurşağımı qoyuram ki, Mənimlə
yer üzü arasında olan əhdin əlaməti
olsun. 14Mən yer üzünə bulud gətir-
diyim zaman buludda göy qurşağı
görünəcək. 15Onda Mən sizinlə və
bütün canlı məxluqlarla bağladığım
əhdi yada salacağam. Sular bir daha
daşqına çevrilib bütün canlıları məhv
etməyəcək. 16Buludda göy qurşağı
olacaq. Mən Allah onu görüb yer
üzündə yaşayan bütün canlı məxluq-
larla bağladığım əbədi əhdi yada
salacağam». 17Allah yenə Nuha dedi:
«Mənim yer üzündə yaşayan bütün
canlılarla bağladığım əhdin əlaməti
budur».

### *Nuhun oğulları*

18Gəmidən çıxan Nuhun oğulları
bunlardır: Sam, Ham və Yafəs. Ham-
dan Kənan törədi. 19Nuhun üç oğlu
bunlardır və yer üzündə yayılan bütün
insanlar onlardan törədi.

20Nuh torpağı becərməyə başladı və
bir üzüm bağı saldı. 21O, şərab içib
sərxoş oldu və öz çadırında çılpaq
uzandı. 22Kənanın atası Ham atasının
çılpaq olduğunu gördü və bunu ba-
yırda iki qardaşına söylədi. 23Sam və
Yafəs bir paltar götürüb öz çiyinlərinə
saldılar və dal-dalı içəri girib, ata-
larının çılpaq bədənini örtdülər. Onlar
üzlərini əks tərəfə çevirmişdilər ki,
atalarının çılpaqlığını görməsinlər.
24Nuh öz sərxoşluğundan ayıldı və
kiçik oğlunun əməlini bilib dedi:

25«Kənana lənət olsun,
Öz qardaşlarının qullarına qul
olsun».
26Yenə dedi:
«Samın Allahı Rəbbə alqış olsun,
Kənan ona qul olsun.
27Allah Yafəsə genişlik versin,
Samın çadırlarında yaşasın.
Kənan ona qul olsun».

### *Nuhun ölümü*

28Nuh daşqından sonra üç yüz əlli il
yaşadı. 29O, doqquz yüz əlli il ömür

**9:4** *Lev. 7:26-27; 17:10-14; 19:26; Qanun. 12:16,23-25; 15:23* **9:6** – [1]*Çıx. 20:13;* [2]*Yar. 1:26*
**9:7** *Yar. 1:28*

Gen Lat:Azeri Bible Cyrillic 14.01.2009 15:53 Page 11



sürüb öldü.

### *Nuhun nəsli*

*(1Saln. 1:5-23)*

10 1Nuhun oğulları Sam, Ham və
Yafəsin nəsil tarixçəsi belədir.
Daşqından sonra onların oğulları
oldu.
2Yafəsin oğulları: Qomer, Maqoq,
Maday, Yavan, Tuval, Meşek və
Tiras. 3Qomerin oğulları: Aşkenaz,
Rifat və Toqarma. 4Yavanın oğulları:
Elişa, Tarşiş, Kittim və Dodanim.
5Onların nəsilləri adalara, öz torpaq-
larına yayıldı. Öz millətlərinin arasın-
da dillərə və qəbilələrə ayrıldı.
6Hamın oğulları: Kuş, Misrayim,
Put və Kənan. 7Kuşun oğulları: Seva,
Xavila, Savta, Raama və Savteka.
Raamanın oğulları: Səba və Dedan.
8Kuşun Nəmrud adlı bir oğlu da oldu.
O, yer üzündə ilk qüdrətli adam oldu.
9Nəmrud Rəbbin önündə mahir bir
ovçu idi, buna görə də xalqın arasında
«Rəbbin önündə Nəmrud kimi mahir
ovçu» sözü deyilir. 10Əvvəlcə onun
padşahlığına Şinar ölkəsində olan
Babil, Erek, Akkad və Kalne daxil idi.
11O bu torpaqdan Aşşur torpağına
köçüb, Ninevanı, Rexovot-İri, Kelahı,
12Nineva ilə böyük şəhər olan Kelahın
arasındakı Reseni tikdi.
13Misrayimin nəsilləri bunlardır:
Ludlular, Anamlılar, Lehavlılar,
Naftuhlular, 14Patroslular, Filiştlilərin
əcdadı olan Kasluhlular, həmçinin
Kaftorlular.
15Kənanın nəsilləri bunlardır: ilk
oğlu Sidon, Xet, 16həmçinin Yevuslu-
lar, Emorlular, Qirqaşlılar, 17Xivlilər,
Arqlılar, Sinlilər, 18Ervadlılar, Semar-
lılar və Xamatlılar. Sonralar Kənan
qəbilələri ətraf yerlərə yayıldı. 19Kə-
nanlıların ərazisi Sidondan Gerara
tərəf Qəzzəyə qədər, Sodoma, Ho-
morraya, Admaya, Sevoyimə tərəf
Leşaya qədər uzanırdı. 20Bunlar öz
ölkələrində və millətlərinin arasında
qəbilələrinə və dillərinə görə ayrılan
Ham oğulları idi.
21Everin bütün oğullarının əcdadı
və Yafəsin böyük qardaşı olan Samın[a]
da oğulları oldu. 22Samın oğulları:
Elam, Aşşur, Arpakşad, Lud və
Aram. 23Aramın oğulları: Us, Xul,
Geter və Maş. 24Arpakşaddan Şelah
törədi, Şelahdan Ever törədi. 25Everin
iki oğlu oldu: birinin adı Peleq[b] idi,
çünki onun dövründə yer üzü bölündü.
Qardaşının adı Yoqtan idi. 26Yoq-
tandan Almodad, Şelef, Xasarmavet,
Yerah, 27Hadoram, Uzal, Diqla,
28Oval, Avimael, Səba, 29Ofir, Xavila
və Yovav törədi; bunların hamısı
Yoqtanın oğulları idi. 30Onlar şərqdə
– Meşadan Sefara tərəf yerləşən dağlıq
bölgədə məskən salmışdı. 31Bunlar öz
ölkələrində və millətləri arasında
qəbilələrinə və dillərinə görə ayrılan
Sam oğulları idi.
32Öz millətləri arasında nəsillərinə
görə Nuh oğullarının qəbilələri bun-
lardır. Daşqından sonra onların nəsil-
lərindən yer üzünə millətlər yayıldı.

### *Babil qülləsi*

11 1Bütün dünyada bir dil və bir
danışıq var idi. 2İnsanlar şərq-
dən köçüb gəldikləri zaman Şinar
torpağında bir düzənliyə rast gəldilər
və orada məskən saldılar. 3Sonra bir-
birlərinə dedilər: «Gəlin kərpic düzəl-

---

a **10:21** *Yafəsin böyük qardaşı olan Samın* – yaxud *böyük olan Yafəsin qardaşı Samın.*
b **10:25** *Peleq* – ibrani dilində *bölünmə.*

Gen Lat:Azeri Bible Cyrillic 14.01.2009 15:53 Page 12



dək və onu yaxşı bişirək». Onlar daş
əvəzinə kərpic və palçıq əvəzinə qatran
götürdülər. 4Yenə dedilər: «Gəlin
özümüzə bir şəhər və başı göylərə
çatan bir qüllə tikib ad çıxaraq, daha
bütün yer üzünə yayılmayaq».

5Rəbb bəşər övladlarının tikdiyi
şəhəri və qülləni görmək üçün aşağı
endi. 6Rəbb dedi: «Budur, onların
hamısı bir xalqdır və bir dilləri var.
Buna görə də bu işi görməyə baş-
lamışlar və indi etmək istədikləri işə
heç kəs mane olmayacaq. 7Gəlin aşağı
enib orada onların dilini qarışdıraq ki,
bir-birlərinin dilini başa düşməsinlər».
8Rəbb onları oradan bütün yer üzünə
yaydı. Onlar şəhəri tikməyi dayan-
dırdı. 9Buna görə də o yerin adına
Babil[a] dedilər, çünki orada Rəbb
bütün dünyadakı adamların dilini
qarışdırdı və onları bütün yer üzünə
yaydı.

### *Samdan İbrama qədər olan nəsillər*

*(1Saln. 1:24-27)*

10Samın nəsil tarixçəsi belədir: daş-
qından iki il sonra Sam yüz yaşında
olanda oğlu Arpakşad doğuldu.
11Arpakşad doğulandan sonra Sam
beş yüz il yaşadı. Onun çoxlu oğlu və
qızı oldu.

12Arpakşad otuz beş yaşında olan-
da oğlu Şelah doğuldu. 13Şelah do-
ğulandan sonra Arpakşad dörd yüz üç
il yaşadı. Onun çoxlu oğlu və qızı
oldu.

14Şelah otuz yaşında olanda oğlu
Ever doğuldu. 15Ever doğulandan
sonra Şelah dörd yüz üç il yaşadı.
Onun çoxlu oğlu və qızı oldu.

16Ever otuz dörd yaşında olanda
oğlu Peleq doğuldu. 17Peleq doğulan-
dan sonra Ever dörd yüz otuz il
yaşadı. Onun çoxlu oğlu və qızı oldu.

18Peleq otuz yaşında olanda oğlu
Reu doğuldu. 19Reu doğulandan son-
ra Peleq iki yüz doqquz il yaşadı.
Onun çoxlu oğlu və qızı oldu.

20Reu otuz iki yaşında olanda oğlu
Seruq doğuldu. 21Seruq doğulandan
sonra Reu iki yüz yeddi il yaşadı.
Onun çoxlu oğlu və qızı oldu.

22Seruq otuz yaşında olanda oğlu
Naxor doğuldu. 23Naxor doğulandan
sonra Seruq iki yüz il yaşadı. Onun
çoxlu oğlu və qızı oldu.

24Naxor iyirmi doqquz yaşında
olanda oğlu Terah doğuldu. 25Terah
doğulandan sonra Naxor yüz on
doqquz il yaşadı. Onun çoxlu oğlu və
qızı oldu. 26Terah yetmiş yaşında
olanda oğulları İbram, Naxor və Ha-
ran doğuldu.

27Terahın nəsil tarixçəsi belədir:
Terahdan İbram, Naxor və Haran
törədi. Harandan Lut törədi. 28Haran
atası Terahın sağlığında doğulduğu
ölkədə – Xaldeylilərin Ur şəhərində
öldü. 29İbram və Naxor özlərinə arvad
aldılar. İbramın arvadının adı Saray,
Naxorun arvadının adı isə Milka idi.
Milka və İska Haranın qızları idi.
30Saray sonsuz idi, onun uşağı ol-
murdu.

31Terah oğlu İbramı, Haranın oğlu
olan nəvəsi Lutu, oğlu İbramın arvadı
olan gəlini Sarayı özü ilə götürdü və
Kənan torpağına getmək üçün Xal-
deylilərin Ur şəhərindən çıxdı. Onlar
Xarana gəlib, orada məskən saldılar.

32Terah iki yüz beş il ömür sürüb
Xaranda öldü.

---

a **11:9** *Babil* – bu söz ibrani dilində *qarışdırmaq* mənasını verən *balal* sözünə bənzəyir.

Gen Lat:Azeri Bible Cyrillic 14.01.2009 15:53 Page 13



### *Allahın İbrama çağırışı*

12 1Rəbb İbrama dedi: «Öz tor-
pağından, qohumlarının arasın-
dan, ata evindən çıx, sənə göstərəcə-
yim torpağa get. 2Səndən böyük bir
millət törədəcəyəm, sənə xeyir-dua
verəcəyəm, adını ucaldacağam və bə-
rəkət qaynağı olacaqsan. 3Sənə xeyir-
dua verənlərə xeyir-dua verəcəyəm,
sənə lənət edənləri lənətləyəcəyəm. Yer
üzünün bütün tayfaları sənin vasitənlə
xeyir-dua alacaq».
4İbram Rəbbin ona söylədiyi kimi
oradan çıxdı. Lut da onunla birgə
getdi. Xarandan çıxdığı vaxt İbram
yetmiş beş yaşında idi. 5İbram arvadı
Sarayı, qardaşı oğlu Lutu, Xaranda
əldə etdikləri bütün əmlakı və özünün
bütün nökərlərini götürüb Kənan tor-
pağına tərəf yola düşdü. Onlar Kənan
torpağına gəldilər. 6İbram oranı do-
laşıb, Şekem deyilən yerdəki More
palıdının yanına çatdı. O vaxt bu
torpaqda Kənanlılar yaşayırdı. 7Rəbb
İbrama görünüb dedi: «Bu torpağı
sənin nəslindən olana verəcəyəm».
İbram ona görünən Rəbbə orada bir
qurbangah düzəltdi. 8Buradan Bet-
Elin şərqində yerləşən dağlıq yerə tərəf
yola düşdü və burada çadır qurdu.
Çadırdan qərbdə Bet-El, şərqdə isə Ay
şəhəri idi. İbram orada da Rəbbə bir
qurbangah qurdu və Rəbbə sitayiş
etdi. 9İbram tədricən cənuba doğru
hərəkət edirdi.

### *İbram Misirdə*

10Bu torpaqda aclıq başlandı.
İbram müvəqqəti qalmaq üçün Misirə
getdi, çünki ölkədə böyük aclıq hökm
sürürdü. 11O, Misirə yaxınlaşanda
arvadı Saraya dedi: «Bax mən bilirəm
ki, sən gözəl qadınsan. 12Misirlilər səni
görüb deyəcəklər: "Bu onun arvadı-
dır". Onda məni öldürəcəklər, səni isə
sağ buraxacaqlar. 13Bəlkə sən deyəsən
ki, mənim bacımsan, onda sənin xa-
tirinə mənimlə yaxşı rəftar edərlər və
mən də sağ qalaram».
14İbram Misirə gəlib çatanda Mi-
sirlilər onun arvadının çox gözəl oldu-
ğunu gördülər. 15Fironun əyanları da
qadını gördülər və onu firona tərif-
lədilər. Qadın fironun sarayına apa-
rıldı. 16Onun xatirinə firon İbramla da
yaxşı rəftar etdi: İbram qoyun-keçi,
mal-qara, erkək və dişi eşşəklər,
qullar, qarabaşlar və dəvələr sahibi
oldu.
17Ancaq Rəbb İbramın arvadı
Saraydan ötrü fironun və onun ev
adamlarının başına böyük fəlakətlər
gətirdi. 18Firon İbramı çağırıb dedi:
«Bu nə işdir, mənim başıma gətirdin?
Bu qadının sənin arvadın olduğunu
niyə mənə bildirmədin? 19Nə üçün "bu
mənim bacımdır" dedin ki, mən də
onu özümə arvad olmaq üçün aldım?
İndi isə arvadını da götür get». 20Firon
adamlara onlar barədə əmr verdi və
İbramla arvadını sahib olduğu bütün
şeylərlə birgə yola saldılar.

### *Lutun İbramdan ayrılması*

13 1İbram arvadı və sahib olduğu
bütün şeylərlə birgə Misirdən
çıxıb Negev torpağına getdi. Lut da
onunla idi. 2İbram çox varlandı: onun
çoxlu sürüsü və qızıl-gümüşü oldu.
3Negevdən çıxıb bir yerdən o biri yerə
keçərək Bet-Elə qədər – Bet-Ellə Ay

**12:1** *Həv. 7:2-3; İbr. 11:8* **12:3** *Yar. 22:18; 26:4; 28:14; Həv. 3:25; Qal. 3:8*
**12:7** *Həv. 7:5; Qal. 3:16* **12:13** *Yar. 20:2; 26:7*

Gen Lat:Azeri Bible Cyrillic 14.01.2009 15:53 Page 14



şəhəri arasında əvvəllər çadır qurduğu yerə getdi. 4İbram o vaxt düzəltdiyi qurbangahın yanına çatdı və orada Rəbbə sitayiş etdi.

5İbramla birlikdə olan Lutun da qoyun-keçisi, mal-qarası və çadırları var idi. 6Birlikdə yaşamaq üçün yer onlara darlıq edirdi, çünki onların malı çox idi və birgə qala bilməzdilər. 7İbramın sürülərinin çobanları ilə Lutun sürülərinin çobanları arasında mübahisə düşdü. O vaxt bu torpaqda Kənanlılar və Perizlilər yaşayırdı.

8İbram Luta dedi: «Qoy mənimlə sənin və çobanlarımla çobanların arasında mübahisə olmasın, çünki biz qohumuq. 9Bütün torpaqlar gözünün önündə deyilmi? Gəl ayrılaq. Əgər sən sola getsən, mən sağa gedəcəyəm, sən sağa getsən, mən sola gedəcəyəm». 10Lut başını qaldırıb İordan çayının kənarındakı düzənliyi gördü. O vaxt bu yer Misir torpağı kimi bütünlüklə Soara qədər suvarılırdı və Rəbbin bağı kimi idi. Rəbb hələ Sodom və Homorranı məhv etməmişdi. 11Lut özünə İordan çayının kənarındakı düzənliyi seçdi. O, şərqə tərəf hərəkət etdi. Beləcə onlar bir-birindən ayrıldı. 12İbram Kənan torpağında qaldı, Lut isə düzənlikdəki şəhərlərdə yaşamağa başladı və Sodoma qədər öz çadırlarını qurdu. 13Sodomun əhalisi çox pozğun idi və Rəbbə qarşı çoxlu günah edirdi.

14Lut İbramdan ayrıldıqdan sonra Rəbb İbrama dedi: «Başını qaldırıb dayandığın yerdən şimala, cənuba, şərqə və qərbə tərəf bax. 15Gördüyün bütün torpaqları əbədi olaraq sənə və nəslinə verəcəyəm. 16Nəslini yerin tozu qədər çoxaldacağam. Əgər bir nəfər yerin tozunu saya bilərsə, sənin nəslini də saya bilər. 17Qalx bu torpağı uzununa və eninə dolaş, çünki Mən onu sənə verirəm». 18İbram çadırını götürdü və gəlib Xevronda olan Mamre palıdının yanında məskən saldı. O burada Rəbbə bir qurbangah düzəltdi.

### *İbramın Lutu xilas etməsi*

14 1Bu zaman Şinar padşahı Amrafel, Ellasar padşahı Aryok, Elam padşahı Kedorlaomer və Qoyim padşahı Tidal 2Sodom padşahı Beraya, Homorra padşahı Birşaya, Adma padşahı Şinava, Sevoyim padşahı Şemeverə, Bela, yəni Soar padşahına qarşı müharibəyə başladı. 3Bu son beş padşah indi Duz dənizi adlanan Siddim vadisində öz qoşunlarını birləşdirdi. 4Onlar on iki il Kedorlaomerin əsarəti altında qalmış, on üçüncü il isə üsyan etmişdilər. 5On dördüncü il Kedorlaomer və onunla birgə olan padşahlar gəlib Aşterot-Qarnayimdə Rafalıları, Hamda Zuzluları, Şave-Qiryatayimdə Emliləri, 6çöl kənarındakı El-Parana qədər uzanan Seir dağlarında Xorluları qırdılar. 7Sonra geri qayıdıb En-Mişpata, yəni Qadeşə getdilər. Bütün Amaleq torpağının əhalisini və Xaseson-Tamarda yaşayan Emorluları qırdılar. 8Sodom padşahı, Homorra padşahı, Adma padşahı, Sevoyim padşahı, Bela, yəni Soar padşahı Siddim vadisinə gəlib, 9Elam padşahı Kedorlaomerlə, Qoyim padşahı Tidalla, Şinar padşahı Amrafellə, Ellasar padşahı Aryokla döyüşə girdilər: dörd padşah beş padşaha qarşı idi. 10Siddim vadisində qatranla dolu çoxlu çuxur var idi. Sodom və Homorra padşahları döyüşdən qaçan-

**13:10** *Yar. 2:10* **13:15** *Həv. 7:5*

Gen Lat:Azeri Bible Cyrillic 14.01.2009 15:53 Page 15



da oraya yıxıldılar, sağ qalanlar isə
dağlara qaçdılar. 11Qaliblər Sodom və
Homorranın bütün əmlakını və azu-
qəsini götürüb getdilər. 12İbramın
qardaşı oğlu Lutu və onun əmlakını
özləri ilə apardılar, çünki o da So-
domda yaşayırdı.

13Döyüşdən sağ qurtaran bir nəfər
gəlib İbrani İbrama bunu xəbər verdi.
O, Eşkolun və Anerin qardaşı Emorlu
Mamrenin palıdının yanında yaşa-
yırdı. Onlar İbramın müttəfiqləri idi.
14İbram qohumu Lutun əsir alındığını
eşidəndə evində doğulmuş, döyüş
təlimi keçmiş üç yüz on səkkiz nökərini
götürüb düşmənləri Dana qədər təqib
etdi. 15Özü və nökərləri gecə vaxtı
dəstələrə bölünüb, onları qırdılar və
sağ qalanları Dəməşqin şimal tərə-
fində olan Xovaya qədər təqib etdilər.
16İbram qarət olunmuş bütün əmlakı,
qardaşı oğlu Lutu və onun əmlakını,
həmçinin qadınları və xalqı geri qay-
tardı.

### *Melkisedeqin İbrama xeyir-dua verməsi*

17İbram Kedorlaomer və onunla
olan padşahları məğlub edib qayıdan-
da Sodom padşahı «Padşah vadisi»
adlanan Şave vadisində onun pişva-
zına çıxdı.

18Onda Salem padşahı Melkisedeq
çörək və şərab gətirdi. O, Allah-
Taalanın kahini idi. 19Melkisedeq
İbrama xeyir-dua verib dedi:

«Göy və yerin sahibi Allah-Taala
İbrama xeyir-dua versin.
20Düşmənlərini sənə təslim edən
Allah-Taalaya alqış olsun».

İbram bütün qənimətin onda birini
Melkisedeqə verdi.

21Sodom padşahı İbrama dedi:
«Adamlarımı mənə ver, əmlak isə sənə
qalsın». 22Ancaq İbram Sodom pad-
şahına dedi: «Əllərimi göy və yerin
sahibi Allah-Taala Rəbbin dərgahına
qaldırıram ki, 23sənin nə bir ipini, nə
də bir çarıq bağını götürürəm, ta
deməyəsən ki, mən İbramı varlan-
dırdım. 24Nökərlərin yediklərindən
başqa, hər şey sənin olsun. Üstəlik
mənimlə gedən adamlar – Aner, Eşkol
və Mamre öz paylarını götürsün».

### *Allahın İbramla əhdi*

15 1Bir müddət sonra İbrama
görüntüdə Rəbbin bu sözü nazil
oldu: «Ey İbram, qorxma. Sənin qal-
xanın Mənəm. Mükafatın çox böyük
olacaq». 2İbram dedi: «Ey Xudavənd
Rəbb, mənə nə verəcəksən? Mənim
övladım yoxdur, evimin sahibi bu
Dəməşqli Eliezer olacaq». 3İbram
sözünə davam etdi: «Sən mənə övlad
vermədiyin üçün evimin nökəri mənim
varisim olacaq». 4Ona Rəbbin bu sözü
nazil oldu: «O sənin varisin olmaya-
caq, öz belindən gələn övladın sənin
varisin olacaq». 5Rəbb onu bayıra
çıxarıb dedi: «Göyə bax, oradakı ul-
duzları saya bilərsənsə, say». Yenə
dedi: «Nəslin o qədər olacaq». 6İbram
Rəbbə iman etdi və Rəbb bunu ona
salehlik saydı.

7Rəbb İbrama dedi: «Bu torpağı
sənə irs olaraq vermək üçün səni
Xaldeylilərin Ur şəhərindən çıxaran
Mən Rəbbəm». 8İbram soruşdu: «Ya
Xudavənd Rəbb, onu irs olaraq
alacağımı necə bilim?» 9Rəbb ona
dedi: «Mənim üçün bir üçyaşlı düyə,
bir üçyaşlı keçi, bir üçyaşlı qoç,
həmçinin bir qumru və bir göyərçin

**14:17-20** *İbr. 7:1-10* **15:5** *Rom. 4:18; İbr. 11:12* **15:6** *Rom. 4:3,9,22; Qal. 3:6; Yaq. 2:23*

Gen Lat:Azeri Bible Cyrillic 14.01.2009 15:53 Page 16



balası gətir». **10**İbram bunların hamısını götürüb kəsdi və iki hissəyə ayırdı, hər hissəni o birinin qarşısına qoydu, ancaq quşları kəsmədi. **11**Yırtıcı quşlar cəmdəklərin üzərinə uçub gəldilər, ancaq İbram onları qovdu.

**12**Günəş batan vaxt İbrama dərin yuxu gəldi. Birdən onun üzərinə dəhşət və qatı qaranlıq çökdü. **13**Rəbb İbrama dedi: «Yəqin bil ki, nəslin yad ölkədə qərib olacaq, orada olan millətə köləlik edəcək və onlara dörd yüz il zülm ediləcək. **14**Ancaq onların köləlik edəcəkləri xalqı Özüm cəzalandıracağam. Bundan sonra onlar böyük əmlakla oradan çıxacaqlar. **15**Sən isə atalarının yanına gedəcəksən, uzun ömür sürəndən sonra öləcəksən. **16**Sənin dördüncü nəslin buraya qayıdacaq, çünki Emorluların günah kasası hələ dolmayıb».

**17**Günəş batıb qaranlıq düşəndə tüstü çıxan bir təndir və alovlanan məşəl görünərək parçalanmış heyvanların arasından keçdi. **18**O gün Rəbb İbramla əhd bağlayıb dedi: «Misir çayından böyük Fərat çayına qədər uzanan bu torpaqları – **19**Qenlilərin, Qenizlilərin, Qadmonluların, **20**Xetlilərin, Perizlilərin, Rafalıların, **21**Emorluların, Kənanlıların, Qirqaşlıların və Yevusluların torpağını Mən sənin nəslinə verirəm».

### *Həcər və İsmail*

**16** **1**İbramın arvadı Sarayın uşağı olmurdu. Onun Həcər adında Misirli bir qarabaşı var idi. **2**Saray İbrama dedi: «Bax Rəbb mənim bətnimi bağladı ki, uşağım olmasın. Qarabaşımla yaxınlıq et, qoy o mənim üçün uşaq doğsun». İbram Sarayın sözünə qulaq asdı. **3**İbramın arvadı Saray qarabaşı Misirli Həcəri götürüb əri İbrama arvad olmaq üçün verdi; bu əhvalat İbram Kənan torpağında on il yaşadıqdan sonra baş verdi. **4**İbram Həcərlə yaxınlıq etdi və Həcər hamilə oldu. Həcər hamilə olduğunu görəndə xanımına həqarətlə baxmağa başladı. **5**Saray İbrama dedi: «Mənim təhqir olunmağıma sən səbəb oldun. Mən qarabaşımı sənin qoynuna verdim, o da hamilə olduğunu görəndə mənə həqarətlə baxmağa başladı. Qoy səninlə mənim aramda Rəbb hökm etsin». **6**İbram Saraya dedi: «Qarabaşını sənin ixtiyarına verirəm, ona nə istəyirsən, elə». Saray qarabaşı ilə sərt rəftar etməyə başladı və qarabaşı onun yanından qaçdı.

**7**Rəbbin mələyi Şur yolundakı çöldə olan bulağın yanında onu tapdı. **8**Mələk ondan soruşdu: «Ey Sarayın qarabaşı Həcər, haradan gəlib, haraya gedirsən?» Həcər dedi: «Mən xanımım Sarayın yanından qaçıram». **9**Rəbbin mələyi ona dedi: «Xanımının yanına qayıt və ona tabe ol». **10**Rəbbin mələyi sözünə davam etdi: «Sənin nəslini lap çoxaldacağam, çoxluğuna görə sayı-hesabı bilinməyəcək». **11**Sonra Rəbbin mələyi ona dedi:

«Bax sən hamiləsən,
Bir oğul doğacaqsan.
Onun adını İsmail[a] qoyarsan,
Çünki Rəbb əziyyət içində
fəryadını eşitdi.
**12**O, insanlar arasında
Vəhşi eşşək kimi olacaq:
O hamıya,
Hamı isə ona qarşı çıxacaq,

---

a **16:11** *İsmail* – ibrani dilində *Allah eşidir.*

**15:13** *Çıx. 1:1-14; Həv. 7:6* **15:14** *Çıx. 12:40-41; Həv. 7:7* **15:18-21** *Həv. 7:5*

Gen Lat:Azeri Bible Cyrillic 14.01.2009 15:53 Page 17



Bütün qardaşları ilə yola
getməyərək yaşayacaq».
13Həcər onunla danışan Rəbbə
«Sən məni görən Allahsan»[a] dedi,
çünki o söyləmişdi: «Doğrudan da,
burada məni görən Allahı gördüm».
14Buna görə də həmin bulaq Beer-La-
xay-Roi[b] adlanır. O, Qadeşlə Beredin
arasında yerləşir.
15Həcər İbrama bir oğul doğdu və
İbram Həcərdən olan oğlunun adını
İsmail qoydu. 16Həcər ona İsmaili do-
ğanda İbramın səksən altı yaşı var idi.

### *Əhdin rəmzi olan sünnət*

17 1İbram doxsan doqquz yaşında
olanda Rəbb ona görünərək
dedi: «Külli-İxtiyar Allah Mənəm.
Mənim yolumla get və kamil ol.
2Əhdimi Özümlə sənin aranda qoya-
cağam və nəslini lap çoxaldacağam».
3İbram üzüstə düşdü. Allah onunla
danışıb dedi: 4«Mən səninlə əhd
bağlamışam, sən çoxlu millətin atası
olacaqsan. 5Daha sənə İbram deyil-
məyəcək, bu gündən adın İbrahim[c]
olacaq, çünki səni çoxlu millətin atası
etdim. 6Nəslini lap çoxaldacağam,
səndən millətlər törədəcəyəm və
nəslindən padşahlar çıxacaq. 7Özümlə
sənin və səndən sonrakı nəslinin
arasında əbədi əhd qoyuram ki, Mən
sənin və səndən sonrakı nəslinin Allahı
olacağam. 8Sənə və səndən sonrakı
nəslinə qərib kimi yaşadığın bu tor-
pağı – bütün Kənan torpağını əbədi
mülk olaraq verəcəyəm və onların
Allahı olacağam».
9Sonra Allah İbrahimə dedi: «Sən
və səndən sonrakı övladların nəsillər
boyu əhdimə əməl edin. 10Mənim
səninlə və səndən sonrakı nəslinlə
bağladığım, sizin əməl edəcəyiniz
əhdin əlaməti budur: qoy aranızda
olan bütün kişilər sünnət olunsun.
11Sünnət ətinizi kəsin; bu Mənimlə
sizin aranızda olan əhdin əlaməti
olacaq. 12Evinizdə doğulmuş yaxud
nəslinizdən olmayıb bir yadellidən
satın alınmış kişi cinsindən olan hər
uşaq səkkizinci gün sünnət olunsun;
bu, nəsildən-nəslə davam etsin.
13Evinizdə doğulmuş yaxud satın alın-
mış hər uşaq mütləq sünnət olunma-
lıdır. Beləcə Mənim əhdimin əlaməti
əbədi olaraq bədəninizdə olacaq.
14Sünnət əti kəsilməmiş kişi cinsindən
olan hər kəs xalqının arasından qovu-
lacaq, çünki əhdimi pozmuş olacaq».
15Allah yenə İbrahimə dedi: «Ar-
vadın Saraya isə artıq Saray demə.
Bundan sonra onun adı Sara[d] olacaq.
16Ona xeyir-dua verəcəyəm, ondan
sənə bir oğul verəcəyəm. Saraya xeyir-
dua verəcəyəm: o, millətlərin anası
olacaq və xalqların padşahları ondan
doğulacaq». 17İbrahim üzüstə düşdü
və gülüb ürəyində dedi: «Yüz yaşlı
adamın oğlu ola bilərmi? Doxsan ya-
şında olan Sara doğacaqmı?» 18Sonra
İbrahim Allaha dedi: «Kaş ki İsmail
Sənin önündə xeyir-dua alaydı!»
19Allah isə dedi: «Xeyr, arvadın Sara
sənə bir oğul doğacaq və adını İshaq[e]
qoyacaqsan. Onunla və ondan sonrakı
nəsli ilə əhdimi əbədi olaraq davam
etdirəcəyəm. 20İsmail barədə dediyin
sözləri də eşitdim. Ona xeyir-dua

a **16:13** *Məni görən Allah* – ibrani mətnində *El-Roi.*
b **16:14** *Beer-Laxay-Roi* – ibrani dilində *məni görən Var Olanın bulağı.*
c **17:5** *İbram* – ibrani dilində *ali ata; İbrahim – çoxlarının atası.*
d **17:15** *Sara* – ibrani dilində *mələkə.*
e **7:19** *İshaq* – ibrani dilində *gülür.*

**16:15** *Qal. 4:22* **17:5** *Rom. 4:16-17* **17:7** *Luka 1:54-55* **17:8** *Həv. 7:5* **17:10** *Həv. 7:8; Rom. 4:11*

Gen Lat:Azeri Bible Cyrillic 14.01.2009 15:53 Page 18



verəcəyəm, onu bəhərli edəcəyəm,
nəslini lap çoxaldacağam. O, on iki
başçının atası olacaq. Ondan böyük
bir millət törədəcəyəm. 21Əhdimi isə
gələn il bu vaxt Saranın sənə doğacağı
İshaqla davam etdirəcəyəm». 22Allah
İbrahimlə söhbətini bitirərək ondan
ayrılıb yuxarı çəkildi.

23İbrahim oğlu İsmaili, evində
doğulan bütün nökərləri, satın aldığı
hər kəsi – öz evində kişi cinsindən olan
bütün adamları götürüb həmin gün
Allahın ona dediyi kimi sünnət ətlərini
kəsdi. 24Sünnət əti kəsilən vaxt İbra-
him doxsan doqquz yaşında idi.
25Oğlu İsmail isə sünnət əti kəsilən
vaxt on üç yaşında idi. 26İbrahim oğlu
İsmaillə birgə həmin gün sünnət olun-
du. 27Onunla birgə evdəki bütün ki-
şilər – evində doğulan və yadellilərdən
satın alınmış hər kəs sünnət olundu.

### *İbrahimə oğlu olacağı barədə vəd verilməsi*

18 1Mamre palıdının yanında
Rəbb İbrahimə göründü; bu
zaman o, günün istisində çadırın
girəcəyində oturmuşdu. 2O, başını qal-
dırıb baxanda qarşısında üç adamın
dayandığını gördü. Onları görən kimi
çadırın girəcəyindən onları qarşıla-
mağa qaçdı və yerə qədər əyilib dedi:
3«Ey ağam, əgər indi gözündə lütf
tapdımsa, qulunun yurdundan yan
keçmə. 4İndi bir az su gətirərlər, ayaq-
larınızı yuyub, ağac altında dincə-
lərsiniz. 5Mən isə bir parça çörək
gətirərəm ki, canınıza qüvvət gəlsin.
Ondan sonra gedərsiniz, çünki siz
qulunuzun yanından keçirdiniz».
Onlar dedilər: «Dediyin kimi elə».

6İbrahim çadıra – Saranın yanına
qaçıb dedi: «Tez ol, üç sea narın un
götürüb xəmir yoğur və kökə bişir».
7İbrahim mal-qaraya tərəf qaçdı.
Oradan körpə və yaxşı bir buzov
götürüb nökərinə verdi. Nökər də onu
hazırlamaq üçün tələsdi. 8İbrahim
kəsmiyi, südü və hazırladığı buzovu
götürüb onların qabağına qoydu, özü
isə ağacın altında, onların yanında
durdu. Onlar da yedilər.

9Sonra İbrahimə dedilər: «Arvadın
Sara haradadır?» O dedi: «Burada
çadırdadır». 10Onlardan biri dedi:
«Gələn il bu vaxt yenə də sənin yanına
gələcəyəm. Onda arvadın Saranın bir
oğlu olacaq». Sara onun arxasında,
çadırın girəcəyində durub qulaq asır-
dı. 11İbrahim və Sara qocalıb yaşa
dolmuşdular. Sara aybaşıdan kəsil-
mişdi. 12O, ürəyində gülüb dedi:
«Qocaldığım halda mənə belə şadlıq
üz verə bilərmi? Ağam da qocadır».
13Rəbb İbrahimə dedi: «Sara nə üçün
"Qocaldıqdan sonra mən uşaq doğa
bilərəmmi?" deyib güldü? 14Rəbb üçün
çətin bir şey varmı? Gələn il bu vaxt
Mən yenə sənin yanında olacağam və
Saranın bir oğlu olacaq». 15Sara qorx-
duğu üçün «gülmədim» deyib inkar
etdi. Ancaq Rəbb dedi: «Xeyr, gül-
dün». 16O adamlar qalxıb oradan
Sodoma tərəf baxdılar. İbrahim onları
yola salmaq üçün onlarla birgə getdi.

### *İbrahimin Sodom üçün yalvarması*

17O vaxt Rəbb dedi: «Mən edəcə-
yim şeyi İbrahimdən gizlədəcəyəmmi?
18Həqiqətən, İbrahimdən böyük və
güclü bir millət törəyəcək, onun
vasitəsilə yer üzünün bütün millətləri
xeyir-dua alacaq. 19Çünki Mən onu
seçdim ki, oğullarına və özündən

**18:2** *İbr. 13:2* **18:10** *Rom. 9:9* **18:12** *1Pet. 3:6* **18:14** *Luka 1:37*

Gen Lat:Azeri Bible Cyrillic 14.01.2009 15:53 Page 19



sonrakı nəslinə saleh və ədalətli işlər
görmək üçün Rəbbin yolu ilə getməyi
tapşırsın. Rəbb də İbrahim barədə
dediyi sözü yerinə yetirsin». 20Rəbb
yenə dedi: «Sodom və Homorraya
qarşı qalxan fəryad böyük, oranın
adamlarının günahı çox ağırdır.
21Buna görə də aşağı enib baxacağam
ki, Mənə çatan fəryadın doğru olub-
olmadığını bilim».

22O adamlar oradan dönüb Sodo-
ma getdilər, ancaq İbrahim hələ də
Rəbbin önündə dururdu. 23İbrahim
yaxın gəlib dedi: «Doğrudanmı, Sən
salehi də günahkarla birgə məhv
edəcəksən? 24Əgər bu şəhərdə əlli nəfər
saleh adam olsa, Sən yenə də oranı
məhv edəcəksən? Əlli nəfər saleh ada-
mın xatirinə bu yerə rəhm etməyə-
cəksən? 25Axı Sən bunu eləməzsən,
saleh adamı günahkarla birgə öldür-
məzsən. Saleh adamın aqibətini gü-
nahkarınkı kimi etməzsən, Sən bunu
eləməzsən. Bütün dünyanın Hakimi
belə ədalətsizlik etməz». 26Rəbb dedi:
«Əgər Sodom şəhərində əlli nəfər saleh
adam tapsam, onların xatirinə bütün
bu yerə rəhm edəcəyəm».

27İbrahim cavab verdi: «Mən
önündə toz və kül kimi bir şey olsam
da, indi bunu Rəbbə söyləməyə cəsarət
edirəm: 28əlli nəfərdən beş nəfər az
saleh adam tapılsa, beş nəfər əskik
olduğu üçün bütün şəhəri məhv
edərsənmi?» Rəbb dedi: «Əgər orada
qırx beş nəfər tapsam, şəhəri dağıt-
mayacağam».

29İbrahim yenə Onu dilə tutub dedi:
«Əgər orada qırx nəfər tapılsa, necə?»
Rəbb dedi: «Qırx nəfərin də xatirinə
bunu etmərəm».

30İbrahim dedi: «Mən çox danış-
dığım üçün Rəbb qəzəblənməsin: əgər
orada otuz nəfər tapılsa, necə?» Rəbb
dedi: «Əgər orada otuz nəfər də tapıl-
sa, bunu etmərəm».

31İbrahim dedi: «Mən yenə də
Rəbbə bunu söyləməyi cəsarət edirəm:
orada iyirmi nəfər tapılsa, necə?»
Rəbb dedi: «İyirmi nəfərin də xatirinə
oranı məhv etmərəm».

32İbrahim dedi: «Qoy Rəbb qəzəb-
lənməsin ki, mən son dəfə danışa-
cağam: orada on nəfər tapılsa, necə?»
Rəbb dedi: «On nəfərin də xatirinə
oranı məhv etmərəm».

33Rəbb İbrahimlə söhbətini bitirib
getdi. İbrahim də öz yerinə qayıtdı.

### *Sodom və Homorranın məhv olması*

19 1Axşam iki mələk Sodoma
gəldi. Lut şəhərin darvazası
yanında oturmuşdu. O, mələkləri
gördü, qalxıb onları qarşıladı və yerə
qədər əyilib dedi: 2«Ağalarım, qulu-
nuzun evinə girib gecələyin və ayaq-
larınızı yuyun. Səhər qalxıb yolunuza
davam edərsiniz». Onlar dedilər:
«Yox, biz gecəni şəhər meydanında
keçirəcəyik». 3Lut onları çox dilə
tutdu, axırda onlar Lutla birgə onun
evinə getdilər. Lut onları qonaq edib
mayasız çörəklər bişirdi və onlar
yedilər. 4Ancaq onlar yatmazdan
əvvəl cavandan tutmuş qocaya qədər
Sodom şəhərinin hər məhəlləsindən
olan kişilər evi əhatəyə aldılar.
5Adamlar Lutu çağırıb ona dedilər:
«Bu gecə sənin yanına gələn adamlar
haradadır? Onları bizim yanımıza
gətir ki, onlarla yaxınlıq edək». 6Lut
bayıra – onların yanına çıxıb arxa-
sınca qapını örtdü. 7O dedi: «Qar-
daşlarım, pislik etməyin. 8Mənim ərə
getməmiş iki qızım var. Qızlarımı sizin
yanınıza gətirim, onlara nə istəyirsiniz,

Gen Lat:Azeri Bible Cyrillic 14.01.2009 15:53 Page 20



edin. Ancaq bu adamlara toxunma-
yın, çünki onlar mənim evimin qonaq-
larıdır». 9Kişilər qışqırıb dedilər:
«Geri çəkil! Bu adam burada qəribdir,
ancaq ağalıq edir. İndi səninlə on-
lardan da pis rəftar edəcəyik». Onlar
Luta hücum edib qapını qırmaq üçün
yaxınlaşdılar. 10Onda içəridəki mələk-
lər əllərini uzadıb Lutu evin içinə – öz
yanlarına saldılar və qapını bağladılar.
11Evin qapısı arxasında duran adam-
ları kiçikdən tutmuş böyüyə qədər kor
etdilər. Bu səbəbdən adamlar qapını
tapa bilmədilər.

12Mələklər Luta dedilər: «Burada
daha kimin var? Bu şəhərdə kürəkən-
lərin, oğulların, qızların – nəslindən
olan hər kəs varsa, hamısını bu yerdən
çıxart, 13çünki biz bu yeri məhv
edəcəyik. Bu xalqın əleyhinə qalxan
fəryad Rəbbə gəlib çatmışdır, buna
görə də Rəbb bizi göndərib ki, onu
məhv edək». 14Lut gedib qızlarını
almaq istəyən kürəkənlərinə dedi:
«Qalxıb bu yerdən çıxın, çünki Rəbb
şəhəri məhv edəcək». Ancaq kürəkən-
ləri güman etdilər ki, o zarafat edir.

15Səhər açılanda mələklər Lutu
tələsdirərək dedilər: «Qalx yanındakı
arvadını və iki qızını götür get, yoxsa
şəhərdəkilərin günahlarına görə məhv
olacaqsan». 16Lut yavaş tərpəndi.
Rəbb ona mərhəmət etdiyinə görə
həmin şəxslər onun, arvadının və iki
qızının əlindən tutub şəhərdən kənara
çıxartdılar. 17Onları çıxaran zaman
mələklərdən biri dedi: «Öz canını
qurtar, arxana baxma. Bu düzənliyin
heç yerində qalma, dağa qalx, yoxsa
həlak olarsan». 18Lut onlara dedi:
«Aman, ağam! 19İndi bu qulun sənin
gözündə lütf tapdı və canımı xilas
etməklə mənə göstərdiyin xeyirxah-
lığını çoxaltdın. Ancaq dağa çata
bilmərəm, çünki bəla mənə də yetişə
bilər və həlak olaram. 20Yaxınlıqda
qaça biləcəyim kiçik bir şəhər var. Qoy
oraya qaçıb canımı qurtarım. Axı o
şəhər kiçikdir». 21Mələklərdən biri
Luta dedi: «Sənin xatirinə bunu da
edərəm: dediyin şəhəri dağıtmaram.
22Tez ol, oraya qaç! Sən oraya çat-
mamış Mən bir şey etməyəcəyəm».
Buna görə də o şəhər Soar[a] adlandı.
23Günəş doğanda Lut Soara gəldi.

24Rəbb Sodom və Homorranın
üzərinə göydən odlu kükürd yağdırdı,
25bu şəhərləri, bütün düzənliyi, oranın
bütün sakinlərini və torpaqda bitən
hər şeyi məhv etdi. 26Ancaq Lutun
arvadı dönüb geriyə baxdı və duz
sütununa çevrildi.

27İbrahim səhər erkən qalxıb Rəb-
bin önündə durduğu yerə getdi. 28Ora-
dan Sodom və Homorraya, bütün
düzənliyə baxdı. O, yerdən ocaq tüs-
tüsü kimi bir tüstü qalxdığını gördü.

29Allah düzənlikdəki şəhərləri məhv
etdiyi zaman İbrahimi xatırladı, buna
görə də Lutun yaşadığı şəhərləri da-
ğıdarkən onu fəlakət içindən çıxartdı.

### *Lut və onun qızları*

30Lut iki qızı ilə birgə Soardan çıxıb
dağda yaşadı, çünki Soarda yaşamaq-
dan qorxurdu. O, iki qızı ilə bir
mağarada qaldı. 31Onun böyük qızı
kiçiyinə dedi: «Atamız qocalıb və bu
dünyada insan adətinə görə yanımıza
girməyə bir kişi yoxdur. 32Gəl atamıza

a **19:22** *Soar* – ibrani dilində *kiçik*.
**19:16** *2Pet. 2:7* **19:24-25** *Mat. 10:15; 11:23-24; Luka 10:12; 17:29; 2Pet. 2:6; Yəhd. 7*
**19:26** *Luka 17:32*

Gen Lat:Azeri Bible Cyrillic 14.01.2009 15:53 Page 21



şərab içirək və onunla yataq ki, öz
atamızdan nəslimiz olsun». 33Onlar o
gecə atalarına şərab içirdilər. Böyük
qız içəri girib atası ilə yatdı, atası isə
onun nə vaxt yatıb-durduğunu bil-
mədi. 34O biri gün böyük qız kiçiyinə
dedi: «Mən dünən gecə atamla yatdım.
Gəl bu gecə də ona şərab içirək və sən
də onunla yat ki, öz atamızdan nəs-
limiz olsun». 35O gecə yenə atalarına
şərab içirdilər. Kiçik qız qalxıb onunla
yatdı, atası isə onun nə vaxt yatıb-
durduğunu bilmədi.

36Lutun iki qızı beləcə atalarından
hamilə oldu. 37Böyük qız bir oğul
doğdu və onun adını Moav qoydu. O,
indiki Moavlıların əcdadıdır. 38Kiçik
qız da bir oğul doğdu və onun adını
Ben-Ammi qoydu. O, indiki Ammon-
luların əcdadıdır.

### *İbrahim və Avimelek*

20 1İbrahim Mamredən Negev
torpağına köçdü və Qadeşlə
Şur arasında məskən saldı. Sonra bir
müddət Gerarda qaldı. 2İbrahim ora-
da arvadı Sara barəsində «bu mənim
bacımdır» söylədi. Gerar padşahı Avi-
melek adam göndərib Saranı apardı.
3Ancaq gecə yuxuda Allah Avimelekə
görünüb dedi: «Apardığın qadına görə
sən öləcəksən, çünki o, bir nəfərin
arvadıdır». 4Avimelek qadına toxun-
mamışdı. O dedi: «Ya Rəbb, məgər
sən günahsız xalqı öldürə bilərsən? 5O
adam mənə "bu mənim bacımdır"
demədimi? Qadın özü də "o mənim
qardaşımdır" dedi. Mən bunu sadə-
dillik və təmiz niyyətlə etdim». 6Allah
yuxuda dedi: «Mən də bilirəm ki, sən
bunu sadədilliklə etdin. Buna görə də
səni ona toxunmağa qoymayaraq
Mənə qarşı günah etməkdən saxladım.
7İndi isə qadını ərinə qaytar, çünki o,
peyğəmbərdir. Sənin üçün dua edər,
salamat qalarsan. Ancaq qadını qay-
tarmasan, özün və bütün nəslin hök-
mən öləcək».

8Avimelek səhər tezdən qalxıb
bütün adamlarını çağırdı və bu sözləri
onların qarşısında söylədi. Adamlar
çox qorxdular. 9Avimelek İbrahimi
çağırıb ona dedi: «Bizə nə etdin? Sənə
qarşı nə günah etdim ki, özümün və
padşahlığımın üzərinə bu böyük təqsiri
gətirdin? Mənə qarşı nalayiq işlər
etdin». 10Avimelek yenə İbrahimə
dedi: «Bu işi görəndə nə düşünürdün?»
11İbrahim dedi: «Düşünürdüm ki,
burada Allah qorxusu yoxdur və
arvadıma görə məni öldürəcəklər. 12O,
doğrudan da, mənim bacımdır: atamız
birdir, ancaq anamız ayrıdır. Mən onu
arvad aldım. 13Allah məni ata evim-
dən qürbətə apardığı vaxt ona dedim:
"Mənə bu cür yaxşılıq elə: gedəcəyimiz
hər yerdə mənim barəmdə ‹bu mənim
qardaşımdır› söylə"».

14Avimelek İbrahimə qoyun-keçi,
mal-qara, qullar və qarabaşlar verdi.
Arvadı Saranı da ona qaytardı.
15Avimelek dedi: «Mənim ölkəm sənin
önündədir: istədiyin yerdə yaşaya
bilərsən». 16Sonra Saraya dedi: «Bax
qardaşına min parça gümüş verdim.
Qoy bu gümüş sənin yanındakılara
günahsızlığını göstərən bir sübut olsun
və hər kəs sənin günahsız olduğunu
bilsin». 17İbrahim Allaha dua etdi,
Allah da Avimelekə, onun arvadına və
cariyələrinə şəfa verdi: onların uşaq-
ları oldu. 18Çünki Rəbb İbrahimin
arvadı Saradan ötrü Avimelekin
evində olan bütün qadınların bətnini

**20:2** *Yar. 12:13; 26:7*

Gen Lat:Azeri Bible Cyrillic 14.01.2009 15:53 Page 22



bağlamışdı.

### *İshaqın doğulması*

21 **1**Rəbb dediyi kimi Saraya nəzər
saldı və ona söylədiyi sözü
yerinə yetirdi: **2**Sara hamilə oldu və
İbrahimin qocalıq çağında – Allahın
ona söylədiyi vaxt bir oğul doğdu.
**3**İbrahim Saradan doğulan oğluna
İshaq[a] adını qoydu. **4**Allahın İbrahimə
əmr etdiyi kimi o, oğlu İshaqı
doğulandan səkkiz gün sonra sünnət
etdi. **5**İshaq doğulanda İbrahimin yüz
yaşı var idi. **6**Sara dedi: «Allah mənim
üzümü güldürdü. Bunu eşidən hər kəs
mənimlə birgə güləcək». **7**O yenə dedi:
«Kim İbrahimə deyərdi ki, Sara uşaq
əmizdirəcək? Amma qocalıq çağında
mən ona bir oğul doğmuşam».

### *Həcər və İsmailin evdən qovulması*

**8**Uşaq böyüyüb süddən kəsildi.
İshaqın süddən kəsildiyi gün İbrahim
böyük bir ziyafət verdi. **9**Sara gördü ki,
Misirli Həcərin İbrahimə doğduğu
oğlu ona gülür. **10**Sara İbrahimə dedi:
«Bu cariyəni və onun oğlunu qov. Bu
cariyənin oğlu mənim oğlum İshaqla
birgə varis olmayacaq». **11**Bu iş İbra-
himi çox narahat etdi, çünki İsmail də
onun oğlu idi. **12**Allah İbrahimə dedi:
«Uşaqdan və cariyəndən ötrü narahat
olma. Saranın sənə söylədiyi bütün
sözlərə qulaq as, çünki İshaqdan
törəyənlər sənin nəslin adlanacaq.
**13**Amma cariyənin oğlundan da bir
millət törədəcəyəm, çünki o da sənin
nəslindir».
**14**İbrahim səhər tezdən qalxdı,
çörək və bir tuluq su götürüb çiyninə
qoyaraq Həcərə verdi. Uşağı da ona
verib onu yola saldı. Həcər gedib Beer-
Şeva çölündə dolaşdı. **15**Tuluqda su
qurtardı. O, oğlunu bir kolun altına
qoydu. **16**Sonra oradan bir ox məsafəsi
qədər aralanıb uzaqda oturdu. «Oğlu-
mun ölümünü görməyim» dedi və
uşağın qarşısında oturub hönkür-
hönkür ağladı.
**17**Allah uşağın səsini eşitdi. Allahın
mələyi göylərdən Həcəri çağırıb dedi:
«Sənə nə olub, Həcər? Qorxma, çünki
uşağın oturduğu yerdən Allah onun
səsini eşitdi. **18**Qalx uşağı qaldır, onu
qucağına götür. Mən ondan böyük bir
millət törədəcəyəm». **19**Allah Həcərin
gözlərini açdı və o, bir su quyusu
gördü. Gedib tuluğu su ilə dolduraraq
uşağa içirtdi. **20**Allah bu uşaqla idi. O
böyüyüb, çöldə yaşamağa başladı və
mahir oxatan oldu. **21**O, Paran çö-
lündə məskən saldı. Anası ona Misir
torpağından bir arvad aldı.

### *İbrahimin Avimeleklə əhdi*

**22**O zaman Avimelek və onun ordu
başçısı Pikol İbrahimə dedilər: «Sən nə
etsən, Allah səninlədir. **23**İndi burada
Allahın haqqına mənə and iç ki, nə
mənə, nə oğluma, nə də nəvəmə
xəyanət edəcəksən: mən sənə sadiq
olduğum kimi sən də mənə və qaldığın
torpağın adamlarına sadiq ol».
**24**İbrahim «mən and içirəm» dedi.
**25**Avimelekin adamlarının qəsb
etdiyi su quyusundan ötrü İbrahim
Avimeleki məzəmmət etdi. **26**Avimelek
dedi: «Bilmirəm, bu işi kim etdi. Sən
də mənə bildirmədin, mən ancaq indi
eşidirəm». **27**İbrahim qoyun-keçi və

---

a **21:3** *İshaq* – ibrani dilində *gülür.*

**21:2** *İbr. 11:11* **21:4** *Yar. 17:12; Həv. 7:8* **21:9-10** *Qal. 4:29-30* **21:12** *Rom. 9:7; İbr. 11:18*
**21:22** *Yar. 26:26*

Gen Lat:Azeri Bible Cyrillic 14.01.2009 15:53 Page 23



mal-qara alıb Avimelekə verdi. Beləcə ikisi bir əhd bağladı. 28İbrahim sürüsündən yeddi dişi quzunu ayırıb qoydu. 29Avimelek İbrahimə dedi: «Ayırıb qoyduğun bu yeddi dişi quzu nə üçündür?» 30O dedi: «Bu yeddi dişi quzunu məndən götür ki, bu quyunu qazdığıma şəhadət olsun». 31Buna görə də o buranı Beer-Şeva[a] adlandırdı, çünki onların ikisi də orada and içdi. 32Beləcə Beer-Şevada əhd bağladılar. Sonra Avimelek və onun ordu başçısı Pikol qalxıb Filiştlilərin ölkəsinə qayıtdılar. 33İbrahim Beer-Şevada bir yulğun ağacı əkdi və orada əbədi Allah olan Rəbbə sitayiş etdi. 34İbrahim Filiştlilərin ölkəsində uzun müddət qaldı.

### *İbrahimin sınağa çəkilməsi*

22 1Bir müddət sonra Allah İbrahimi sınağa çəkdi. O «Ey İbrahim!» deyə çağırdı. İbrahim «Buradayam!» dedi. 2Allah dedi: «Sevdiyin yeganə oğlunu – İshaqı götürüb Moriya torpağına get. Orada sənə göstərəcəyim bir dağda oğlunu yandırma qurbanı olaraq təqdim et». 3İbrahim səhər tezdən qalxdı və eşşəyini palanladı. Özü ilə iki nökərini və oğlu İshaqı götürdü. O, yandırma qurbanı üçün odun yardı və qalxıb Allahın dediyi yerə yollandı. 4İbrahim üçüncü gün başını qaldırıb uzaqdan o yeri gördü. 5O, nökərlərinə dedi: «Siz eşşəklə birlikdə burada qalın, mən uşaqla oraya gedəcəyəm. Səcdə edib, yanınıza qayıdarıq».

6İbrahim yandırma qurbanı üçün odun götürüb oğlu İshaqın kürəyinə qoydu, odu və bıçağı isə özü götürdü. Onlar birlikdə getdilər. 7İshaq atası İbrahimi çağırdı: «Ay ata!» O cavab verdi: «Buradayam, oğlum». İshaq dedi: «Od və odun var, bəs yandırma qurbanı olacaq quzu haradadır?» 8İbrahim dedi: «Oğlum, yandırma qurbanı olacaq quzunu Allah Özü hazırlayacaq». Onlar birlikdə getdilər.

9Sonra Allahın İbrahimə göstərdiyi yerə gəldilər. İbrahim orada bir qurbangah düzəldib odunları düzdü və oğlu İshaqın əl-qolunu bağlayıb qurbangaha, odunların üstünə qoydu. 10İbrahim əlini uzadıb oğlunun başını kəsmək üçün bıçağı götürdü. 11Rəbbin mələyi göylərdən onu çağırdı: «İbrahim, İbrahim!» O «Mən buradayam!» dedi. 12Mələk dedi: «Uşağa əl qaldırma və ona bir şey etmə. İndi bildim ki, sən Allahdan qorxursan; öz yeganə oğlunu Məndən əsirgəmədin». 13İbrahim başını qaldırıb baxdı və arxasında buynuzları kolluğa ilişmiş bir qoç gördü. İbrahim gedib qoçu götürdü və oğlunun əvəzinə yandırma qurbanı olaraq təqdim etdi. 14İbrahim o yeri Yahve-İre[b] adlandırdı; buna görə də indiyə qədər belə deyilir: «Rəbbin dağında hazırlanacaq».

15Rəbbin mələyi yenə göylərdən İbrahimi çağırıb dedi: 16«Rəbb bəyan edir: "Öz varlığıma and içirəm ki, sən bu işi etdiyinə və yeganə oğlunu əsirgəmədiyinə görə 17Mən sənə böyük xeyir-dua verəcəyəm, nəslini göydəki ulduzlar və dəniz kənarındakı qum qədər artırıb çoxaldacağam. Sənin nəslin öz düşmənlərinin şəhərlərinə

a **21:31** *Beer-Şeva* – ibrani dilində *and quyusu* yaxud *yeddi quyu.*
b **22:14** *Yahve-İre* – ibrani dilində *Rəbb hazırlayar.*
**22:1-13** *İbr. 11:17-19* **22:9** *Yaq. 2:21* **22:16-17** *İbr. 6:13-14* **22:17** *İbr. 11:12*

Gen Lat:Azeri Bible Cyrillic 14.01.2009 15:53 Page 24



sahib olacaq. **18**Dünyanın bütün mil-
lətləri sənin nəslinin vasitəsilə xeyir-
dua alacaq, çünki sən Mənim sözümə
qulaq asdın”». **19**Sonra İbrahim öz
nökərlərinin yanına qayıtdı və onlar
qalxıb Beer-Şevaya getdilər. İbrahim
Beer-Şevada sakin oldu.

### *Naxorun nəsli*

**20**Bir müddət sonra İbrahimə xəbər
verib söylədilər: «Budur, Milka
qardaşın Naxora oğullar doğdu: **21**ilk
oğlu Us, onun qardaşı Buz, Aramın
atası olan Qemuel, **22**Kesed, Xazo,
Pildaş, İdlaf və Betuel». **23**Betueldən
Rivqa törədi. Bu səkkiz övladı Milka
İbrahimin qardaşı Naxora doğdu.
**24**Onun adı Reuma olan cariyəsi də
Tebahı, Qahamı, Taxaşı və Maakanı
doğdu.

### *Saranın ölümü*

**23** **1**Sara yüz iyirmi yeddi il
yaşadı; o bu qədər ömür sürdü.
**2**Sara Kənan torpağında olan Qiryat-
Arbada, yəni Xevronda öldü. İbrahim
yas tutub ağlamaqdan ötrü Saranın
cəsədinin yanına getdi. **3**İbrahim cə-
sədin yanından gedib Xetlilərə dedi:
**4**«Mən sizin aranızda qərib və qona-
ğam.[1] Yanınızda qəbir düzəltmək üçün
mənə torpaq sahəsi satın ki,[2] öz ölümü
götürüb orada basdırım». **5**Xetlilər
İbrahimə cavab verdilər: **6**«Ey ağamız,
bizə qulaq as: sən aramızda Allahın
qoyduğu bir başçısan, öz ölünü də
qəbirlərimizin ən yaxşısında basdır;
ölünü basdırmaq üçün bizdən heç kəs
qəbrini səndən əsirgəməz». **7**İbrahim
qalxıb o ölkənin xalqı olan Xetlilərə
təzim etdi. **8**Sonra onlarla danışıb
dedi: «Əgər siz mənim ölümü basdır-
mağa razısınızsa, mənə qulaq asın:
mənim üçün Sohar oğlu Efrondan
xahiş edin ki, **9**tarlasının qurtara-
cağında ona məxsus olan Maxpela
mağarasını mənə satsın, yanınızda
qəbir düzəltmək üçün onu tam dəyəri
ilə mənə versin».

**10**Efron Xetlilərin arasında otur-
muşdu. Xetli Efron şəhər darvazasının
yanına yığılan bütün Xetlilərin önündə
İbrahimə belə cavab verdi: **11**«Yox,
ağam, mənə qulaq as: mən tarlanı və
orada olan mağaranı sənə verirəm, öz
xalqımın adamları önündə onu sənə
verirəm; get ölünü basdır».

**12**İbrahim o ölkənin xalqına təzim
etdi. **13**Sonra o ölkənin xalqının ya-
nında Efrona belə dedi: «Xahiş edi-
rəm, mənə qulaq as: tarlanın dəyərini
verirəm, onu məndən götür, qoy mən
də öz ölümü orada basdırım». **14**Efron
İbrahimə cavab verdi: **15**«Ay ağam,
mənə qulaq as: torpağın qiyməti dörd
yüz şekel gümüşdür; mənimlə sənin
aranda bu nədir? Gətir, ölünü basdır».
**16**İbrahim Efronun sözünü qəbul edib
Xetlilərin yanında Efronun dediyi
kimi tacirlərin tərəzi daşları ilə dörd
yüz şekel gümüş çəkdi.

**17**Beləcə Mamre qarşısındakı Max-
pelada olan Efronun tarlası, oradakı
mağara, tarlada və onun ərazisində
olan bütün ağaclar **18**Xetlilərin önündə
– şəhər darvazasında yığılanların
qarşısında İbrahimin mülkü oldu.

**19**Bundan sonra İbrahim arvadı
Saranı Kənan torpağında olan Mam-
re, yəni Xevron qarşısındakı Maxpela
tarlasının mağarasında basdırdı.
**20**Beləcə Xetlilər tarlanı və orada olan
mağaranı qəbir düzəltmək üçün İbra-
himə mülk verdilər.

---

**22:18** *Həv. 3:25* **23:4** – [1]*İbr. 11:9,13;* [2]*Həv. 7:16*

Gen Lat:Azeri Bible Cyrillic 14.01.2009 15:53 Page 25



### *İshaq və Rivqa*

24 1İbrahim qocalıb yaşa dolmuşdu. Rəbb hər şeydə ona xeyir-dua vermişdi. 2Bir gün İbrahim evində bütün işləri idarə edən qulbaşıya dedi: «Əlini budumun altına qoyub 3göyün və yerin Allahı Rəbbin adına mənə and iç ki, oğluma aralarında yaşadığım Kənanlıların qızlarından arvad almayacaqsan, 4ancaq mənim ölkəmə, qohumlarımın yanına gedib oğlum İshaq üçün arvad alacaqsan». 5Nökər ona dedi: «Bəlkə qız mənimlə birgə bu ölkəyə gəlməyə razı olmadı? Onda oğlunu sənin çıxdığın ölkəyə aparımmı?» 6İbrahim ona dedi: «Bax oğlumu oraya aparma. 7Məni atamın evindən və doğulduğum yerdən çıxaran, mənimlə danışan və and içərək "bu torpağı sənin nəslinə verəcəyəm" deyən göylərin Allahı Rəbb Öz mələyini sənin önündə göndərəcək və sən oradan oğluma arvad alıb gətirəcəksən. 8Əgər o qadın səninlə gəlmək istəməsə, sən bu anddan azad olursan. Ancaq mənim oğlumu oraya aparma». 9Nökər əlini ağası İbrahimin budu altına qoyub bu işə görə ona and içdi.

10Nökər ağasından on dəvə və ən yaxşı hədiyyələr götürüb getdi və Aram-Naharayimə,[a] Naxorun yaşadığı şəhərə gəldi. 11Axşam qadınlar su çəkmək üçün çıxdıqları zaman onun dəvələri şəhərin kənarında olan su quyusunun yanında dayandı. 12Sonra dua etdi: «Ya Rəbb, ağam İbrahimin Allahı, yalvarıram, bu gün işimi avand elə və ağam İbrahimə xeyirxahlıq göstər. 13Mən bu bulağın yanında dururam; şəhər sakinlərinin qızları su çəkmək üçün buraya gəlirlər. 14Qoy elə olsun ki, mənim "xahiş edirəm, səhəngini endir, su içim" deyəcəyim və mənə "özün də iç və dəvələrinə də verim" söyləyəcək qız qulun İshaq üçün təyin etdiyin arvad olsun; bundan bilərəm ki, ağama xeyirxahlıq edirsən».

15O, duasını bitirməmişdi ki, İbrahimin qardaşı Naxorun arvadı Milkadan doğulan oğlu Betuelin qızı Rivqa çiynində səhəng gəldi. 16Qız görünüşcə çox gözəl idi və hələ bakirə idi. O, bulağa endi və səhəngini doldurub yuxarı qalxdı. 17Nökər onun qabağına qaçıb dedi: «Xahiş edirəm, səhəngindən mənə bir az su ver, içim». 18Qız dedi: «Ağam, buyur iç». Qız tez səhəngini əli üstünə endirdi və ona su verdi. 19Ona su verəndən sonra dedi: «Dəvələrin üçün də su çəkim, içib doysunlar». 20Qız tez səhəngini təknəyə boşaltdı, su çəkmək üçün cəld quyunun yanına qaçdı və nökərin bütün dəvələri üçün su çəkdi. 21O adam sakit duraraq diqqətlə qıza baxırdı ki, Rəbbin onun yoluna xeyir-dua verib-vermədiyini bilsin.

22Dəvələr su içib qurtaranda o adam çəkisi bir beqa olan qızıl burun halqası, qızın qolları üçün çəkisi on şekel olan iki bilərzik götürüb dedi: 23«Mənə de görüm, sən kimin qızısan? Atanın evində bizə gecələmək üçün yer tapılarmı?» 24Qız ona dedi: «Mən Milkanın Naxora doğduğu Betuelin qızıyam». 25Yenə dedi: «Bizdə saman da, yem də çoxdur və gecələməyə yer də var». 26O adam əyilib Rəbbə səcdə etdi. 27Sonra dedi: «Ağam İbrahimin Allahı Rəbbə alqış olsun ki, xeyirxahlığını və sədaqətini ağamdan

---

a **24:10** *Aram-Naharayim* – Mesopotamiya.

Gen Lat:Azeri Bible Cyrillic 14.01.2009 15:53 Page 26



əsirgəmədi: Rəbb məni birbaş ağamın
qardaşının evinə gətirdi».

28Qız qaçıb anasının evində bu
barədə danışdı. 29Rivqanın bir qardaşı
var idi, adı Lavan idi. Lavan çıxıb o
adamın yanına – bulağa qaçdı. 30O,
bacısının burun halqasını və qollarındakı
bilərziyi görəndə, bacısı Rivqanın
«bu adam mənimlə belə danışdı»
sözlərini eşidəndə o adamın yanına
gəldi. O, bulaq başında dəvələrin
yanında dayanmışdı. 31Lavan dedi:
«Ey Rəbbin xeyir-dua verdiyi adam,
içəri gir. Nə üçün bayırda durursan?
Mən sənə otaq və dəvələrinə yer
hazırlamışam». 32O adam evə girdi.
Lavan dəvələrin yükünü boşaltdı,
onlara saman və yem verdi, o adama
və onunla birgə olanlara ayaqlarını
yumaq üçün su verdi. 33Onların qabağına
yemək gətirildi, ancaq həmin
adam dedi: «Məqsədimi söyləməyincə
yeməyəcəyəm». Lavan dedi: «Söylə».

34O dedi: «Mən İbrahimin nökəriyəm.
35Rəbb ağama çoxlu xeyir-dua
verdi: onu varlandırdı, ona qoyunkeçi,
mal-qara, qızıl-gümüş, qullar,
qarabaşlar, dəvələr və eşşəklər verdi.
36Ağamın arvadı Sara da qoca ikən
ağama bir oğul doğdu. Ağam özünə
məxsus olan hər şeyi ona verdi.
37Sonra da məni and içdirərək dedi:
“Ölkələrində yaşadığım Kənanlıların
qızlarından oğluma arvad alma,
38ancaq atamın evinə – qohumlarımın
yanına gedib oradan oğluma bir arvad
al”. 39Mən ağama dedim: “Bəlkə o
qadın mənimlə gəlmədi”. 40O mənə
dedi: “Önündə davrandığım Rəbb
səninlə Öz mələyini göndərəcək, yolun
uğurlu olacaq və qohumlarımın arasından
– atamın evindən oğluma bir
arvad alacaqsan. 41Qohumlarımın
yanına getdiyin zaman içdiyin anddan
azad olacaqsan: əgər o qızı sənə
verməsələr, içdiyin anddan azad olacaqsan”.

42Mən də bu gün bulağın yanına
gəlib dua etdim: “Ey ağam İbrahimin
Allahı Rəbb, yalvarıram, getdiyim
yolu aç. 43İndi mən bulağın yanında
dururam; su çəkməyə gələn və mənim
ona ‹xahiş edirəm, mənə səhəngindən
bir az su ver, içim› deyəcəyim, 44onun
da mənə ‹sən də iç, dəvələrinə də gedib
su çəkim› söyləyəcək qız ağamın oğlu
üçün Rəbbin təyin etdiyi arvad olsun”.
45Mən ürəyimdə dua etməyi qurtarmamışdım
ki, Rivqa səhəngi çiynində
gəldi və bulağa enib su çəkdi. Ona
dedim: “Xahiş edirəm, mənə su ver”.
46O tez səhəngini çiynindən endirib
dedi: “Sən iç, gedim dəvələrinə də su
verim”. Mən içdim, o isə dəvələrə su
verdi. 47Ondan soruşdum: “Sən kimin
qızısan?” O dedi: “Milkanın Naxora
doğduğu Betuelin qızıyam”. Mən də
onun burnuna halqa və qollarına
bilərziklər taxdım. 48Sonra əyilib
Rəbbə səcdə etdim. Ağamın qardaşı
qızını oğluna almaq üçün məni birbaş
buraya gətirən ağam İbrahimin Allahı
Rəbbə şükür etdim. 49İndi mənə deyin
görüm, siz ağama xeyirxahlıq və
sədaqət göstərmək istəyirsiniz ya yox?
Bunu mənə bildirin ki, mən də nə
edəcəyimi bilim».

50Lavan və Betuel ona belə cavab
verdilər: «Bu iş Rəbdən oldu; sənə nə
yaxşı, nə də pis söz deyə bilərik. 51Bax
Rivqa qarşındadır: onu götürüb get və
qoy o, Rəbbin söylədiyi kimi ağanın
oğluna arvad olsun». 52İbrahimin
nökəri onların sözlərini eşidəndə yerə
qapanıb Rəbbə səcdə etdi. 53Nökər
qızıl-gümüş şeylər və paltarlar çıxarıb

Gen Lat:Azeri Bible Cyrillic 14.01.2009 15:53 Page 27



Rivqaya verdi. Onun qardaşına və
anasına da qiymətli şeylər bağışladı.
54Özü və onunla birgə olan adamlar
yeyib-içdilər və orada gecələdilər.
Səhər qalxanda nökər dedi: «Məni
ağamın yanına göndərin». 55Qızın
qardaşı ilə anası dedilər: «Qoy qız
bizimlə heç olmasa on gün qalsın,
sonra gedər». 56Nökər onlara dedi:
«İndi ki Rəbb mənə yol açdı, məni
gecikdirməyin, buraxın ağamın yanına
gedim». 57Onlar dedilər: «Qoy qızı
çağırıb öz dilindən eşidək». 58Rivqanı
çağırıb ona dedilər: «Bu adamla
gedirsənmi?» O da «gedirəm» dedi.
59Onlar bacıları Rivqanı, onun dayə-
sini, İbrahimin nökərini və onunla
olan adamları yola saldılar. 60Rivqaya
xeyir-dua verib dedilər:

«Ey bacımız,
Minlərlə, on minlərlə övlada ana
olasan!
Qoy nəslin yağıların yurduna sahib
olsun!»

61Rivqa və qulluqçuları qalxıb
dəvələrə mindilər və o adamla birgə
getdilər. Beləliklə, nökər Rivqanı
götürüb getdi.

62İshaq Beer-Laxay-Roi yolu ilə
gəldi, çünki o, Negev torpağında
yaşayırdı. 63Axşam düşəndə İshaq bir
qədər düşünmək üçün çöllüyə getdi. O,
başını qaldırıb baxanda gördü ki,
dəvələr gəlir. 64Rivqa da başını qal-
dırıb İshaqı görəndə dəvədən düşdü.
65O, nökərdən soruşdu: «Bizi qarşı-
lamaq üçün çöllüyə gələn bu adam
kimdir?» Nökər «ağamdır» dedi.
Rivqa rübəndini üzünə çəkib örtündü.

66Nökər baş vermiş bütün işlər
barədə İshaqa danışdı. 67İshaq Riv-
qanı anası Saranın yaşadığı çadıra
apardı və Rivqa onun arvadı oldu.
İshaq onu sevdi və anasının ölümün-
dən sonra onunla təsəlli tapdı.

### *İbrahimin ölümü*

*(1Saln. 1:32-33)*

25 1İbrahim başqa bir arvad aldı.
Onun adı Qetura idi. 2Qetura
ona bunları doğdu: Zimran, Yoqşan,
Medan, Midyan, İşbaq və Şuah.
3Yoqşandan Səba və Dedan törədi.
Dedanın nəsilləri: Aşşurlular, Letuş-
lular, Leumlular. 4Midyanın oğulları:
Efa, Efer, Xanok, Avida və Eldaa.
Bunların hamısı Qeturanın övladları-
dır. 5İbrahim özünə məxsus olan hər
şeyi İshaqa verdi. 6Cariyələrinin
oğullarına isə hədiyyələr verdi. Sağlı-
ğında onları oğlu İshaqın yanından
şərq torpağına tərəf göndərdi.

7İbrahim yüz yetmiş beş il ömür
sürdü. 8O, uzun ömür sürdü, qoca
vaxtında son nəfəsini verərək ölüb
əcdadlarına qoşuldu. 9Oğulları İshaq
və İsmail onu Mamre qarşısında olan
Maxpela mağarasında, Xetli Sohar
oğlu Efronun tarlasında basdırdılar.
10O tarlanı İbrahim Xetlilərdən satın
almışdı. İbrahim və arvadı Sara orada
basdırıldı. 11Allah İbrahimin ölümün-
dən sonra oğlu İshaqa xeyir-dua verdi.
İshaq Beer-Laxay-Roidə yaşayırdı.

### *İsmailin oğulları*

*(1Saln. 1:28-31)*

12Saranın qarabaşı Misirli Həcərin
İbrahimə doğduğu İsmailin nəsil
tarixçəsi belədir. 13Doğulma sırasına
görə İsmailin oğullarının adları belə-
dir: İsmailin ilk oğlu Nevayot, Qedar,
Adbeel, Mivsam, 14Mişma, Duma,
Massa, 15Xadad, Tema, Yetur, Nafiş

**25:10** *Yar. 23:3-16*

Gen Lat:Azeri Bible Cyrillic 14.01.2009 15:53 Page 28



və Qedma; **16**İsmailin oğulları bun-
lardır, kəndləri və obaları ilə birgə
onların adları belədir. Onlar öz
tayfalarının on iki başçısı idi. **17**İsmail
yüz otuz yeddi il ömür sürdü. O,
ömrünü başa vurdu və ölüb əcdad-
larına qoşuldu. **18**İsmailin nəsilləri
Xaviladan Şura qədər olan ərazidə
məskən saldı. Şur Aşşura gedərkən
Misirin qarşısındadır. Onlar qardaş-
larının yaşadığı yerin qarşısında yer-
ləşmişdi.

### *Yaqub və Esav*

**19**İbrahimin oğlu İshaqın tarixçəsi
belədir: İbrahimdən İshaq törədi.
**20**İshaq Paddan-Aramdan Aramlı
Lavanın bacısı, Aramlı Betuelin qızı
Rivqanı arvad alanda qırx yaşında idi.
**21**İshaq arvadı üçün Rəbbə yalvardı,
çünki o, sonsuz idi. Rəbb İshaqın
yalvarışını eşitdi, onun arvadı Rivqa
hamilə oldu. **22**Rivqanın bətnindəki
uşaqlar çarpışmağa başladı. O da
«Niyə bu iş başıma gəldi?» deyib bu
barədə Rəbdən soruşmağa getdi.
**23**Rəbb ona dedi:

«Sənin bətnində iki millət var,
Sənin qarnından iki xalq çıxacaq.
Bir xalq o biri xalqdan güclü
olacaq,
Böyüyü kiçiyinə qulluq edəcək».

**24**Rivqanın doğmaq vaxtı çatanda
məlum oldu ki, onun bətnində əkizlər
var. **25**İlk doğulan uşağın bütün dərisi
qırmızı və tüklü cübbə kimi idi. Onda
onun adını Esav[a] qoydular. **26**Ondan
sonra qardaşı doğuldu. O, əli ilə
Esavın topuğundan tutmuşdu. Onun
adını Yaqub[b] qoydular. Onların do-
ğulduğu vaxt İshaq altmış yaşında idi.
**27**Uşaqlar böyüdü. Esav mahir ovçu
və çöl adamı oldu. Yaqub isə çadır-
larda yaşayan mülayim bir adam oldu.
**28**İshaq Esavı sevirdi, çünki onun
ovladığı heyvanlar İshaqın xoşuna
gəlirdi. Rivqa isə Yaqubu sevirdi.
**29**Bir gün Yaqub şorba bişirirdi.
Esav isə çöldən yorğun gəldi. **30**Esav
Yaquba dedi: «Bu qırmızı şorbadan
bir az ver, yeyim, çünki acmışam».
Buna görə də ona Edom[c] adı verildi.
**31**Yaqub dedi: «Əvvəlcə ilk oğulluq
haqqını mənə sat». **32**Esav dedi: «Bir
halda ki mən acından ölürəm, ilk
oğulluq haqqı nəyimə lazımdır?»
**33**Yaqub dedi: «Əvvəlcə mənə and iç».
Esav ona and içdi və ilk oğulluq
haqqını Yaquba satdı. **34**Yaqub Esava
çörək və mərci şorbası verdi. Esav
yeyib-içdi, sonra qalxıb getdi. Beləcə
Esav ilk oğulluq haqqına etinasızlıq
etdi.

### *İshaq və Avimelek*

**26** **1**İbrahimin yaşadığı dövrdə
olan aclıqdan başqa, ölkədə
daha bir aclıq oldu. İshaq Gerara,
Filiştlilərin padşahı Avimelekin ya-
nına getdi. **2**Rəbb ona görünüb dedi:
«Misirə getmə, sənə söylədiyim ölkədə
məskən sal, **3**bu torpaqda qal. Mən
səninlə olacağam və sənə xeyir-dua
verib bütün bu ölkələri sənə və nəslinə
verəcəyəm; atan İbrahimə içdiyim
andı yerinə yetirəcəyəm. **4**Nəslini göy-
dəki ulduzlar qədər çoxaldacağam və
bütün bu ölkələri nəslinə verəcəyəm.
Yer üzünün bütün millətləri sənin
nəslinin vasitəsilə xeyir-dua alacaq.

---

a **25:25** *Esav* – ibrani dilində *tüklü.* b **25:26** *Yaqub* – ibrani dilində *topuq tutan.*
c **25:30** *Edom* – ibrani dilində *qırmızı.*
**25:23** *Rom. 9:11-12* **25:33** *İbr. 12:16* **26:3-4** *Yar. 22:16-18; Həv. 3:25*

Gen Lat:Azeri Bible Cyrillic 14.01.2009 15:53 Page 29



5Çünki İbrahim sözümə qulaq asıb
Mənim buyruğuma, əmrlərimə, qay-
dalarıma və qanunlarıma əməl etdi».

6İshaq da Gerarda yaşadı. 7O öl-
kənin sakinləri İshaqın arvadı barədə
soruşanda «bu mənim bacımdır» dedi,
çünki «mənim arvadımdır» deməyə
qorxdu. Öz-özünə dedi: «Yoxsa Riv-
qadan ötrü bu yerin adamları məni
öldürərlər». Rivqa görünüşcə çox gözəl
idi. 8İshaq orada uzun müddət qaldı.
Bir gün Filiştlilərin padşahı Avimelek
pəncərədən baxıb gördü ki, İshaq
arvadı Rivqanı əzizləyir. 9Avimelek
İshaqı çağırıb dedi: «O ki sənin
arvadındır. Bəs niyə onun barəsində
"bu mənim bacımdır" dedin?» İshaq
ona dedi: «Çünki istəmədim ki, ondan
ötrü ölüm». 10Avimelek dedi: «Bu nə
işdir başımıza gətirdin? Az qalmışdı
ki, xalqdan biri sənin arvadınla yatsın.
Beləcə bizi günaha batıracaqdın».
11Sonra Avimelek «bu adama və onun
arvadına toxunan mütləq öldürüləcək»
deyə bütün xalqa elan etdi.

12İshaq o torpaqda toxum əkdi və o
il yüz qat məhsul aldı. Beləcə Rəbb
ona xeyir-dua verdi. 13Bu şəxs böyük
adam oldu. Çox böyük adam olana
qədər get-gedə yüksəldi. 14Onun çoxlu
qoyun-keçisi, mal-qarası və xidmət-
çiləri olduğuna görə Filiştlilər ona
paxıllıq etməyə başladı. 15Atası İbra-
himin dövründə atasının qullarının
qazdığı bütün quyuları Filiştlilər qapa-
yıb torpaqla doldurmuşdular. 16Avi-
melek İshaqa dedi: «Yanımızdan get,
çünki bizdən çox güclü oldun».
17İshaq oradan getdi, Gerar vadisində
məskən saldı və orada qaldı.

18İshaq atası İbrahimin dövründə
qazılmış su quyularını yenə qazdı,
çünki Filiştlilər İbrahimin ölümündən
sonra onları qapamışdılar. O, atasının
qoyduğu adları yenə onlara verdi.
19İshaqın qulları vadidə torpağı qaz-
dılar və bir içməli su quyusu tapdılar.
20Gerar çobanları «su bizimdir» deyib
İshaqın çobanları ilə mübahisə etdilər.
O, quyunun adını Eseq[a] qoydu, çünki
onun üstündə mübahisə etmişdilər.
21Onlar başqa bir quyu qazdılar.
Onun üçün də mübahisə etdilər. İshaq
bu quyunun adını Sitna[b] qoydu.
22İshaq oradan köçüb başqa bir quyu
qazdı. Ancaq onun üçün mübahisə
etmədilər, buna görə də İshaq onun
adını Rexovot[c] qoyub dedi: «İndi
Rəbb bizə genişlik verdi və biz bu
torpaqda çoxalacağıq».

23İshaq oradan Beer-Şevaya getdi.
24O gecə Rəbb ona görünüb dedi:
«Mən atan İbrahimin Allahıyam.
Qorxma, çünki Mən səninləyəm. Qu-
lum İbrahimə görə sənə xeyir-dua
verəcəyəm və nəslini çoxaldacağam».
25İshaq orada bir qurbangah düzəltdi
və Rəbbə sitayiş etdi. O özünə çadır
qurdu. İshaqın qulları orada bir quyu
qazdılar.

26O zaman Avimelek məsləhətçisi
Axuzzat, ordu başçısı Pikol ilə birgə
Gerardan İshaqın yaşadığı torpağa
gəldi. 27İshaq onlara dedi: «Nə üçün
yanıma gəlmisiniz? Sizin ki məndən
acığınız gəlirdi və məni yanınızdan
qovdunuz». 28Onlar dedilər: «Biz gör-
dük ki, Rəbb, doğrudan da, səninlədir.
İndi istəyirik ki, səninlə bizim ara-
mızda and olsun. Gəl səninlə əhd
bağlayaq ki, 29biz sənə toxunmadı-
ğımız və yalnız yaxşılıq edib sağ-

a **26:20** *Eseq* – ibrani dilində *mübahisə.*
b **26:21** *Sitna* – ibrani dilində *düşmənçilik.*
c **26:22** *Rexovot* – ibrani dilində *genişlik.*
**26:7** *Yar. 12:13; 20:2* **26:26** *Yar. 21:22*

Gen Lat:Azeri Bible Cyrillic 14.01.2009 15:53 Page 30



salamat yola saldığımız kimi sən də bizə heç bir pislik etməyəcəksən. İndi sən Rəbbin xeyir-dua verdiyi adamsan». **30**İshaq onlara ziyafət verdi və onlar yeyib-içdilər. **31**Səhər tezdən qalxıb bir-birlərinə and içdilər. İshaq onları yola saldı və onlar sağ-salamat onun yanından getdilər. **32**O gün İshaqın qulları gəldilər və qazdıqları quyu barədə ona bildirərək «su tapdıq» dedilər. **33**İshaq bu quyunun adını Şiva[a] qoydu, buna görə də şəhərin adı bu günə qədər Beer-Şevadır.

### *Esavın arvadları*

**34**Esav qırx yaşında olanda Xetli Beerinin qızı Yehuditi və Xetli Elonun qızı Basmatı arvad aldı. **35**Onlar İshaqın və Rivqanın ürəklərinə dərd oldu.

### *İshaqın Yaquba xeyir-dua verməsi*

**27** **1**İshaq qocalıb gözləri görməyəndə böyük oğlu Esavı yanına çağırıb dedi: «Ay oğlum». Esav ona «mən buradayam» dedi. **2**İshaq dedi: «Mən artıq qocalmışam, bu gün-sabah öləcəyəm. **3**İndi silahını, yayını və oxdanını götür, çöllüyə get və mənim üçün heyvan ovla. **4**Sonra da mənə xoşladığım ləzzətli yeməyi hazırla və gətir ki, yeyim. Onda ölməmişdən qabaq mən sənə xeyir-dua verərəm».

**5**İshaq oğlu Esavla danışarkən Rivqa eşidirdi. Esav heyvan ovlayıb gətirmək üçün çöllüyə getdi. **6**Rivqa oğlu Yaquba belə dedi: «Bax mən eşitdim ki, atan qardaşın Esava bu sözləri dedi: **7**"Mənim üçün ov əti gətir, mənə ləzzətli yemək hazırla ki, yeyim. Sonra sənə ölümümdən qabaq Rəbbin hüzurunda xeyir-dua verərəm". **8**Oğlum, indi sənə əmr edəcəyim sözlərə qulaq as: **9**bu saat sürüyə gedib oradan mənə iki yaxşı oğlaq gətir. Onlardan atanın xoşladığı kimi ləzzətli yemək hazırlayacağam. **10**Sən də onu yeməsi üçün atana aparacaqsan ki, ölümündən qabaq sənə xeyir-dua versin». **11**Yaqub anası Rivqaya dedi: «Qardaşım Esav tüklü bir adamdır, mən isə tüksüzəm. **12**Birdən atam mənə əlini sürtər və mən onun nəzərində yalançı olaram. Onda üzərimə xeyir-dua yox, lənət gətirərəm».

**13**Anası ona dedi: «Sənə olunacaq lənət mənə gəlsin, oğlum. Ancaq sözümə qulaq as: get, dediyim şeyi mənə gətir». **14**Yaqub gedib oğlaqları götürdü və anasına gətirdi, anası da onun atasının xoşladığı kimi ləzzətli yemək hazırladı. **15**Rivqa böyük oğlu Esavın evdə saxladığı ən gözəl paltarını götürüb kiçik oğlu Yaquba geyindirdi. **16**Onun əllərinə və boynunun tüksüz yerinə oğlaq dəriləri bağladı. **17**Sonra hazırladığı ləzzətli yeməyi və çörəyi oğlu Yaqubun əlinə verdi.

**18**Yaqub atasının yanına gəlib dedi: «Ay ata». Atası dedi: «Mən buradayam. Sən kimsən, oğlum?» **19**Yaqub atasına dedi: «Sənin ilk oğlun Esavam. Dediyin kimi elədim. Qalx otur və gətirdiyim ov ətindən ye ki, mənə xeyir-dua verəsən». **20**İshaq oğluna dedi: «Necə oldu ki, belə tez ov tapdın, oğlum?» O dedi: «Sənin Allahın Rəbb mənə uğur verdi». **21**İshaq Yaquba dedi: «Yaxın gəl, oğlum, əlimi sənə sürtüb bilim ki, doğrudanmı, oğlum Esavsan ya yox?» **22**Yaqub atası İshaqa yaxınlaşdı. İshaq əlini ona sürtüb dedi: «Səs Yaqubun səsidir, ancaq əllər Esavın əlləridir». **23**İshaq onu tanımadı, çünki onun əlləri qar-

a **26:33** *Şiva* – ibrani dilində *and.*

Gen Lat:Azeri Bible Cyrillic 14.01.2009 15:53 Page 31



daşı Esavın əlləri kimi tüklü idi. İshaq
Yaquba xeyir-dua verdi. 24O soruşdu:
«Doğrudanmı, sən oğlum Esavsan?»
Yaqub dedi: «Bəli». 25İshaq dedi:
«Oğlum, gətirdiyin ov ətini qabağıma
qoy, yeyim, sonra da sənə xeyir-dua
verərəm». Yaqub yeməyi onun qaba-
ğına qoydu və o yedi, Yaqub ona
şərab gətirdi və o içdi. 26Atası İshaq
Yaquba dedi: «Oğlum, indi yaxınlaş,
atanı öp». 27O yaxınlaşıb atasını öpdü.
İshaq onun paltarının qoxusunu hiss
etdi və ona xeyir-dua verib dedi:

«Bax oğlumun qoxusu
Rəbbin xeyir-dua verdiyi
Çölün qoxusu kimidir.
28Allah sənə göylərin şehini,
Torpağın şirəsini,
Bol buğda və çoxlu təzə şərab
versin.
29Xalqlar sənə qulluq etsin,
Ümmətlər sənə baş əysin.
Öz qardaşlarına ağa ol,
Ananın oğulları sənə baş əysin.
Sənə lənət edənlərə lənət gəlsin,
Sənə xeyir-dua verənlər xeyir-dua
alsın».

### *İshaqın Esava xeyir-dua verməsi*

30İshaq Yaquba xeyir-dua verib
qurtarandan sonra Yaqub atası İs-
haqın yanından çıxar-çıxmaz qardaşı
Esav ovdan qayıtdı. 31Esav da ləzzətli
yemək hazırlayıb atasına gətirdi və
ona dedi: «Atam qalxıb oğlunun
gətirdiyi ov ətindən yesin və mənə
xeyir-dua versin». 32Atası İshaq on-
dan soruşdu: «Sən kimsən?» O cavab
verdi: «Mən ilk oğlun Esavam».
33İshaqın canına bərk titrətmə düşdü
və o dedi: «Bəs onda heyvan ovlayıb
mənə gətirən kim idi? Sən gəlmə-
mişdən qabaq hər şeydən yedim və
ona xeyir-dua verdim. Xeyir-dua da
onunku oldu». 34Esav atasının söz-
lərini eşidəndə ucadan və acı səslə
fəryad edib dedi: «Ay ata, mənə də
xeyir-dua ver». 35İshaq dedi: «Qarda-
şın hiylə ilə gəlib sənin xeyir-duanı
aldı». 36Esav dedi: «Onu nahaq yerə
Yaqub çağırmırlar ki? Bununla ikinci
dəfədir ki, məni aldadır: əvvəl ilk
oğulluq haqqımı, indi də xeyir-duamı
aldı». Sonra soruşdu: «Bəs mənə
xeyir-dua saxlamamısan?» 37İshaq
Esava cavab verdi: «Onu sənə ağa
etdim, bütün qardaşlarını ona qul
olaraq verdim, buğda və təzə şərabla
onu təmin etdim. Bəs sənə nə edim,
oğlum?» 38Esav atasına dedi: «Səndə
yalnız bir xeyir-dua varmı, ata? Mənə
də xeyir-dua ver, ata». Esav hönkürüb
ağladı. 39Atası İshaq ona belə cavab
verdi:

«Yaşadığın yer torpağın
şirəsindən,
Yuxarıda göylərin şehindən uzaq
olacaq.
40Qılıncınla yaşayıb
Qardaşına qulluq edəcəksən.
Amma azad olmaq istəyəndə
Onun boyunduruğunu
Boynundan qırıb atacaqsan».

41Atası Yaquba xeyir-dua verdiyinə
görə Esav qardaşına nifrət etdi. O öz-
özünə dedi: «Atamın matəm günləri
yaxınlaşır. O zaman qardaşım Yaqu-
bu öldürərəm». 42Böyük oğlu Esavın
dediyi sözlər Rivqanın qulağına çatdı.
Buna görə də xəbər göndərib kiçik
oğlu Yaqubu çağırdı və ona dedi:
«Bax qardaşın Esav səni öldürməklə

**27:27-29** *İbr. 11:20* **27:29** *Yar. 12:3* **27:36** *Yar. 25:29-34* **27:38** *İbr. 12:17* **27:39-40** *İbr. 11:20*
**27:40** *Yar. 36:8; 2Pad. 8:20*

Gen Lat:Azeri Bible Cyrillic 14.01.2009 15:53 Page 32



qisas almaq istəyir. 43Oğlum, indi
sözümə qulaq as: qalxıb Xarana, qar-
daşım Lavanın yanına qaç. 44Qarda-
şının hirsi soyuyana qədər bir müddət
Lavanın yanında qal. 45Sənə qarşı
qəzəbi sönəndə, ona elədiyini unu-
danda xəbər göndərib səni oradan
çağıraram. Nə üçün bir gündə ikiniz-
dən də məhrum olum?»

46Sonra Rivqa İshaqa dedi: «Xetli
qızların əlindən həyatımdan bezdim.
Əgər Yaqub da beləcə bu ölkənin
qızlarından – Xetli qızlardan özünə ar-
vad alsa, daha mən niyə yaşayıram?»

### *İshaqın Yaqubu Lavanın yanına göndərməsi*

28 1İshaq Yaqubu çağırıb ona
xeyir-dua verdi və xəbərdarlıq
edərək dedi: «Kənan qızlarından
arvad alma. 2Qalxıb Paddan-Arama,
ana baban Betuelin evinə get. Oradan
dayın Lavanın qızlarından özünə
arvad al. 3Külli-İxtiyar Allah sənə
xeyir-dua versin, səni bəhərli edib
nəslini çoxaltsın, səndən çoxlu xalq
törəsin; 4İbrahimin xeyir-duasını sənə
və səninlə birgə nəslinə versin ki,
Allahın İbrahimə verdiyi torpağı –
qərib kimi yaşadığın torpağı irs olaraq
alasan». 5İshaq Yaqubu yola saldı. O,
Paddan-Arama, Yaqubla Esavın
anası Rivqanın qardaşı Aramlı Betuel
oğlu Lavanın yanına getdi.

### *Esavın üçüncü arvadı*

6Esav gördü ki, İshaq Yaquba
xeyir-dua verdi və özünə arvad almaq
üçün onu Paddan-Arama göndərdi;
həm də ona xeyir-dua verən zaman
«Kənan qızlarından arvad alma»
deyib xəbərdarlıq etdi. 7Yaqub da ata-
anasına qulaq asıb Paddan-Arama
getdi. 8Esav gördü ki, Kənan qızları
atası İshaqın xoşuna gəlmir. 9Esav
İsmailin yanına getdi. O, İbrahim oğlu
İsmailin qızı Maxalatı arvadlarının
üstünə arvad aldı. Maxalat Nevayotun
bacısı idi.

### *Yaqubun Bet-Eldə yuxu görməsi*

10Yaqub Beer-Şevadan çıxıb
Xarana tərəf getdi. 11Bir yerə çatıb
orada gecələdi, çünki günəş batmışdı.
O torpaqdan bir daş götürüb başının
altına qoydu və orada yatdı. 12O,
yuxuda gördü ki, yerin üzərində bir
nərdivan durmuş və onun başı göylərə
çatmışdır. Allahın mələkləri onunla
çıxıb-düşürdülər. 13Rəbb nərdivanın
üstündə durub deyirdi: «Mən baban
İbrahimin və İshaqın Allahı Rəbbəm.
Üstündə yatdığın torpağı sənə və
nəslinə verəcəyəm. 14Sənin nəslin yerin
tozu kimi çox olacaq, qərbə, şərqə,
şimala və cənuba yayılacaq. Yer üzü-
nün bütün tayfaları sənin və nəslinin
vasitəsilə xeyir-dua alacaq. 15Mən
həmişə səninləyəm, gedəcəyin hər
yerdə səni qoruyacağam və bu torpağa
qaytaracağam. Dediyimi edənə qədər
səni tərk etməyəcəyəm».

16Yaqub yuxusundan oyanıb dedi:
«Doğrudan da, Rəbb buradadır. Mən
isə bunu bilmirdim». 17Sonra qorxub
dedi: «Bu yer necə də qorxuludur. Bu,
Allahın evindən başqa bir şey ola
bilməz, bura göylərin qapısıdır».

18Yaqub səhər tezdən qalxdı. O,
başının altına qoyduğu daşı götürüb
sütun kimi qoydu və üstünə zeytun
yağı tökdü. 19O yerin adını Bet-El[a]

a **28:19** *Bet-El* – ibrani dilində *Allahın evi.*

**28:4** *Yar. 17:4-8* **28:12** *Yəh. 1:51* **28:13** *Yar. 13:14-15* **28:14** *Yar. 12:3; 22:18; 26:4*

Gen Lat:Azeri Bible Cyrillic 14.01.2009 15:53 Page 33



qoydu, ancaq əvvəlcə şəhərin adı Luz
idi. 20Yaqub əhd edib dedi: «Əgər
Allah mənimlə olsa, getdiyim bu yolda
məni qorusa, mənə yemək üçün çörək
və geymək üçün paltar versə, 21sağ-
salamat atamın evinə dönsəm, o za-
man Rəbb mənə Allah olacaq. 22Sütun
kimi qoyduğum bu daş da Allahın evi
olacaq. Ay Allah, mənə verəcəyin hər
şeyin onda birini Sənə verəcəyəm».

### *Yaqubun Paddan-Arama gəlişi*

29 1Yaqub yoluna davam edərək
şərq xalqlarının torpağına
getdi. 2O gördü ki, çöllükdə bir quyu
var və onun yanında üç qoyun sürüsü
yatıb, çünki quyudan o sürülərə su
verirdilər. Quyunun ağzında böyük bir
daş var idi. 3Bütün sürülər oraya
yığılırdı. Adamlar daşı quyunun ağ-
zından yuvarlayıb qoyunlara su verir
və yenə daşı yerinə – quyunun üstünə
qoyurdular.

4Yaqub onlardan soruşdu: «Ey qar-
daşlar, haradansınız?» Onlar dedilər:
«Biz Xarandanıq». 5Yaqub onlara
dedi: «Naxorun nəvəsi Lavanı tanıyır-
sınızmı?» Onlar dedilər: «Tanıyırıq».
6Yaqub onlardan soruşdu: «O, sağ-
salamatdırmı?» Onlar dedilər: «Bəli,
sağ-salamatdır. Odur, qızı Rəhilə də
qoyunlarla gəlir». 7Yaqub dedi: «Hələ
axşama çox vaxt var, sürülərin yığılma
vaxtı deyil. Qoyunlara su verin, sonra
aparıb otarın». 8Onlar dedilər: «Bütün
sürülər yığılmayınca və daş quyunun
ağzından yuvarlanmayınca bunu edə
bilmərik, yalnız onda qoyunlara su
verə bilərik».

9Yaqub onlarla danışarkən Rəhilə
atasının qoyunları ilə gəldi, çünki o,
çoban idi. 10Yaqub dayısı Lavanın
qızı Rəhiləni və dayısı Lavanın qoyun-
larını görəndə yaxınlaşıb daşı quyu-
nun ağzından yuvarladı və dayısı
Lavanın qoyunlarına su verdi. 11Ya-
qub Rəhiləni öpdü və hönkürtü ilə
ağladı. 12Yaqub atasının qohumla-
rından və Rivqanın oğlu olduğunu
Rəhiləyə bildirdi. Rəhilə də qaçıb
atasına danışdı.

13Lavan bacısı oğlu Yaqubun
gəldiyini eşidəndə onu qarşılamağa
qaçdı. Onu qucaqlayıb öpdü və evinə
gətirdi. Yaqub hər şeyi Lavana danış-
dı. 14Lavan ona dedi: «Sən, doğrudan
da, mənim sümüyümdən, mənim
ətimdənsən». Yaqub onun yanında bir
ay qaldı.

### *Yaqubun Leanı və Rəhiləni arvad almması*

15Lavan Yaquba dedi: «Məgər qo-
hum olduğun üçün mənə havayı xid-
mət edəcəksən? Mənə söylə, haqqın nə
olsun?» 16Lavanın iki qızı var idi:
böyüyünün adı Lea, kiçiyininki Rəhilə
idi. 17Leanın gözləri zəif görürdü,
Rəhilə isə çox gözəl və qamətli idi.
18Yaqub Rəhiləyə vuruldu və dedi:
«Kiçik qızın Rəhilə üçün sənə yeddi il
xidmət edərəm». 19Lavan dedi: «Onu
sənə vermək başqa adama verməkdən
daha yaxşıdır. Yanımda qal». 20Ya-
qub Rəhiləyə görə yeddi il xidmət etdi.
Onu sevdiyi üçün bu müddət gözünə
bir neçə gün kimi göründü.

21Yaqub Lavana dedi: «Vaxtım
çatdı; indi arvadımı mənə ver ki, onun
yanına girim». 22Lavan o torpağın
bütün adamlarını topladı və bir ziyafət
verdi. 23Gecə qızı Leanı götürüb Ya-
qubun yanına apardı. Yaqub onun
yanına girdi. 24Lavan öz qarabaşı
Zilpanı Leaya qulluqçu olmaq üçün
verdi. 25Səhər məlum oldu ki, bu,

Gen Lat:Azeri Bible Cyrillic 14.01.2009 15:53 Page 34



Leadır. Yaqub Lavana dedi: «Nə üçün
mənimlə belə rəftar etdin? Sənin ya-
nında Rəhilə üçün xidmət etmədimmi?
Bəs məni niyə aldatdın?» 26Lavan
dedi: «Bizim yerdə kiçik qızı böyü-
yündən əvvəl ərə vermək olmaz. 27Bu
həftəni bitir, onu da sənə verərik.
Onun üçün də yanımda daha yeddi il
xidmət etməlisən». 28Yaqub belə də
etdi: o həftəni bitirdi. Lavan da qızı
Rəhiləni ona arvad olmaq üçün verdi.
29Öz qarabaşı Bilhanı da qızı Rəhiləyə
qulluqçu olmaq üçün verdi. 30Yaqub
Rəhilənin də yanına girdi. Rəhiləni
Leadan da çox sevdi. O, Lavanın
yanında daha yeddi il xidmət etdi.

### *Yaqubun övladları*

31Rəbb Leanın sevilmədiyini görüb
onun bətnini açdı. Rəhilə isə sonsuz
idi. 32Lea hamilə olub bir oğul doğdu
və onun adını Ruven[a] qoyaraq dedi:
«Yəqin Rəbb mənim fağırlığımı gördü.
İndi ərim məni sevəcək». 33O yenə
hamilə olub bir oğul doğdu və dedi:
«Rəbb sevilmədiyimi eşidib mənə
bunu da verdi». Onun da adını
Şimeon[b] qoydu. 34Lea yenə hamilə
olub bir oğul doğdu və dedi: «İndi bu
dəfə ərim mənə bağlanacaq, çünki ona
üç oğul doğdum». Buna görə də adını
Levi[c] qoydu. 35O yenə hamilə olub bir
oğul doğdu və dedi: «Bu dəfə Rəbbi
mədh edəcəyəm». Buna görə də onun
adını Yəhuda[d] qoydu. Sonra o, bir
müddət doğmadı.

30 1Rəhilə Yaquba uşaq doğma-
dığını görəndə bacısına həsəd
apardı və ərinə dedi: «Mənə uşaq ver,
yoxsa ölərəm». 2Yaqubun Rəhiləyə
qəzəbi alovlandı və o dedi: «Məgər
mən sənin bətninə bəhər verməyən
Allaham?» 3Rəhilə dedi: «Qarabaşım
Bilhanı götür və yanına gir. Qoy o,
dizlərimin üstünə bir uşaq doğsun və
ondan uşaqlarım olsun». 4Rəhilə qa-
rabaşı Bilhanı ona arvad olmaq üçün
verdi və Yaqub onun yanına girdi.
5Bilha hamilə olub Yaquba bir oğul
doğdu. 6Rəhilə dedi: «Allah məni
haqlı çıxartdı və səsimi eşidib mənə bir
oğul verdi». Buna görə də onun adını
Dan[e] qoydu. 7Rəhilənin qarabaşı
Bilha yenə hamilə olub Yaquba ikinci
oğul doğdu. 8Rəhilə dedi: «Bacımla
güclü mübarizəyə girişib ona üstün
gəldim». O, uşağın adını Naftali[f]
qoydu.

9Lea daha doğmadığına görə qara-
başı Zilpanı götürüb Yaquba arvad
olmaq üçün verdi. 10Leanın qarabaşı
Zilpa Yaquba bir oğul doğdu. 11Lea
«uğur qazandım» deyib onun adını
Qad[g] qoydu. 12Leanın qarabaşı Zilpa
Yaquba ikinci oğul doğdu. 13Lea dedi:
«Xoşbəxtəm, çünki qadınlar məni
bəxtiyar sayacaqlar». O, uşağın adını
Aşer[h] qoydu.

14Ruven buğda biçini vaxtı gedib
tarlada məhəbbət otları tapdı və onları
anası Leaya gətirdi. Rəhilə Leaya
dedi: «Oğlunun məhəbbət otlarından
mənə də ver». 15Lea ona dedi: «Ərimi
əlimdən aldığın bəs deyilmi? İndi də
oğlumun məhəbbət otlarını almaq
istəyirsən?» Rəhilə dedi: «Elə isə qoy
ərim oğlunun məhəbbət otlarının
əvəzində bu gecə səninlə yatsın».
16Yaqub axşam çöldən gələndə Lea
onu qarşılamağa çıxıb dedi: «Mənim

---

a **29:32** *Ruven* – ibrani dilində *baxın, bir oğul.*
b **29:33** *Şimeon* – ibrani dilində *eşitmək.*
c **29:34** *Levi* – ibrani dilində *bağlanma.*
d **29:35** *Yəhuda* – ibrani dilində *mədh edilmiş.*
e **30:6** *Dan* – ibrani dilində *hökm etdi.*
f **30:8** *Naftali* – ibrani dilində *mənim mübarizəm.*
g **30:11** *Qad* – ibrani dilində *uğur.*
h **30:13** *Aşer* – ibrani dilində *xoşbəxt.*

yanıma gir, çünki səni oğlumun
məhəbbət otları ilə satın almışam».
Yaqub o gecə onunla yatdı. 17Allah
Leanı eşitdi və o hamilə olub Yaquba
beşinci oğlunu doğdu. 18Lea dedi:
«Allah haqqımı verdi, çünki qulluq-
çumu ərimə verdim». O, uşağın adını
İssakar[a] qoydu. 19Lea yenə hamilə
olub Yaquba altıncı oğlunu doğdu.
20O dedi: «Allah mənə yaxşı bir
hədiyyə verdi, bu dəfə ərim mənə
hörmət edəcək, çünki ona altı oğul
doğdum». O, uşağın adını Zevulun[b]
qoydu. 21Sonra bir qız doğub, adını
Dina qoydu.

22Allah Rəhiləni yada salıb onu da
eşitdi və bətnini açdı. 23O hamilə olub
bir oğul doğdu və dedi: «Allah xə-
calətimi götürdü». 24O «Rəbb mənə
bir oğul da artırsın» deyib uşağın adını
Yusif[c] qoydu.

### *Yaqubun sürülərə sahib olması*

25Rəhilə Yusifi doğandan sonra
Yaqub Lavana dedi: «Məni göndər, öz
torpağıma və ölkəmə gedim. 26Əvə-
zində sənə xidmət etdiyim arvadlarımı
və uşaqlarımı da ver, gedim, çünki
sənə necə xidmət etdiyimi yaxşı bilir-
sən». 27Lavan ona dedi: «Əgər indi
sənin gözündə lütf tapdımsa, yanımda
qal, çünki baxıcılıq edib sənə görə
Rəbbin mənə xeyir-dua verdiyini gör-
düm». 28Sonra dedi: «Haqqını mənə
təyin et, verim». 29Yaqub ona dedi:
«Sənə necə xidmət etdiyimi və mənim-
lə olan sürülərini necə saxladığımı
bilirsən. 30Çünki mən gəlməmişdən
əvvəl sənin malın az idi, sonra isə xeyli
çoxaldı; Rəbb mənim gəlişimlə sənə
xeyir-dua verdi. Bəs mən öz ailəm
üçün nə vaxt çalışacağam?» 31Lavan
dedi: «Sənə nə verim?» Yaqub dedi:
«Mənə heç nə vermə. Əgər bunu etsən,
yenə sənin sürünü qoruyub ona
baxaram: 32qoy bu gün sənin bütün
sürülərinin içindən keçib qoyunlar
arasından hər xallı, zolaqlı qoyunu və
qara quzunu, keçilər arasından hər
zolaqlı və xallı keçini ayırım; haqqım
da bu olsun. 33Bundan sonra qarşında
olan haqqım üçün gəldikdə düzlüyüm
mənim barəmdə şəhadət edəcək. Qoy
keçilərdən xallı və zolaqlı olmayanı,
quzulardan da qara olmayanı oğur-
lanmış sayılsın». 34Lavan dedi: «Yax-
şı, qoy dediyin kimi olsun». 35Amma o
həmin gün alabəzək və xallı təkələri,
bütün zolaqlı və xallı keçiləri, ağ
keçiləri və bütün qara quzuları ayırıb
oğullarının ixtiyarına verdi. 36Sonra
özü Yaqubdan üç günlük yol qədər
uzaqlaşdı. Yaqub isə Lavanın qalan
sürüsünü otarırdı.

37Yaqub ağcaqovaq, badam və
çinar ağacından düzəldilmiş təzə çu-
buqlar götürdü və çubuqların qabığını
soyub ağ rəngli içi üzə çıxana qədər
zolaqlar açdı. 38Sonra qabığını soy-
duğu çubuqları sürülərin su içmək
üçün gəldikləri teknələrə, heyvanların
qabağına qoydu. Onlar gəlib su içəndə
döllənirdi. 39Beləcə heyvanlar çubuq-
ların qabağında döllənirdi və sürülərdə
alabəzək, xallı və zolaqlı heyvanlar
doğulurdu. 40Yaqub quzuları ayırırdı
və sürünün üzünü Lavanın sürüsündə
olan bütün alabəzək və qara heyvan-
lara tərəf tuturdu. O öz sürüsünü
ayrıca qoydu və onları Lavanın
sürüsünə qatmadı. 41Hər dəfə sürünün
qüvvətli heyvanları döllündikləri

a **30:18** *İssakar* – ibrani dilində *haqq verilsin.*
b **30:20** *Zevulun* – ibrani dilində *hörmət.*
c **30:24** *Yusif* – ibrani dilində *artırsın.*

Gen Lat:Azeri Bible Cyrillic 14.01.2009 15:53 Page 36



zaman Yaqub təknələrə, sürünün
gözləri önünə çubuqlar qoyurdu ki,
çubuqlar arasında döllənsinlər.
42Ancaq heyvanlar zəif olanda onları
qoymazdı. Beləcə zəif heyvanlar
Lavanın, qüvvətli heyvanlar isə Ya-
qubun oldu. 43Bu adam çox varlandı:
onun çoxlu sürüsü, qarabaşı, qulu,
dəvəsi və eşşəyi oldu.

### *Yaqubun Lavandan qaçması*

31 1Yaqub Lavanın oğullarının bu
sözləri dediklərini eşitdi: «Ya-
qub atamıza məxsus olan hər şeyə
sahib oldu, bütün bu var-dövləti
atamıza məxsus olan əmlakdan əldə
etdi». 2Yaqub Lavanın ona münasibə-
tini gördü, o da Yaqubla əvvəlki kimi
rəftar etmirdi. 3Rəbb Yaquba dedi:
«Atalarının ölkəsinə, öz qohumlarının
yanına qayıt. Mən səninlə olacağam».
4Yaqub xəbər göndərib Rəhiləni və
Leanı çöllərə – sürüsünü otardığı yerə
çağırdı. 5Yaqub onlara dedi: «Mən
atanızın münasibətini görürəm ki,
mənimlə əvvəlki kimi rəftar etmir.
Ancaq atamın Allahı mənimlədir. 6Siz
bilirsiniz ki, var gücümlə atanıza
xidmət etmişəm. 7Atanız məni aldatdı
və haqqımı on dəfə dəyişdirdi, amma
Allah onu mənə pislik etməyə qoy-
madı. 8O, "xallı heyvanlar sənin haq-
qın olacaq" deyəndə bütün sürüdə xallı
heyvanlar doğuldu. "Sənin haqqın
alabəzək heyvanlar olacaq" deyəndə
isə bütün sürüdə alabəzək heyvanlar
doğuldu. 9Beləcə Allah atanızın
sürüsünü alıb mənə verdi. 10Sürünün
döllendiyi vaxt yuxuda başımı qaldırıb
gördüm ki, sürüdəki heyvanlarla
cütləşən təkələr alabəzək, xallı və
ləkəlidir. 11Yuxuda Allahın mələyi
mənə dedi: "Yaqub!" "Mən burada-
yam!" deyə cavab verdim. 12O dedi:
"İndi başını qaldır, gör ki, sürüdəki
heyvanlarla cütləşən bütün təkələr
alabəzək, xallı və ləkəlidir, çünki
Lavanın sənə etdiyi hər şeyi gördüm.
13Mən Bet-Eldə sənə görünən Alla-
ham. Orada bir sütun qoyub məsh
etdin və Mənim önümdə əhd etdin.
İndi qalxıb bu torpaqdan get və doğul-
duğun torpağa qayıt"».
14Rəhilə və Lea ona cavab verdilər:
«Məgər atamızın mülkündə bir pa-
yımız ya mirasımız var? 15Məgər o bizi
özgə hesab etmir? Axı o bizi satıb
bizim üçün ödənmiş pulu da xərclədi.
16Buna görə də Allahın atamızdan
aldığı bütün o var-dövlət bizim və
uşaqlarımızındır. İndi sən də Allahın
söylədiyi şeylərin hamısına əməl et».
17Onda Yaqub qalxıb uşaqlarını və
arvadlarını dəvələrə mindirdi. 18Bütün
sürüsünü, qazandığı bütün var-döv-
lətini, Paddan-Aramda əldə etdiyi öz
sürüsünü sürdü ki, Kənan torpağına,
atası İshaqın yanına getsin. 19Lavan
qoyunlarını qırxmağa gedəndə Rəhilə
atasına məxsus olan ev bütlərini oğur-
ladı. 20Yaqub qaçdığını bildirməməklə
Aramlı Lavanı aldatdı. 21Beləcə özünə
məxsus olan hər şeyi götürüb qaçdı. O,
Fərat çayını keçib Gilead dağlıq
bölgəsinə yönəldi.

### *Lavanın Yaqubu təqib etməsi*

22Yaqubun qaçdığı Lavana üçüncü
gün bildirildi. 23O, qohumlarını özü ilə
götürüb yeddi gün onu təqib etdi və
Gilead dağlıq bölgəsində Yaquba
çatdı. 24Allah gecə yuxusunda Aramlı
Lavana görünüb dedi: «Özünü gözlə,
Yaquba nə yaxşı, nə də pis söz de».

**31:13** *Yar. 28:18-22*

Gen Lat:Azeri Bible Cyrillic 14.01.2009 15:53 Page 37



**25**Lavan Yaquba çatdı. Yaqub dağ-
da çadır qurmuşdu. Lavan qohumları
ilə birgə Gilead dağında çadır qurdu.
**26**Lavan Yaquba dedi: «Niyə belə
etdin? Məndən gizlicə qaçdın və
qızlarımı müharibə əsirləri kimi
apardın. **27**Nə üçün gizlicə qaçıb məni
aldatdın? Mənə bunu bildirmədin ki,
səni sevinclə, mahnı oxumaqla, dəf və
lira çalmaqla yola salım. **28**Məni nə-
vələrimlə qızlarımı öpməyə qoymadın;
ağılsızcasına rəftar etmisən. **29**Sizə
pislik edə bilərdim, ancaq atanızın
Allahı dünən gecə mənə belə söylədi:
"Özünü gözlə, Yaquba nə yaxşı, nə də
pis söz de". **30**İndi atanın evi üçün bərk
darıxdığına görə çıxıb gedirsən. Bəs
büt allahlarımı niyə oğurlayıb aparır-
san?» **31**Yaqub Lavana cavab verdi:
«Qorxub düşündüm ki, qızlarını zorla
məndən alarsan. **32**Büt allahlarını isə
kimin yanında tapsan, o sağ qalmaya-
caq. Qohumlarımızın önündə yoxlayıb
məndə nəyini tapsan, özünə götür».
Ancaq Yaqub Rəhilənin onları oğur-
ladığını bilmirdi.

**33**Lavan Yaqubun, Leanın və iki
qarabaşın çadırına girdi, ancaq büt
allahları tapmadı. O, Leanın çadırın-
dan çıxıb Rəhilənin çadırına girdi.
**34**Rəhilə ev bütlərini götürərək dəvənin
yəhərinə qoyub onların üstündə
oturmuşdu. Lavan bütün çadırı yox-
ladı, ancaq onları tapmadı. **35**Rəhilə
atasına dedi: «Hüzurunda qalxa bil-
mədiyim üçün ağam qəzəblənməsin,
çünki qadın adətinə mübtəlayam».
Lavan axtardı, ancaq ev bütlərini
tapmadı.

**36**Yaqub qəzəblənib Lavanla
mübahisə etdi. O, Lavana söylədi:
«Günahım və təqsirim nədir ki, məni
belə təqib edirsən? **37**Bütün şeylərimi
yoxladın, bütün ev şeylərindən nə
tapdın? Tapdığın şeyi mənim qohum-
larımın və öz qohumlarının qabağına
qoy ki, ikimizin arasında şəhadət
olsun. **38**Ötən iyirmi il sənin yanında
işlədim, qoyunların və keçilərin bala-
larını salmadı, sürülərindəki qoçlarını
yemədim. **39**Vəhşi heyvanların parça-
ladığı heyvanı sənin yanına gətir-
məzdim, zərərini özüm çəkərdim. İstər
gündüz, istərsə də gecə oğurlanan hər
heyvanı məndən tələb edərdin.
**40**Gündüzün istisi, gecənin soyuğu
məni əldən salardı, yuxum gözümdən
tökülərdi. **41**İyirmi il sənin evində
qaldım: iki qızın üçün on dörd il və
sürün üçün altı il sənə xidmət etdim.
Sən isə on dəfə haqqımı dəyişdirdin.
**42**Atamın və İbrahimin Allahı, İshaqın
sitayiş etdiyi Allah mənimlə olmasay-
dı, indi yəqin məni əliboş yola salar-
dın. Allah əzabımı və əlimin zəhmətini
gördü, dünən gecə sənə xəbərdarlıq
etdi».

**43**Lavan Yaquba belə cavab verdi:
«Qızlar mənim qızlarım, uşaqlar
mənim uşaqlarım, sürülər mənim
sürülərim və sənin gördüyün hər şey
mənimdir. Bu gün qızlarıma yaxud
onların doğduqları uşaqlara nə edə
bilərəm? **44**İndi gəl bir-birimizə əhd
edək ki, səninlə mənim aramda şahid
olsun». **45**Yaqub bir daş götürüb sütun
kimi qoydu. **46**O öz qohumlarına dedi:
«Daş yığın». Onlar daşları götürüb bir
qalaq düzəltdilər və o qalağın yanında
yeyib-içdilər. **47**Lavan onun adını
Yeqar-Sahaduta[a] qoydu, Yaqub isə
onun adını Qaled[b] qoydu. **48**Lavan

---

a **31:47** *Yeqar-Sahaduta* – arami dilində *şəhadət daş qalağı.*
b **31:47** *Qaled* – ibrani dilində *şəhadət daş qalağı.*

Gen Lat:Azeri Bible Cyrillic 14.01.2009 15:53 Page 38



dedi: «Bu qalaq bu gün mənimlə sənin
aranda şahiddir». Buna görə də onun
adı Qaleddir. **49**Ona həm də Mispa[a]
deyildi, çünki Lavan demişdi: «Bir-
birimizdən ayrılan zaman qoy Rəbb
səninlə mənim aramda gözətçi olsun.
**50**Söz ver ki, qızlarımı incitməyəcəksən
və onların üstünə arvad almayacaq-
san. Bil ki, bizim aramızda bir nəfər
şahid olmasa da, Allah aramızda
şahiddir».

**51**Lavan yenə Yaquba dedi: «Bax
bu da öz aramızda düzəltdiyim qalaq
və sütun! **52**Bu qalaq və sütun şahid
olsunlar ki, nə mən sənin tərəfinə –
qalağın o tayına gedəcəyəm, nə də sən
pislik etmək üçün mənim tərəfimə –
qalağın və sütunun bu tayına gələcək-
sən. **53**Qoy İbrahimin, Naxorun və
onların atalarının Allahı aramızda
hökm etsin!» Yaqub atası İshaqın
sitayiş etdiyi Allaha and içdi. **54**Sonra
Yaqub o dağda qurban kəsdi və
qohumlarını çörək yeməyə çağırdı.
Onlar çörək yedilər və dağda gecə-
lədilər. **55**Lavan səhər tezdən qalxıb
nəvələrini və qızlarını öpdü, onlara
xeyir-dua verdi. Sonra öz yerinə qa-
yıtdı.

### *Yaqubun Esavla görüşə hazırlaşması*

**32** **1**Yaqub yoluna davam etdi.
Allahın mələkləri ona rast
gəldi. **2**Yaqub onları görəndə dedi:
«Bu, Allahın ordugahıdır». O yerin
adını Maxanayim[b] qoydu.

**3**Yaqub özündən qabaq Edom
çölünə, Seir torpağına, qardaşı Esavın
yanına qasidlər göndərdi. **4**Onlara bu
əmri verdi: «Ağam Esava söyləyin ki,
qulun Yaqub belə deyir: "Mən La-
vanın yanında qalıb indiyə qədər ya-
şadım". **5**Mal-qaram, eşşəklərim, qo-
yun-keçim, qullarım və qarabaşlarım
oldu. Mən ağama xəbər vermək üçün
yanına qasidlər göndərdim ki, sənin
gözündə lütf tapım».

**6**Qasidlər Yaqubun yanına qayıdıb
dedilər: «Qardaşın Esavın yanına
getdik. Özü də səni qarşılamaq üçün
gəlir və yanında dörd yüz nəfər var».
**7**Yaqub çox qorxub həyəcanlandı.
Yanında olan adamları, qoyun-keçini,
mal-qaranı və dəvələri iki dəstəyə
ayırıb dedi: **8**«Əgər Esav bir dəstəyə
hücum edib onları qırsa, arxada qalan
dəstə qaça bilsin».

**9**Sonra Yaqub dedi: «Ey babam
İbrahimin Allahı, atam İshaqın Allahı
Rəbb, Sən mənə demişdin: "Öz ölkənə
və qohumlarının yanına qayıt. Mən
sənə yaxşılıq edəcəyəm". **10**Quluna
göstərdiyin bütün xeyirxahlığa və
sədaqətə layiq deyiləm; bu İordan
çayını təkcə dəyənəyimlə keçdim, indi
isə iki dəstə köçüm var. **11**Yalvarıram,
məni qardaşım Esavın əlindən qurtar.
Çünki onun gəlib məni, uşaqlarımla
analarını öldürməsindən qorxuram.
**12**Sən dedin: "Hökmən sənə yaxşılıq
edəcəyəm, nəslini saysız-hesabsız də-
niz qumu qədər çoxaldacağam"».

**13**Yaqub o gecəni orada keçirtdi.
Özündə olan hər şeydən qardaşı Esava
hədiyyə olaraq **14**iki yüz keçi, iyirmi
təkə, iki yüz qoyun, iyirmi qoç,
**15**balaları ilə birgə otuz sağmal dəvə,
qırx inək, on buğa, iyirmi dişi və on
erkək eşşək götürdü. **16**Sürüləri ayrı-
ayrı qullarına tapşırdı və onlara dedi:
«Mənim qabağımda gedin və bir sürü
ilə o biri sürü arasında məsafə sax-

---

a **31:49** *Mispa* – ibrani dilində *gözətçi qülləsi.*
b **32:2** *Maxanayim* – ibrani dilində *iki ordugah.*
**32:12** *Yar. 22:17*

Gen Lat:Azeri Bible Cyrillic 14.01.2009 15:53 Page 39



layın». **17**Yaqub birinci qula əmr edib dedi: «Qardaşım Esav sənə rast gəlib "Kimin adamısan, hara gedirsən, qabağındakı bu heyvanlar kimindir?" deyə soruşanda **18**ona söylə: "Bunlar qulun Yaqubundur, bu da ağam Esava göndərilmiş hədiyyələrdir. Özü də bizim dalımızca gəlir"». **19**Sonra o, ikinci, üçüncü quluna və sürülərin dalınca gedən hər kəsə əmr edib dedi: **20**«Esava rast gələndə ona eyni sözləri söyləyin: "Qulun Yaqub da dalımızca gəlir"». Çünki o öz-özünə deyirdi: «Əvvəlcə qabağımda göndərdiyim hədiyyələrlə onu rəhmə gətirərəm, sonra onunla görüşərəm. Bəlkə onda məni qəbul edər». **21**Hədiyyələr Yaqubun qabağında getdi, o isə gecəni düşərgədə yatdı.

### *Yaqubun Allahla rastlaşması*

**22**Yaqub gecə qalxıb iki arvadını, iki cariyəsini və on bir uşağını götürərək Yabboq çayının keçidindən keçdi. **23**Onları götürüb çayı keçirtdi və özünə məxsus şeyləri də keçirtdi. **24**Sonra Yaqub tək qaldı. Dan yeri sökülənə qədər bir Şəxs onunla güləşdi. **25**Yaquba üstün gələ bilmədiyini görüb onun budunun oynağına zərbə vurdu. O Şəxslə güləşərkən Yaqubun budunda oynağı zədələndi. **26**O Şəxs dedi: «Burax, gedim, çünki səhər açılır». Yaqub dedi: «Mənə xeyir-dua verməsən, Səni buraxmaram». **27**O Şəxs soruşdu: «Adın nədir?» O dedi: «Yaqub». **28**O Şəxs dedi: «Artıq sənə Yaqub deyil, İsrail[a] deyiləcək,[1] çünki sən Allahla[2] və insanlarla güləşib üstün gəlmisən». **29**Yaqub soruşdu: «Xahiş edirəm, adını söylə». O dedi: «Adımı niyə soruşursan?» O Şəxs orada Yaquba xeyir-dua verdi. **30**Yaqub o yerin adını Peniel[b] qoydu, çünki demişdi: «Allahı üz-üzə gördüm və salamat qaldım». **31**Yaqub Penieldən keçəndə günəş doğdu. O, bir budundan axsayırdı. **32**Ona görə bu günə qədər də İsraillilər bud oynağının üzərindəki vətərləri yeməzlər. Çünki güləşən Şəxs Yaqubun bud oynağının vətərinə toxunmuşdu.

### *Yaqubun Esavla görüşü*

**33** **1**Yaqub başını qaldırıb gördü ki, Esav dörd yüz adamla birlikdə gəlir. O, Leanın, Rəhilənin və iki cariyəsinin uşaqlarını ayırdı: **2**cariyələrlə onların uşaqlarını qabağa, Lea ilə onun uşaqlarını ortaya, Rəhilə ilə Yusifi isə arxaya qoydu. **3**Özü isə onların qabağına keçdi və qardaşına yaxınlaşanda yeddi dəfə yerə əyildi.

**4**Esav Yaqubu qarşılamaq üçün qaçıb onu qucaqladı və boynuna sarılıb öpdü. Onlar ağlaşdılar. **5**Esav başını qaldırıb qadınları və uşaqları görəndə dedi: «Bunlar sənin nəyindir?» Yaqub dedi: «Allahın sənin quluna lütf etdiyi uşaqlardır». **6**Əvvəl cariyələrlə uşaqları yaxınlaşıb təzim etdilər, **7**sonra Lea ilə uşaqları yaxınlaşıb təzim etdilər, axırda isə Yusiflə Rəhilə yaxınlaşıb təzim etdilər. **8**Esav soruşdu: «Rast gəldiyim o biri dəstəni nə üçün göndərmişdin?» Yaqub dedi: «Ağamın gözündə lütf tapmaq üçün». **9**Esav dedi: «Mənim sürüm çoxdur, qardaşım, səndə olan sənin olsun». **10**Yaqub dedi: «Yox, xahiş edirəm, indi gözündə lütf tapdımsa, məndən bu hədiyyələri götür. Çünki sənin

a **32:28** *İsrail* – ibrani dilində *Allahla güləşən.* b **32:30** *Peniel* – ibrani dilində *Allahın üzü.*

**32:28 –** [1] *Yar. 35:10;* [2] *Huş. 12:4*

Gen Lat:Azeri Bible Cyrillic 14.01.2009 15:53 Page 40



üzünü görəndə Allahın üzünü görmüş
sandım, mənə qarşı çox xeyirxah
oldun. 11 Xahiş edirəm, sənə gətirilən
hədiyyələri götür. Çünki Allah mənə
lütf etdi və indi mənim hər şeyim var».
Yaqub təkid etdikdən sonra Esav
hədiyyələri götürdü.

12 Esav dedi: «Köç edib gedək. Mən
sizin qabağınızda gedəcəyəm». 13 Ya-
qub ona dedi: «Ağam bilir ki, uşaqlar
zəifdir, yanımda olan qoyun-keçi və
mal-qara da sağmaldır. Sürüləri bir
gün bərk sürsələr, hamısı tələf olar.
14 Xahiş edirəm, ağam qulundan qa-
baqda getsin, mən isə ağamın yanına,
Seirə çatana qədər qabağımda olan
sürülərin və uşaqların yerişinə görə
yavaş sürəcəyəm». 15 Esav dedi: «Mə-
nimlə olan adamların bəzisini səninlə
qalmaq üçün qoyum». Yaqub dedi:
«Bu nəyə lazımdır? Mən ancaq ağa-
mın gözündə lütf tapmaq istəyirəm».
16 Esav o gün yola düşüb Seirə qayıtdı.
17 Yaqub Sukkota köçüb özünə ev
tikdi və sürüsünə ağıllar düzəltdi. Ona
görə də bu yerin adını Sukkot[a] qoy-
dular.

18 Yaqub Paddan-Aramdan qayıt-
dıqdan sonra sağ-salamat Kənan tor-
pağında olan Şekem şəhərinə gəldi və
şəhərin qarşısında məskən saldı. 19 O,
çadırını qurduğu tarla sahəsini Şeke-
min atası Xamorun oğullarından yüz
parça gümüşlə satın aldı. 20 Yaqub
orada bir qurbangah qurub adını El-
Elohe-İsrail[b] qoydu.

### *Dinanın rüsvayçılığı*

34 1 Leanın Yaquba doğduğu qızı
Dina o ölkənin qızlarını gör-
məyə çıxdı. 2 O ölkənin ağası Xivli
Xamorun oğlu Şekem onu gördü. Qızı
aparıb onunla yatdı və onu zorladı.
3 Onun ürəyi Yaqubun qızı Dinaya
bağlandı. Şekem qızı sevdi və onunla
xoş rəftar etdi. 4 Şekem atası Xamora
dedi: «Bu qızı mənə arvad al».

5 Yaqub qızı Dinanın zorlandığını
eşitdi, ancaq oğulları çöldə sürülərinin
yanında olduqları üçün onlar gələnə
qədər susdu. 6 Şekemin atası Xamor
Yaqubla danışmaq üçün onun yanına
getdi. 7 Yaqubun oğulları bunu eşidib
çöllükdən gəldilər. Onlar məyus ol-
dular və bərk qəzəbləndilər. Çünki
Şekem Yaqubun qızı ilə yatmaqla
İsraili rüsvay etmişdi, belə iş etmək
olmazdı.

8 Xamor onlara belə dedi: «Oğlum
Şekemin ürəyi qızınıza bağlanıb.
Xahiş edirəm, qızı ona arvad olmaq
üçün verəsiniz. 9 Bizimlə qohum olun:
öz qızlarınızı bizə arvad verin, bizim
qızlarımızı özünüzə alın. 10 Bizimlə
qalın, ölkə də sizin ixtiyarınızdadır:
burada yaşayın, ticarət edin və mülk
sahibi olun». 11 Şekem qızın atasına və
qardaşlarına dedi: «Sizin gözünüzdə
lütf tapmaq üçün məndən nə istəsəniz,
verərəm. 12 Məndən çoxlu başlıq və
hədiyyələr istəyin, söylədiyiniz hər şeyi
verərəm. Ancaq qızı arvad olmaq üçün
mənə verin».

13 Yaqubun oğulları Şekemə və
onun atası Xamora hiylə ilə cavab
verdilər, çünki Şekem bacıları Dinanı
zorlamışdı. 14 Onlara dedilər: «Biz
bunu edə bilmərik, bacımızı sünnətsiz
bir adama ərə verə bilmərik. Bu bizim
üçün rüsvayçılıq olar. 15 Ancaq bir

a **33:17** *Sukkot* – ibrani dilində *ağıllar* yaxud *çardaqlar.*
b **33:20** *El-Elohe-İsrail* – ibrani dilində *Allah, İsrailin Allahı.*
**33:19** *Yeşua 24:32; Yəh. 4:5; Həv. 7:16*

Gen Lat:Azeri Bible Cyrillic 14.01.2009 15:53 Page 41



şərtlə sizinlə razı oluruq: bütün kişi-
ləriniz sünnət edilib bizim kimi olsalar,
16öz qızlarımızı sizə ərə verərik, sizin
qızlarınızı özümüzə alarıq və sizinlə
yaşayıb bir xalq olarıq. 17Əgər bizə
qulaq asmasanız və sünnət olunma-
sanız, qızımızı götürüb gedəcəyik».

18Onların sözləri Xamorun və oğlu
Şekemin xoşuna gəldi. 19Cavan oğlan
bu işi dərhal etdi, çünki Yaqubun qızı
çox xoşuna gəlmişdi. Şekem atasının
evində ən hörmətli adam idi. 20Xamor
və oğlu Şekem öz şəhərlərinin darva-
zasına gəldilər və şəhərin adamlarına
belə dedilər: 21«Bu adamlar bizimlə
səmimidir. Qoy bu ölkədə yaşasınlar
və ticarət etsinlər. Bu ölkə onlar üçün
kifayət qədər genişdir. Onların qızla-
rını özümüzə arvad alarıq, öz qızla-
rımızı da onlara ərə verərik. 22Bu
adamlar yalnız bir şərtlə bizimlə
yaşamağa və bir xalq olmağa razı
olurlar ki, bizim də bütün kişilərimiz
onlar kimi sünnət olunsun. 23Onların
sürüləri, mülkləri və heyvanları bizim
olmayacaqmı? Gəlin onlarla razılaşaq
və onlar bizimlə yaşasın». 24Şəhərin
bütün sakinləri Xamora və oğlu Şe-
kemə qulaq asdılar: şəhər əhalisindən
olan bütün kişilər sünnət olundu.

25Üçüncü gün onlar hələ də ağrı
çəkən zaman Dinanın qardaşları –
Yaqubun iki oğlu Şimeon və Levi
qılınclarını götürüb maneəsiz şəhərə
girdilər və bütün kişiləri qılıncdan
keçirtdilər. 26Xamoru və oğlu Şekemi
də öldürdülər. Dinanı Şekemin evin-
dən götürüb getdilər. 27Yaqubun oğul-
ları ölənlərin yanına gəldilər və şəhəri
qarət etdilər, çünki bacılarını zorla-
mışdılar. 28Onların qoyun-keçilərini,
mal-qaralarını, eşşəklərini, şəhərdə və
çöldə olan hər şeyi götürdülər. 29Bütün
mallarını, uşaqlarını və qadınlarını
əsir apardılar, onların evlərində olan
hər şeyi qarət etdilər. 30Yaqub Şime-
ona və Leviyə dedi: «Ölkədə yaşayan
Kənanlılarda və Perizlilərdə mənə
qarşı nifrət oyadıb məni bəlaya sal-
dınız. Biz sayca azıq, əgər birləşib bizi
qırsalar, özüm də ailəmlə birgə həlak
olacağam». 31Amma onlar dedilər:
«Bəs bizim bacımızla bir fahişə kimi
rəftar etmək olarmı?»

### *Yaqubun Bet-Elə qayıtması*

35 1Allah Yaquba dedi: «Qalxıb
Bet-Elə get və orada qal.
Qardaşın Esavın əlindən qaçanda sənə
görünən Allaha orada bir qurbangah
düzəlt». 2Yaqub ailəsinə və onunla
olanların hamısına dedi: «Yanınızda
olan özgə büt allahlarını atın və
özünüzü pak edib paltarlarınızı
dəyişin. 3Qalxıb Bet-Elə gedək. Dərdli
günümdə mənə cavab verən və get-
diyim yolda mənimlə olan Allaha
orada bir qurbangah düzəldəcəyəm».
4Onlar yanlarında olan bütün özgə büt
allahlarını və qulaqlarındakı sırğaları
Yaquba verdilər. Yaqub bunları Şe-
kem yaxınlığında olan palıdın altında
basdırdı. 5Onlar yola düşdülər. Allah
ətraf şəhərlərin sakinlərini dəhşətə
salmışdı və buna görə də onlar Ya-
qubun oğullarını təqib etmədilər.

6Yaqub yanındakı bütün adamlarla
birgə Kənan torpağında olan Luza,
yəni Bet-Elə gəldi. 7Burada bir qur-
bangah düzəldib o yerin adını El-Bet-
El[a] qoydu, çünki qardaşının əlindən
qaçanda Allah Özünü orada Yaquba
zahir etmişdi.

8Rivqanın dayəsi Devora öldü. Onu

a **35:7** *El-Bet-El* – ibrani dilində *Bet-Elin Allahı.* **35:1** *Yar. 28:11-17*

Gen Lat:Azeri Bible Cyrillic 14.01.2009 15:53 Page 42



Bet-Elin aşağısında olan palıdın al-
tında basdırdılar. Oranın adını Allon-
Bakut[a] qoydular.
9Yaqub Paddan-Aramdan qayı-
danda Allah yenə Yaquba göründü və
ona xeyir-dua verdi. 10Allah ona dedi:
«Sənin adın Yaqubdur. Artıq adın
Yaqub çağırılmayacaq, bundan sonra
adın İsrail olacaq». Allah onun adını
İsrail qoydu 11və ona dedi: «Külli-
İxtiyar Allah Mənəm. Qoy nəslin artıb
çoxalsın. Səndən bir millət və çoxlu
millət törəyəcək, sənin nəslindən çoxlu
padşahlar çıxacaq. 12İbrahimə və İs-
haqa verdiyim torpağı sənə verəcə-
yəm. Səndən sonra da onu sənin
nəslinə verəcəyəm». 13Allah Yaqubla
danışdığı yerdə onun yanından yuxarı
çəkildi. 14Yaqub Allahın onunla da-
nışdığı yerdə bir sütun qoydu, üstünə
içmə təqdimi səpdi və sonra üzərinə
zeytun yağı tökdü. 15Yaqub Allahın
onunla danışdığı yerin adını Bet-El
qoydu.

### *Rəhilənin və İshaqın ölümü*

16Onlar Bet-Eldən yola düşdülər.
Efrata çatana yaxın Rəhilə doğdu.
Onun doğuşu ağır oldu. 17Doğuş za-
manı ağrı çəkəndə mamaça ona dedi:
«Qorxma, yenə də bir oğlun oldu».
18O, ölüm ayağında can verərkən
oğlunun adını Ben-Oni[b] qoydu, ancaq
atası onun adını Binyamin[c] qoydu.
19Rəhilə öldü və Efrata, yəni Bet-
Lexemə gedən yolda basdırıldı. 20Ya-
qub onun qəbri üstünə bir daş qoydu.
O bu günə qədər Rəhilənin başdaşıdır.
21İsrail yola düşdü və Eder qüllə-
sinin o biri tərəfində çadır qurdu.
22İsrail bu ölkədə yaşayanda Ruven
gedib atasının cariyəsi Bilha ilə yatdı.
İsrail bunu eşitdi.
23Yaqubun on iki oğlu var idi.
Leanın oğulları: Yaqubun ilk oğlu
Ruven, Şimeon, Levi, Yəhuda, İssa-
kar və Zevulun. 24Rəhilənin oğulları:
Yusif və Binyamin. 25Rəhilənin qul-
luqçusu Bilhanın oğulları: Dan və
Naftali. 26Leanın qulluqçusu Zilpanın
oğulları: Qad və Aşer. Yaqubun Pad-
dan-Aramda doğulan oğulları bunlar-
dır.
27Yaqub Qiryat-Arbada, yəni Xev-
ronda olan Mamreyə, atası İshaqın
yanına gəldi. İbrahim və İshaq Mam-
redə qərib idilər. 28İshaq yüz səksən il
ömür sürdü. 29O qocalıb yaşa dolaraq
canını tapşırdı və ölüb əcdadlarına
qoşuldu. Oğulları Esav və Yaqub onu
basdırdılar.

### *Esavın nəsli*

*(1Saln. 1:34-37)*

36 1Esavın, yəni Edomun tarixçə-
si belədir. 2Esav Kənan qızla-
rından Xetli Elonun qızı Adanı, Xivli
Siveonun qızı Ananın qızı Oholi-
vamanı, 3həmçinin İsmailin qızı, Ne-
vayotun bacısı Basmatı arvad aldı.
4Ada Esava Elifazı doğdu, Basmat isə
Reueli doğdu. 5Oholivama Yeuşu,
Yalamı və Qorahı doğdu; Esavın
Kənan torpağında doğulan oğulları
bunlardır.
6Esav arvadlarını, oğullarını, qızla-
rını, evindəki adamların hamısını,
sürülərini, bütün heyvanlarını və

a **35:8** *Allon-Bakut* – ibrani dilində *ağlaşma palıdı.*
b **35:18** *Ben-Oni* – ibrani dilində *kədərimin oğlu.*
c **35:18** *Binyamin* – ibrani dilində *sağ əlimin oğlu.*
**35:10** *Yar. 32:28* **35:11-12** *Yar. 17:4-8* **35:14-15** *Yar. 28:18-19* **35:27** *Yar. 13:18*
**36:2** *Yar. 26:34* **36:3** *Yar. 28:9*

Gen Lat:Azeri Bible Cyrillic 14.01.2009 15:53 Page 43



Kənan torpağında qazandığı bütün
var-dövləti götürüb qardaşı Yaqubun
yanından başqa bir torpağa getdi.
7Çünki əmlakları çox olduğuna görə
bir yerdə yaşaya bilmədilər; sürüləri
çox olduğu üçün qaldıqları torpağa
sığmırdılar. 8Esav, yəni Edom Seir
dağlıq diyarında məskən saldı.

9Edomluların əcdadı Esavın Seir
dağlıq diyarındakı tarixçəsi belədir.
10Esavın oğullarının adları belədir:
Esavın arvadı Adanın oğlu Elifaz,
Esavın arvadı Basmatın oğlu Reuel.
11Elifazın oğulları: Teman, Omar,
Sefo, Qatam və Qenaz. 12Timna
Esavın oğlu Elifazın cariyəsi idi. O,
Elifaza Amaleqi doğdu. Esavın arvadı
Adanın nəvələri bunlardır. 13Reuelin
oğulları bunlardır: Naxat, Zerah,
Şamma və Mizza; bunlar Esavın
arvadı Basmatın nəvələridir. 14Esavın
arvadı Siveon qızı Ana qızı Oholi-
vamanın oğulları bunlardır: o, Esava
Yeuşu, Yalamı və Qorahı doğdu.

15Esav oğullarının başçıları bun-
lardır: Esavın ilk oğlu Elifazın oğul-
ları: başçı Teman, başçı Omar, başçı
Sefo, başçı Qenaz, 16başçı Qorah,
başçı Qatam, başçı Amaleq. Edom
torpağında Elifazdan olan başçılar
bunlardır; onlar Adanın nəvələridir.
17Esavın oğlu Reuelin oğulları bun-
lardır: başçı Naxat, başçı Zerah, başçı
Şamma, başçı Mizza. Edom torpağın-
da Reueldən olan başçılar bunlardır;
onlar Esavın arvadı Basmatın nəvə-
ləridir. 18Esavın arvadı Oholivamanın
oğulları bunlardır: başçı Yeuş, başçı
Yalam, başçı Qorah; onlar Esavın
arvadı Ana qızı Oholivamanın nəslin-
dən olan başçılardır. 19Bunlar Esavın,
yəni Edomun oğullarıdır, bunlar da
onların başçılarıdır.

### *Seirin nəsli*

*(1Saln. 1:38-41)*

20Ölkədə yaşayan Xorlu Seirin
oğulları bunlardır: Lotan, Şoval,
Siveon, Ana, 21Dişon, Eser və Dişan.
Edom torpağında başçılıq edən Xorlu
Seirin oğulları bunlardır.

22Lotanın oğulları Xori və Hemam,
Lotanın bacısı Timna. 23Şovalın oğul-
ları bunlardır: Alvan, Manaxat, Eval,
Şefo və Onam. 24Siveonun oğulları
bunlardır: Ayya və Ana; atası Sive-
onun eşşəklərini otararkən çöldə isti
bulaqlar tapan Ana budur. 25Ananın
övladları bunlardır: Dişon və Ananın
qızı Oholivama. 26Dişonun oğulları
bunlardır: Xemdan, Eşban, İtran və
Keran. 27Eserin oğulları bunlardır:
Bilhan, Zaavan və Aqan. 28Dişanın
oğulları bunlardır: Us və Aran.

29Xorlulardan olan başçılar bun-
lardır: başçı Lotan, başçı Şoval, başçı
Siveon, başçı Ana, 30başçı Dişon, baş-
çı Eser, başçı Dişan; Seir torpağında
qəbilələrinə görə Xorlu başçılar bun-
lardır.

### *Edomun padşahları və başçıları*

*(1Saln. 1:43-54)*

31İsraillilərə bir kəs padşahlıq
etməzdən əvvəl Edom ölkəsində
padşahlıq edən adamlar bunlardır:
32Edomda Beorun oğlu Bela padşah
oldu. Onun şəhəri Dinhava idi. 33Bela
öldü və onun yerinə Bosradan olan
Zerah oğlu Yovav padşah oldu.
34Yovav öldü və onun yerinə Teman-
lıların torpağından olan Xuşam
padşah oldu. 35Xuşam öldü və onun
yerinə Moav çölündə Midyanlıları
qıran Bedad oğlu Hadad padşah oldu.
Onun şəhəri Avit idi. 36Hadad öldü və

Gen Lat:Azeri Bible Cyrillic 14.01.2009 15:53 Page 44



onun yerinə Masreqadan olan Samla
padşah oldu. 37Samla öldü və onun
yerinə Rexovot-Hannahardan olan
Şaul padşah oldu. 38Şaul öldü və onun
yerinə Akbor oğlu Baal-Xanan pad-
şah oldu. 39Akbor oğlu Baal-Xanan
öldü və onun yerinə Hadar padşah
oldu. Onun şəhəri Pau idi. Onun
arvadının adı Me-Zahav qızı Matred
qızı Mehetavel idi.

40Esavın nəslindən olan başçıların
qəbilələrinə və yerlərinə görə adları
belədir: başçı Timna, başçı Alva, başçı
Yetet, 41başçı Oholivama, başçı Ela,
başçı Pinon, 42başçı Qenaz, başçı Te-
man, başçı Mivsar, 43başçı Maqdiel,
başçı İram; sahib olduqları ölkədə
yaşadıqları yerlərə görə Edom başçı-
ları bunlardır. Esav da Edomluların
əcdadıdır.

### *Yusifin yuxuları*

37 1Yaqub atasının qərib olduğu
Kənan torpağında yaşadı.
2Yaqubun tarixçəsi belədir.

Yusif on yeddi yaşında bir gənc idi.
O öz qardaşları – atalarının arvadları
Bilhanın və Zilpanın oğulları ilə
birlikdə sürü otarırdı. Yusif onların pis
işləri barədə xəbərləri atasına çatdı-
rırdı. 3İsrail Yusifi bütün oğullarından
çox sevirdi, çünki Yusif onun qocalıq
çağının oğlu idi. O, Yusifə əlvan paltar
tikdirdi. 4Qardaşları gördülər ki,
ataları onlardan çox Yusifi sevir.
Buna görə də ona nifrət etdilər və
onunla yaxşı rəftar etmədilər.

5Bir dəfə Yusif yuxu gördü və onu
qardaşlarına danışdı. Bundan sonra
ona daha çox nifrət etməyə başladılar.
6Yusif onlara dedi: «Gördüyüm bu yu-
xuya qulaq asın: 7biz zəminin orta-
sında dərz bağlayırdıq; mənim dərzim
qalxıb dik durdu, sizin dərzləriniz isə
mənim dərzimi əhatəyə alıb ona səcdə
etdilər». 8Qardaşları ona dedilər:
«Doğrudanmı, sən bizə padşah
olacaqsan, hökmranlıq edəcəksən?»
Onlar yuxularına və sözlərinə görə
Yusifə daha çox nifrət etdilər.

9Yusif başqa bir yuxu gördü və onu
qardaşlarına danışıb dedi: «Yenə bir
yuxu gördüm; gördüm ki, günəş, ay və
on bir ulduz mənə səcdə edir». 10O,
yuxusunu atasına və qardaşlarına
danışanda atası onu danlayıb dedi:
«Bu gördüyün yuxu nə deməkdir?
Doğrudanmı, mən, anan və qardaş-
ların yerə əyilib sənə təzim etmək üçün
gələcəyik?» 11Qardaşları ona paxıllıq
etdilər, atası isə bu sözü yadda saxladı.

### *Qardaşlarının Yusifi satması*

12Bir gün Yusifin qardaşları
atalarının sürüsünü otarmaq üçün
Şekemə getdilər. 13İsrail Yusifə dedi:
«Qardaşların Şekemdə sürü otarırlar.
Gəl səni də onların yanına göndərim».
O, atasına dedi: «Getməyə hazıram».
14İsrail yenə ona dedi: «Get bax,
qardaşların yaxşıdırmı, sürü salamat-
dırmı? Sonra mənə xəbər gətir». Beləcə
onu Xevron vadisindən yola saldı.

Yusif gəlib Şekemə çatdı. 15Çöldə
dolaşarkən bir nəfər ona rast gəldi. Bu
adam «Nə axtarırsan?» deyə ondan
soruşdu. 16O dedi: «Mən qardaşlarımı
axtarıram. Mənə de görüm, onlar
sürünü harada otarırlar?» 17Bu adam
dedi: «Buradan getdilər, çünki mən
onların "Dotana gedək" sözlərini eşit-
dim». Yusif qardaşlarının dalınca düş-
dü və onları Dotanda tapdı.

18Qardaşları onu uzaqdan gördülər.

**37:11** *Həv. 7:9-10*

Gen Lat:Azeri Bible Cyrillic 14.01.2009 15:53 Page 45



Yusif onların yanına çatmamış onu
öldürmək qərarına gəldilər. 19Qar-
daşlar bir-birlərinə dedilər: «Budur,
yuxu görənimiz gəlir. 20İndi gəlin onu
öldürüb bir quyuya ataq, sonra da
deyək ki, vəhşi heyvan onu parçaladı.
Onda görərik, yuxuları necə çin çıxır».
21Ruven bunu eşidib Yusifi onların
əlindən qurtarmaq üçün dedi: «Gəlin
ona toxunmayaq». 22Ruven onlara
«qan tökməyin, onu çöldə olan bu
quyuya atın, ancaq ona toxunmayın»
dedi. Bunu ona görə deyirdi ki, Yusifi
qardaşlarının əlindən qurtarıb atası-
nın yanına qaytarsın. 23Yusif qardaş-
larının yanına çatanda onlar Yusifin
əyninə geydiyi alabəzək paltarı dartıb
çıxartdılar. 24Özünü də götürüb quyu-
ya atdılar. Quyu boş idi, orada su yox
idi.

25Qardaşlar çörək yemək üçün
oturdular. Onlar başlarını qaldıranda
gördülər ki, Gileaddan İsmaillilərin bir
karvanı gəlir. Onların dəvələri ədviy-
yat, balzam və ətriyyatla yüklənmişdi
və bunları Misirə aparırdılar. 26Yə-
huda qardaşlarına dedi: «Əgər qar-
daşımızı öldürüb qətli ört-basdır etsək,
bunun nə xeyri olar? 27Gəlin onu
İsmaillilərə sataq və ona toxunmayaq,
çünki qardaşımızdır, biz eyni qanda-
nıq». Qardaşları onun sözü ilə razı-
laşdılar. 28Oradan Midyan tacirləri
keçəndə Yusifi quyudan çıxarıb
İsmaillilərə iyirmi gümüşə satdılar.
Onlar da Yusifi Misirə apardılar.

29Ruven quyuya tərəf qayıdıb gör-
dü ki, Yusif orada yoxdur. O, paltarını
cırdı. 30Sonra qardaşlarının yanına
qayıdıb dedi: «Uşaq yoxdur, bəs mən
nə edim?» 31Onlar Yusifin paltarını
götürdülər və bir keçi kəsib paltarı
qana batırdılar. 32Sonra qardaşlar bu
əlvan paltarı götürüb atalarına gətir-
dilər və dedilər: «Biz bunu tapdıq: gör,
oğlunun paltarıdır ya yox?» 33O,
paltarı tanıyıb dedi: «Bu, oğlumun
paltarıdır; yəqin onu vəhşi bir heyvan
yeyib. Həqiqətən, Yusif parçalanıb».
34Yaqub öz paltarını cırdı və belinə çul
bağladı; o uzun müddət oğlu üçün yas
tutdu. 35Bütün oğulları və qızları ona
təsəlli vermək üçün yığışdı, ancaq o
təsəlli tapmaq istəməyib dedi: «Kə-
dərlə oğlumun yanına – ölülər diyarına
enəcəyəm». Beləcə atası onun üçün
ağladı.

36Midyanlılar isə Yusifi Misirdə
fironun bir əyanı olan mühafizəçilər
rəisi Potifara satdılar.

### *Yəhuda və Tamar*

38 1O zaman Yəhuda qardaş-
larından ayrılaraq Xira adlı
Adullamlı bir adamın yanına gedib
məskən saldı. 2Yəhuda orada Şua adlı
Kənanlı bir adamın qızını gördü.
Yəhuda qızı arvad alıb yanına girdi.
3Qadın hamilə olub bir oğlan doğdu
və Yəhuda onun adını Er qoydu.
4Qadın yenə hamilə olub bir oğlan
doğdu və adını Onan qoydu. 5Sonra
yenə də bir oğlan doğub, adını Şela
qoydu. Qadın onu doğduğu zaman
Yəhuda Kezivdə idi.

6Yəhuda ilk oğlu Er üçün bir arvad
aldı, onun adı Tamar idi. 7Yəhudanın
ilk oğlu Er Rəbbin gözündə pis idi və
Rəbb onu öldürdü. 8Yəhuda Onana
dedi: «Qardaşın arvadının yanına gir,
öz qayınlıq vəzifəni yerinə yetirib
qardaşın üçün nəsil yetişdir». 9Onan
bilirdi ki, bu nəsil ona məxsus olma-
yacaq. Buna görə də qardaşı arvadının

**37:28** *Həv. 7:9-10* **38:8** *Qanun. 25:5-7*

Gen Lat:Azeri Bible Cyrillic 14.01.2009 15:53 Page 46



yanına girəndə toxumunu yerə tökərdi ki, qardaşı üçün nəsil yetişdirməsin. 10Onun etdiyi bu iş Rəbbin gözündə pis oldu və Rəbb onu da öldürdü. 11Yəhuda gəlini Tamara dedi: «Atanın evinə qayıt, oğlum Şela böyüyənə qədər dul olaraq qal». Yəhuda fikirləşdi ki, Şela da qardaşları kimi ölə bilər. Tamar gedib atasının evində qaldı.

12Uzun müddətdən sonra Şuanın qızı olan Yəhudanın arvadı öldü. Yəhuda matəm qurtarandan sonra dostu Adullamlı Xira ilə birlikdə Timnata sürüsünü qırxanların yanına getdi. 13Tamara bildirdilər: «Bax qayınatan sürüsünü qırxmaq üçün Timnata gəlir». 14Tamar dulluq paltarını əynindən çıxarıb rübənd örtdü və bürünüb Timnata gedən yolda olan Enayim darvazasının yanında oturdu. Çünki o görürdü ki, Şela böyüyüb, o isə hələ də Şelaya ərə verilməyib.

15Yəhuda onu görəndə elə bildi ki, bir fahişə qadındır, çünki üzünü örtmüşdü. 16Yəhuda yolunu ona tərəf salıb dedi: «İcazə ver, sənin yanına girim». Ancaq onun öz gəlini olduğunu bilmədi. Qadın dedi: «Yanıma girmək üçün mənə nə verirsən?» 17Yəhuda dedi: «Sürüdən bir oğlaq göndərərəm». O dedi: «Onu göndərənə qədər mənə girov olaraq bir şey verərsənmi?» 18Yəhuda soruşdu: «Girov olaraq sənə nə verim?» Qadın dedi: «Öz möhürünü, qaytanını və əlində olan əsanı». Yəhuda bunları qadına verib yanına girdi. Qadın ondan hamilə qaldı. 19Sonra Tamar qalxıb getdi və rübəndini götürüb dulluq paltarını geydi.

20Yəhuda qadından girovunu almaq üçün Adullamlı dostunun vasitəsilə oğlağı göndərdi. Ancaq o, qadını tapmadı. 21Qadının olduğu yerin adamlarından soruşdu: «Enayimdə yol kənarında olan fahişə haradadır?» Onlar dedilər: «Burada fahişə yoxdur». 22O, Yəhudanın yanına qayıdıb dedi: «Onu tapa bilmədim. O yerin adamları da “burada fahişə yoxdur” dedilər». 23Yəhuda dedi: «Qoy bu şeylər onunku olsun, ancaq biz bu işdən rüsvay olmayaq. Bax mən bu oğlağı ona göndərdim, amma sən onu tapmadın».

24Bundan təxminən üç ay sonra Yəhudaya bildirdilər: «Gəlinin Tamar zina edib, həm də bu zinadan hamilə qalıb». Yəhuda dedi: «Onu çıxarıb yandırın». 25O bayıra çıxarıldığı zaman qayınatasına xəbər göndərib dedi: «Mən bu şeylərin sahibi olan adamdan hamilə qaldım». Sonra dedi: «Bax gör, bu möhür, qaytan və əsa kimindir?» 26Yəhuda bunları tanıyıb dedi: «O məndən haqlıdır, çünki onu oğlum Şelaya vermədim». Yəhuda onunla bir daha yaxınlıq etmədi.

27Tamar doğanda məlum oldu ki, bətnində əkiz var. 28Doğuş vaxtı bir uşaq əlini çıxartdı. Mamaça götürüb onun əlinə qırmızı ip bağladı və dedi: «Əvvəlcə bu doğuldu». 29Ancaq o uşaq əlini geri çəkdi və qardaşı birinci doğuldu. Mamaça dedi: «Özünə necə deşik açdın?» Buna görə də onun adını Peres[a] qoydular. 30Ondan sonra əlində qırmızı ip olan qardaşı doğuldu. Onun adını Zerah[b] qoydular.

### *Yusif və Potifarın arvadı*

39 1Yusif Misirə aparıldı. Fironun bir əyanı – mühafizəçilər

a **38:29** *Peres* – ibrani dilində *deşik açmaq.*

b **38:30** *Zerah* – ibrani dilində *qırmızı.*

Gen Lat:Azeri Bible Cyrillic 14.01.2009 15:53 Page 47



rəisi Misirli Potifar onu oraya gətirmiş İsmaillilərdən satın aldı. 2Rəbb Yusiflə idi və o, işlərində uğur qazanırdı. Yusif Misirli ağasının evində qalırdı. 3Ağası gördü ki, Rəbb onunladır və etdiyi hər işdə ona uğur verir.

4Yusif ağasının gözündə lütf tapdı və onun şəxsi xidmətçisi oldu. Ağası Yusifi evinə nəzarətçi təyin etdi və özünə məxsus olan hər şeyi onun ixtiyarına verdi. 5Evinin və özünə məxsus olan hər şeyin ixtiyarını ona verən vaxtdan bəri Rəbb Yusifə görə Misirlinin evinə bərəkət verdi, evində, tarlasında və özünə məxsus olan hər şeydə Rəbbin bərəkəti göründü. 6Ağası özünə məxsus olan hər şeyi Yusifin ixtiyarına vermişdi, yediyi yeməkdən başqa, evində olan heç nədən xəbəri yox idi. Yusif gözəl və yaraşıqlı idi.

7Bir müddət sonra ağasının arvadının Yusifə gözü düşüb dedi: «Gəl mənimlə yat». 8Ancaq Yusif bundan imtina edib ağasının arvadına dedi: «Mən burada olarkən ağam evində nə olduğunu bilmir və özünə məxsus olan hər şeyi mənim ixtiyarıma verib. 9Bu evdə isə hətta o məndən böyük deyil və səndən başqa heç bir şeyi məndən əsirgəmədi, çünki sən onun arvadısan. Bəs mən necə bu böyük pisliyi edib Allahın önündə günaha bata bilərəm?» 10Qadın hər gün bunu Yusifə deyirdi, Yusif isə onunla yatmağa, hətta birgə olmağa razı olmurdu.

11Bir gün Yusif öz işini görmək üçün evə girdi. İçəridə ev adamlarından heç kəs yox idi. 12Qadın «Mənimlə yat!» deyib onun paltarından tutdu. Yusif paltarını onun əlində qoyub qaçdı və bayıra çıxdı. 13Qadın onun paltarını əlində qoyub qaçdığını görəndə 14ev adamlarını çağırıb dedi: «Baxın, ağanız bu İbranini bizi təhqir etmək üçün yanımıza gətirib. O mənimlə yatmaq üçün yanıma gəldi, mən isə ucadan qışqırdım. 15O, səsimi ucaldıb qışqırdığımı görəndə paltarını yanımda qoyub qaçdı və bayıra çıxdı». 16Yusifin ağası evə gələnə qədər qadın onun paltarını özündə saxladı. 17Sonra ərinə də bu sözləri söyləyib dedi: «Bizə gətirdiyin bu İbrani qul məni təhqir etmək üçün yanıma gəldi. 18Səsimi ucaldıb qışqırdığım zaman paltarını yanımda qoyub bayıra qaçdı».

19Yusifin ağası arvadının «sənin qulun mənimlə belə rəftar etdi» sözlərini eşidəndə bərk qəzəbləndi. 20Ağası Yusifi götürüb padşahın məhbuslarının saxlanıldığı zindana təhvil verdi. Yusif zindanda qaldı. 21Ancaq Rəbb Yusiflə idi və ona xeyirxahlıq göstərdi. O, zindanın baş nəzarətçisinin gözündə lütf tapdı. 22Zindanın baş nəzarətçisi zindanda olan bütün məhbusları Yusifin ixtiyarına verdi. Orada görülən hər işə o başçılıq edirdi. 23Zindanın baş nəzarətçisi Yusifin ixtiyarında olan heç nəyə nəzarət etmirdi, çünki Rəbb Yusiflə idi və etdiyi hər işdə ona uğur verirdi.

### *Yusif məhbusların yuxusunu yozur*

40 1Bir müddət sonra Misir padşahının saqisi və çörəkçisi ağaları Misir padşahına qarşı günah etdilər. 2Firon bu iki əyanına – baş saqiyə və baş çörəkçiyə bərk qəzəbləndi 3və onları mühafizəçilər rəisinin evində – Yusifin məhbus olduğu zindanda saxladı. 4Mühafizəçilər rəisi Yusifi

---

**39:2,21** *Həv. 7:9-10*

Gen Lat:Azeri Bible Cyrillic 14.01.2009 15:53 Page 48



onlara xidmətçi təyin etdi və Yusif də
onlara xidmət etdi. Onlar bir müddət
zindanda qaldılar.

5Bir gün Misir padşahının zindanda
məhbus olan saqisi və çörəkçisi yuxu
gördülər. Hər ikisi bir gecədə müxtəlif
mənalı yuxular gördü. 6Səhər Yusif
onların yanına gəldi və kədərli old-
uqlarını gördü. 7Yusif onunla birgə
ağasının evində, zindanda olan firon
əyanlarından soruşdu: «Niyə bu gün
üzünüz kədərlidir?» 8Onlar Yusifə
dedilər: «Yuxu görmüşük, ancaq onu
yozan yoxdur». Yusif onlara dedi:
«Yuxu yozmaq Allahın işi deyilmi?
Onu mənə danışın».

9Baş saqi yuxusunu Yusifə danışıb
dedi: «Yuxumda gördüm ki, önümdə
bir üzüm tənəyi var. 10Tənəkdə üç
budaq var idi. Onlarda tumurcuqlar
görünüb çiçək açdı və salxımlar ye-
tişdi. 11Fironun piyaləsi mənim əlimdə
idi. Üzümləri götürüb fironun piyalə-
sinə sıxdım və piyaləni firona verdim».
12Yusif ona dedi: «Onun yozması
belədir: üç budaq üç gündür. 13Üç gün
ərzində firon səni yüksəldəcək. Sən də
onun saqisi olduğun vaxtdakı kimi
əvvəlki qaydaya görə fironun piyalə-
sini əlinə verəcəksən. 14Ancaq sənin
vəziyyətin yaxşılaşanda məni yadına
sal və xeyirxahlıq göstər. Haqqımda
firona danışıb məni bu yerdən çıxart.
15Doğrudan da, mən İbranilərin tor-
pağından oğurlanmışam və burada da
zindana salınmağa layiq bir iş görmə-
mişəm».

16Baş çörəkçi Yusifin yuxunu
yaxşılığa yozduğunu görüb ona dedi:
«Mən isə yuxuda gördüm ki, başımın
üstündə üç səbət ağ çörək var. 17Ən
üstdəki səbətdə çörəkçinin firon üçün
bişirdiyi hər cür çörək var. Quşlar
başımın üstündəki səbətdən onları
yeyirdi». 18Yusif belə cavab verdi:
«Onun yozması belədir: üç səbət üç
gündür. 19Üç gün ərzində firon sənin
başını bədənindən ayıracaq, özünü də
ağacdan asacaq və quşlar sənin ətini
didəcək».

20Üçüncü gün – fironun ad günü o
bütün əyanlarına ziyafət verdi. Baş
saqini və baş çörəkçini əyanlarının
önünə çıxartdı. 21Baş saqini saqiliyinə
qaytardı və o, piyaləni fironun əlinə
verdi, 22baş çörəkçini isə asdırdı; hər
şey Yusifin yozduğu kimi oldu.
23Ancaq baş saqi Yusifi yada salmadı
və onu unutdu.

### *Fironun yuxuları*

41 1İki il keçəndən sonra firon belə
bir yuxu gördü: o, Nil çayının
sahilində dayanmışdı. 2Çaydan yeddi
bəslənmiş və kök inək çıxdı. Onlar
qamışlıq içində otlamağa başladı.
3Onlardan sonra haldan düşmüş və
arıq olan başqa yeddi inək Nil çayın-
dan çıxdı. Onlar çayın sahilindəki
inəklərin yanında dayandılar. 4Haldan
düşmüş və arıq inəklər bəslənmiş və
kök olan yeddi inəyi yedilər. Onda
firon yuxudan oyandı.

5Sonra yatıb ikinci dəfə bu yuxunu
gördü: bir saplaqdan yeddi dolu və
yaxşı sünbül çıxdı. 6Onlardan sonra isə
cılız və şərq küləyindən yanmış yeddi
sünbül bitdi. 7Cılız sünbüllər yeddi
böyük və dolu sünbülü uddular. Onda
firon oyandı; bu bir yuxu idi.

8Səhəri gün onun ürəyi narahat
oldu. O xəbər göndərib Misirin bütün
sehrbazlarını və müdriklərini çağırdı.
Firon onlara öz yuxusunu danışdı,
ancaq onların arasında fironun
yuxusunu yozan bir adam tapılmadı.

Gen Lat:Azeri Bible Cyrillic 14.01.2009 15:53 Page 49



9Baş saqi firona belə söylədi: «Mən
bu gün öz günahımı yadıma saldım:
10bir dəfə firon qullarına qəzəbləndi və
mənimlə baş çörəkçini zindana,
mühafizəçilər rəisinin evinə saldı. 11Biz
bir gecə yuxu gördük, hər birimiz
müxtəlif mənalı yuxular gördük.
12Orada bizimlə birgə mühafizəçilər
rəisinin qulu olan bir İbrani gənc var
idi. Biz ona danışdıq, o da yuxula-
rımızı yozdu, hər birimizə yuxusunun
mənasını izah etdi. 13O bizə necə
yozmuşdusa, elə də oldu: mən öz
vəzifəmə qaytarıldım, baş çörəkçi isə
asıldı».

14Firon xəbər göndərib Yusifi ça-
ğırdı. Onu tez zindandan çıxartdılar.
O, başını qırxıb paltarlarını dəyişdi və
fironun hüzuruna gəldi. 15Firon
Yusifə dedi: «Bir yuxu görmüşəm,
ancaq onu yozan yoxdur. Mən sənin
barəndə eşitmişəm ki, yuxuları eşidib
yoza bilirsən». 16Yusif firona cavab
verdi: «Bu məndən deyil, Allah firo-
nun xeyrinə cavab verəcək». 17Firon
Yusifə dedi: «Yuxumda gördüm ki,
Nil çayının sahilində durmuşam.
18Çaydan kök və bəslənmiş yeddi inək
çıxdı. Onlar qamışlıq içində otlamağa
başladı. 19Onlardan sonra halsız, çox
cılız və arıq olan başqa yeddi inək
çıxdı. Bütün Misir ölkəsində bunlar
kimi cılız inək görməmişəm. 20Arıq və
cılız inəklər əvvəlki yeddi kök inəyi
yedilər. 21Kök inəklər onların qarınla-
rına girdiklərinə baxmayaraq, bu
bilinmirdi, onlar əvvəlki kimi arıq idi.
Onda oyandım. 22Yenə yuxumda
gördüm ki, bir saplaqdan yeddi dolu
və böyük sünbül çıxdı. 23Onlardan
sonra solğun, cılız və şərq küləyindən
yanmış yeddi sünbül bitdi. 24Cılız
sünbüllər yeddi dolu sünbülü uddular;
bunları sehrbazlara danışdım, ancaq
mənə cavab verən tapılmadı».

25Yusif firona dedi: «Fironun yuxu-
larının mənası eynidir. Allah etmək
istədiyi işi firona bildirdi. 26Yeddi
bəslənmiş inək yeddi ildir, yeddi dolu
sünbül də yeddi ildir; yuxuların mənası
eynidir. 27Onlardan sonra çıxan yeddi
arıq, cılız inək və şərq küləyindən
yanmış boş yeddi sünbül də yeddi ildir;
yeddi il aclıq olacaq. 28Firona demək
istədiyim sözlər bunlardır. Allah
etmək istədiyi işi firona göstərdi.
29Bütün Misir torpağında yeddi il
böyük bolluq olacaq. 30Bundan sonra
yeddi il aclıq olacaq. Misir ölkəsində
olan bütün bolluq yaddan çıxacaq və
aclıq ölkəni əldən salacaq. 31Ölkədəki
bolluq ondan sonra gələn aclıq
üzündən görünməyəcək, çünki aclıq
çox ağır olacaq. 32Firon yuxunu iki
dəfə görüb, çünki Allah belə qərara
gəlmişdir və tezliklə bu işi görəcək.
33Buna görə də firon ağıllı və müdrik
bir adam axtarsın, onu Misir ölkəsinə
başçı təyin etsin. 34Firon ölkədə
məmurlar qoymağı əmr etsin və yeddi
il bolluq zamanı Misir torpağının
məhsullarının beşdə birini yığsın.
35Qoy onlar uğurlu olan bu illərin
bütün məhsullarını toplasınlar. Taxılı
isə azuqə olaraq şəhərlərdə fironun
nəzarəti altında yığıb saxlasınlar. 36Bu
azuqə Misir torpağına gələn yeddi il
aclıq dövrü üçün ehtiyat olacaq, ta ki
ölkə əhalisi aclıqdan qırılmasın».

### *Yusifin Misirdə başçı olması*

37Bu sözlər fironun və onun əyanla-
rının xoşuna gəldi. 38Firon əyanlarına
dedi: «Bu adam kimi Allahın Ruhuna
malik olan bir kəs tapa biləcəyikmi?»
39Sonra firon Yusifə dedi: «İndi ki

Gen Lat:Azeri Bible Cyrillic 14.01.2009 15:53 Page 50



Allah sənə bütün bu şeyləri bildirdi,
deməli, sənin kimi ağıllı və müdrik
adam yoxdur. **40**Sən mənim saray
adamlarıma başçılıq edəcəksən və
bütün xalqım sənin əmrinlə idarə
olunacaq. Mən yalnız taxtda səndən
böyük olacağam». **41**Firon yenə Yusifə
dedi: «Səni bütün Misir ölkəsinə başçı
təyin edirəm». **42**Firon öz möhürünü
barmağından çıxarıb Yusifin barma-
ğına taxdı, ona incə kətan paltar
geyindirdi və boynuna qızıl zəncir
asdı. **43**Firon əmr etdi ki, onu özünün
ikinci arabasına mindirsinlər və qarşı-
sında «Diz çökün!» deyib bağırsınlar.
Beləcə o, Yusifi bütün Misir ölkəsinə
başçı qoydu. **44**Firon Yusifə dedi:
«Mən fironam. Bütün Misir ölkəsində
heç kəs sənsiz əlini yaxud ayağını
tərpətməyəcək». **45**Firon Yusifin adını
Safnat-Paneah qoydu və On şəhərinin
kahini Poti-Feranın qızı Asnatı ona
arvad olmaq üçün verdi. Yusif bütün
Misir ölkəsini gəzməyə çıxdı.

**46**Misir padşahı fironun hüzurunda
olarkən Yusif otuz yaşında idi. Yusif
fironun hüzurundan çıxıb bütün Misir
ölkəsini dolaşdı. **47**Yeddi bolluq ilində
torpaq qucaq-qucaq məhsul verdi.
**48**Yusif yeddi ildə Misir torpağında
yığılmış bütün məhsulu topladı. O,
məhsulu şəhərlərə qoydu. Hər şəhərin
ətrafında olan tarlada yetişən məhsulu
o şəhərdə saxladı. **49**Yusif dəniz qumu
qədər çox taxıl yığdı və daha onu
hesablamadı, çünki sayı-hesabı yox
idi.

**50**Aclıq illərindən qabaq Yusifin iki
oğlu oldu; onları Yusifə On kahini
Poti-Feranın qızı Asnat doğdu.
**51**Yusif ilk oğlunun adını Menaşşe[a]
qoydu, çünki demişdi: «Allah bütün
zəhmətimi və atamın evindəkilərin
hamısını mənə unutdurdu». **52**İkinci
oğlunun adını Efrayim[b] qoydu, çünki
demişdi: «Allah əziyyət çəkdiyim
torpaqda məni bəhərli etdi».

**53**Misir torpağında yeddi il bolluq
qurtardı. **54**Yusifin söylədiyi kimi
yeddi il aclıq başladı. Bütün ölkələrdə
aclıq oldu, lakin Misir torpağının hər
yerində ərzaq var idi. **55**Bütün Misir
əhalisi aclıq çəkəndə çörək üçün firona
fəryad etdi. Firon bütün Misirlilərə
dedi: «Yusifin yanına gedin, onun
dediyini edin». **56**Bütün yer üzündə
aclıq oldu. Yusif məhsul olan bütün
anbarları açıb Misirlilərə taxıl satırdı.
Misir torpağında aclıq gücləndi.
**57**Bütün ölkələrin adamları taxıl almaq
üçün Misirə, Yusifin yanına gəlirdilər,
çünki bütün yer üzündə şiddətli aclıq
idi.

### *Yusifin qardaşları Misirə gedir*

**42** **1**Yaqub öyrəndi ki, Misirdə
taxıl var. O öz oğullarına dedi:
«Nə üçün bir-birinizə baxırsınız?»
**2**Yenə dedi: «Mən eşitdim ki, Misirdə
taxıl var, gedib oradan bizim üçün
taxıl alın ki, ölməyib yaşayaq».
**3**Yusifin on qardaşı taxıl almaq üçün
Misirə getdi. **4**Ancaq Yaqub Yusifin
qardaşı Binyamini qardaşları ilə birgə
göndərmədi, çünki fikirləşirdi ki, onun
başına bir fəlakət gələ bilər. **5**Taxıl
almağa gələnlər arasında İsrailin oğul-
ları da var idi, çünki Kənan torpa-
ğında da aclıq hökm sürürdü.

**6**Yusif ölkənin başçısı idi və ölkənin
bütün əhalisinə də taxılı özü satırdı.
Yusifin qardaşları gəlib onun önündə

---

a **41:51** *Menaşşe* – ibrani dilində *unutduran.* b **41:52** *Efrayim* – ibrani dilində *bəhərli.*

**41:40** *Həv. 7:9-10* **41:54** *Həv. 7:11* **41:55** *Yəh. 2:5* **42:2** *Həv. 7:12*

Gen Lat:Azeri Bible Cyrillic 14.01.2009 15:53 Page 51



üzlərini yerə qoyub səcdə etdilər.
7Yusif qardaşlarını görüb tanıdı,
ancaq onlarla yad adam kimi rəftar
edərək sərt danışdı. Yusif onlardan
soruşdu: «Haradan gəlirsiniz?» Onlar
dedilər: «Ərzaq almaq üçün Kənan
torpağından gəlirik».

8Yusif qardaşlarını tanıdı, amma
onlar Yusifi tanımadılar. 9Yusif qar-
daşları barədə gördüyü yuxuları xa-
tırlayıb onlara dedi: «Siz casussunuz,
ölkənin zəif yerlərini öyrənmək üçün
gəlmisiniz». 10Qardaşları ona dedilər:
«Xeyr, ey ağamız, qulların yalnız
ərzaq almaq üçün gəliblər. 11Biz
hamımız bir adamın oğullarıyıq. Biz
təmiz adamlarıq, qulların casus deyil».
12Ancaq Yusif onlara dedi: «Xeyr, siz
ölkənin zəif yerlərini öyrənmək üçün
gəlmisiniz». 13Onlar dedilər: «Biz
qulların on iki qardaşıq və Kənan
torpağında bir adamın oğullarıyıq.
Kiçik qardaşımız indi atamızın ya-
nındadır, bir qardaşımız isə yoxa
çıxıb». 14Yusif onlara dedi: «Hər şey
mən dediyim kimidir: siz casussunuz,
15ancaq mən sizi belə yoxlayacağam:
fironun canına and olsun ki, kiçik
qardaşınız buraya gəlməsə, siz bura-
dan gedə bilməyəcəksiniz. 16Aranız-
dan bir nəfəri göndərin ki, qardaşınızı
gətirsin, siz isə burada saxlanacaqsı-
nız. Onda sizin düz deyib-demədiyiniz
bilinəcək. Yoxsa fironun canına and
olsun ki, siz casussunuz». 17Yusif üç
gün onları zindanda saxladı.

18Üçüncü gün Yusif onlara dedi:
«Dediyimə əməl edib canınızı qur-
tarın, çünki mən Allahdan qorxuram.
19Əgər siz təmiz adamsınızsa, qoy
qardaşlarınızdan biri həbs olundu-
ğunuz yerdə qalsın, siz isə gedib
ailələrinizi aclıqdan qurtarmaq üçün
taxıl aparın. 20Sonra kiçik qardaşınızı
mənim yanıma gətirin. Beləcə düz
dediyinizi biləcəyəm və canınızı qur-
taracaqsınız». Qardaşlar belə də
etdilər. 21Onlar bir-birlərinə dedilər:
«Doğrudan da, biz qardaşımızın qar-
şısında təqsirkarıq. O bizə yalvardığı
vaxt çəkdiyi əziyyəti gördük, ancaq
ona qulaq asmadıq. Buna görə də
başımıza bu bəla gəldi». 22Ruven
onlara belə cavab verdi: «Mən de-
mədimmi uşağa pislik etməyin, lakin
siz mənə qulaq asmadınız. İndi isə
onun qanına görə cəza çəkirik».
23Qardaşları Yusifin onları başa düş-
düyünü bilmirdilər, çünki onlar tərcü-
məçi vasitəsilə danışırdılar. 24Yusif
onların yanından kənara çəkilib ağla-
dı. Sonra qardaşlarının yanına qayıdıb
onlarla söhbət etdi. Aralarından
Şimeonu götürüb qardaşlarının gözü
qabağında onun əl-qolunu bağladı.
25Yusif əmr etdi ki, onların çuvalları
taxılla doldurulsun, hər birinin verdiyi
pul da öz çuvalına qoyulsun və onlara
yol üçün azuqə verilsin. Belə də edildi.

26Qardaşlar taxıllarını eşşəklərinin
belinə yükləyib oradan getdilər.
27Onlardan biri gecələdiyi yerdə eşşə-
yinə yem vermək üçün çuvalını açanda
öz pulunu gördü: pul çuvalın ağzında
idi. 28O, qardaşlarına dedi: «Pulum
özümə qaytarılıb, budur, o, çuvalımın
içindədir». Qardaşların ürəyi həyəcana
düşdü və onlar qorxa-qorxa bir-bir-
lərinə dedilər: «Allah bizim başımıza
nə iş gətirdi?»

29Onlar Kənan torpağına, ataları
Yaqubun yanına gəldilər və başlarına
gələn bütün hadisələri ona danışıb
dedilər: 30«O ölkənin başçısı olan

**42:9** *Yar. 37:5-10* **42:22** *Yar. 37:21-22*

Gen Lat:Azeri Bible Cyrillic 14.01.2009 15:53 Page 52



adam bizimlə sərt danışdı, bizi ölkəyə
gələn casuslar hesab etdi. 31Ona dedik:
“Biz təmiz adamlarıq, casus deyilik.
32Biz bir atanın oğulları, on iki
qardaşıq. Bir qardaşımız yoxa çıxıb,
biri də indi Kənan torpağında ata-
mızın yanındadır”. 33O ölkənin başçısı
olan adam bizə dedi: “Sizin təmiz
adam olduğunuzu bundan biləcəyəm:
qardaşlarınızdan birini yanımda
qoyub, ailələrinizi aclıqdan qurtarmaq
üçün taxıl götürərək gedin. 34Sonra
kiçik qardaşınızı yanıma gətirin. O
zaman sizin casus deyil, təmiz adam
olduğunuzu biləcəyəm. Onda qarda-
şınızı sizə təhvil verəcəyəm və ölkədə
alver edə bilərsiniz”».

35Qardaşlar çuvallarını boşaldar-
kən gördülər ki, hər kəsin çuvalında
pul kisəsi var. Özləri və onların atası
pul kisələrini görəndə qorxdular.
36Ataları Yaqub onlara dedi: «Siz
məni övladsız qoydunuz. Yusif yox,
Şimeon yox, Binyamini də apara-
caqsınız. Bütün bunları mənim başıma
gətirmək istəyirsiniz». 37Ruven atası-
na belə dedi: «Əgər onu sənin yanına
gətirməsəm, iki oğlumu öldürərsən.
Onu mənim ixtiyarıma ver, mən də
onu qaytarıb yanına gətirəcəyəm».

38Yaqub dedi: «Oğlum sizinlə get-
məyəcək, çünki onun qardaşı ölüb və
tək qalıb. Əgər getdiyiniz yolda onun
başına bir iş gəlsə, mənim ağ saçlı
başımı kədər içində ölülər diyarına
endirəcəksiniz».

### *Misirə ikinci səfər*

43 1Kənan torpağında aclıq güc-
lənmişdi. 2Qardaşların Misir-
dən gətirdiyi buğda yeyilib tükənəndə
ataları onlara dedi: «Yenə gedib bizə
bir az ərzaq alın».

3Yəhuda ona belə söylədi: «O adam
bizə ciddi xəbərdarlıq edib dedi ki,
əgər qardaşınız sizinlə gəlməsə, gö-
zümə görünməyin. 4Əgər sən qarda-
şımızı bizimlə göndərsən, gedib ərzaq
alarıq. 5Ancaq onu göndərməsən,
getməyəcəyik, çünki o adam bizə dedi
ki, qardaşınız sizinlə gəlməsə, gözümə
görünməyin». 6İsrail dedi: «Niyə o
adama daha bir qardaşınız olduğunu
bildirib mənə pislik etdiniz?» 7Onlar
dedilər: «O adam özümüz və ailəmiz
barədə dəfələrlə bizə belə suallar verdi:
“İndi atanız sağdırmı? Başqa qardaş-
larınız varmı?” Biz də onun bu sual-
larına cavab verdik. Ağlımıza gələrdi
ki, o bizə “qardaşınızı gətirin” deyə-
cək?» 8Sonra Yəhuda atası İsrailə
dedi: «Uşağı mənimlə göndər ki,
qalxıb gedək. Sən də, biz də, uşaq-
larımız da ölməyib sağ qalarıq. 9Mən
ona zamin dururam, onu məndən
tələb edərsən. Əgər onu sənin yanına
gətirib qarşında dayandırmasam, öm-
rüm boyu önündə təqsirkar olacağam.
10Çünki biz gecikməsəydik, indi ikinci
dəfə gedib-qayıdardıq».

11Ataları İsrail onlara dedi: «Əgər
belədirsə, bunu edin: torbalarınızda
bu torpağın ən yaxşı məhsullarından o
adama hədiyyə olaraq bir qədər
balzam, bal, ədviyyat, ətriyyat, püstə
və badam götürün. 12Özünüzlə iki qat
artıq pul götürün. Çuvallarınızın için-
də geri qaytarılmış pulu öz əllərinizlə
aparıb verin, bəlkə bir səhv olub.
13Qardaşlarınızı götürüb gedin və o
adamın yanına qayıdın. 14Külli-İxti-
yar Allah o adamda sizə qarşı mər-
həmət oyandırsın, o da digər qarda-
şınızı və Binyamini sizə təhvil versin.
Mən uşaqlarımdan məhrum olaca-
ğamsa, qoy olum».

Gen Lat:Azeri Bible Cyrillic 14.01.2009 15:53 Page 53



15Qardaşlar özləri ilə hədiyyə və iki
qat artıq pul götürdülər. Binyamini də
götürüb qalxdılar və Misirə gəlib
Yusifin önündə durdular. 16Yusif
Binyamini onlarla bərabər görəndə öz
ev nəzarətçisinə dedi: «Bu adamları
evə apar və heyvan kəsib hazırla,
çünki onlar mənimlə nahar edəcəklər».
17O adam Yusifin dediyinə əməl etdi:
bu adamları Yusifin evinə apardı.
18Bu adamlar Yusifin evinə aparıl-
dıqları üçün qorxub dedilər: «Keçən
dəfə çuvallarımızda geri qaytarılmış
pul üstündə bizi aparırlar. O istəyir ki,
bizə qarşı bəhanə tapıb üstümüzə
düşsün, bizi özünə qul etsin və eş-
şəklərimizi alsın». 19Onlar Yusifin ev
nəzarətçisinə yaxınlaşdılar və evin
astanasında ona belə söylədilər: 20«Ey
ağamız, keçən dəfə biz ərzaq almaq
üçün gəlmişdik. 21Ancaq gecələdiyimiz
yerə çatdığımız zaman çuvallarımızı
açıb gördük ki, hər birimizin pulu
çəkisi əskik olmayaraq çuvalımızın
içindədir. İndi onu öz əllərimizlə geri
qaytarırıq. 22Ərzaq almaq üçün
özümüzlə başqa pul da gətirmişik. O
pulu isə çuvallarımıza kimin qoydu-
ğunu bilmirik». 23Ev nəzarətçisi dedi:
«Narahat olmayın, qorxmayın. Özü-
nüzün və atanızın Allahı sizə çuval-
larınızda xəzinə verdi. Pulunuz mənə
gəlib çatdı». Sonra Şimeonu onların
yanına gətirdi. 24O adam qardaşları
Yusifin evinə gətirdi. Ayaqlarını yu-
maq üçün onlara su verdi və eşşək-
lərinə yem verdi. 25Qardaşlar Yusif
nahara gələnə qədər hədiyyəni hazır-
ladılar, çünki orada yemək yeyəcək-
lərini eşitdilər.

26Yusif evə gələndə onlar hədiyyəni
otağa gətirib təqdim etdilər, onun
önündə yerə qədər əyilib səcdə etdilər.
27Yusif onların kefini soruşub dedi:
«O dediyiniz qoca atanız salamat-
dırmı? Hələ də yaşayırmı?» 28Onlar
dedilər: «Sənin qulun atamız salamat-
dır, hələ də yaşayır». Onlar Yusifə
əyilib səcdə etdilər.

29Yusif başını qaldıranda öz ana-
sının oğlu olan qardaşı Binyamini
görüb dedi: «Mənə söylədiyiniz kiçik
qardaşınız budurmu?» Sonra Binya-
minə dedi: «Ey oğlum, Allah sənə lütf
etsin». 30Yusif tələsik oradan çıxdı,
çünki qardaşını görəndə ürəyi sızılda-
dı, onu ağlamaq tutdu və otağa girib
orada ağladı. 31Sonra üzünü yuyub
çıxdı, özünə gəlib dedi: «Yemək
gətirin». 32Yeməyi ona ayrıca, qardaş-
larına ayrıca, onunla birgə yeyən
Misirlilərə isə ayrıca qoydular, çünki
Misirlilər İbranilərlə birgə yemək
yeməzdilər; bu, Misirlilər üçün iyrənc
bir şey idi. 33Qardaşlar böyük-kiçik-
liyinə görə Yusifin hüzurunda oturdu-
lar. Onlar bir-birlərinə baxıb çaşdılar.
34Yusifin önündəki yeməklərdən
onlara pay ayrıldı. Ancaq Binyaminin
payı onların hər birinin payından beş
qat artıq idi. Onlar yeyib-içdilər və
onunla bərabər xoş vaxt keçirdilər.

### *Yusifin itmiş kasası*

44 1Yusif öz ev nəzarətçisinə əmr
edib dedi: «Bu adamların çu-
vallarını gücləri çatana qədər ərzaqla
doldur və hər kəsin pulunu öz çuva-
lının ağzına qoy. 2Kiçiyinin çuvalının
ağzına isə mənim gümüş kasamı və
taxıl əvəzinə verilən pulu qoy». O,
Yusifin dediyi sözə əməl etdi. 3Səhər
açılanda bu adamları eşşəkləri ilə birgə
yola saldılar. 4Onlar hələ şəhərdən
uzaqlaşmamışdı ki, Yusif öz ev nə-
zarətçisinə dedi: «Qalx o adamların

Gen Lat:Azeri Bible Cyrillic 14.01.2009 15:53 Page 54



dalınca get və onlara çatdığın zaman
belə söylə: “Nə üçün yaxşılığa pisliklə
cavab verdiniz? 5Bu kasa ağamın
içdiyi və onunla baxıcılıq etdiyi kasa
deyilmi? Siz çox pis iş tutdunuz”».

6Ev nəzarətçisi onlara çatdı və bu
sözləri söylədi. 7Qardaşlar ona dedilər:
«Nə üçün ağam belə sözlər söyləyir?
Bu iş qullarından uzaq olsun. 8Biz
çuvalımızın içində tapdığımız pulu
Kənan torpağından sənə geri qaytar-
dıq. Ağanın evindən necə qızıl yaxud
gümüş oğurlaya bilərik? 9Qoy bu şey
qullarından kimdə tapılsa, o adam
öldürülsün və biz də ağamıza qul
olaq». 10O dedi: «Yaxşı, qoy siz deyən
kimi olsun: bu kimin yanında tapılsa,
o mənə qul olsun, qalanlarınız isə
təqsirkar olmayacaqsınız». 11Onların
hər biri tələsik çuvalını yerə endirdi və
çuvalının ağzını açdı. 12Ev nəzarətçisi
böyükdən başlayıb kiçiyə qədər onları
axtardı və kasa Binyaminin çuvalın-
dan tapıldı. 13Qardaşlar paltarlarını
cırdılar və hər biri eşşəyini yükləyib
şəhərə qayıtdı.

14Yəhuda qardaşları ilə birgə
Yusifin evinə gəldi. O hələ də orada
idi. Onlar Yusifin önündə yerə qapan-
dılar. 15Yusif onlara dedi: «Bu nə
işdir, görmüsünüz? Güman etmədiniz
ki, mənim kimi bir adam baxıcılıq edə
bilər?» 16Yəhuda dedi: «Ağama nə
deyim, nə söyləyim? Özümüzü necə
təmizə çıxara bilərik? Allah öz qulla-
rında təqsir gördü. İndi biz də, ya-
nında kasa tapılan adam da ağamızın
quluyuq». 17O dedi: «Yox, mən belə
etməyəcəyəm. Yalnız yanında kasa
tapılan adam mənə qul olacaq, siz isə
sağ-salamat atanızın yanına gedin».

18Yəhuda ona yaxınlaşıb dedi: «Ey
ağam, xahiş edirəm ki, qulunun dediyi
sözlərə qulaq as və quluna qarşı
qəzəbin alovlanmasın, çünki sən firon
kimi bir adamsan. 19O zaman ağam
qullarından “Sizin atanız yaxud
qardaşınız varmı?” deyə soruşanda
20biz ağamıza söyləmişdik: “Bizim bir
qoca atamız və onun da ixtiyar
çağında doğulan bir kiçik uşağı var.
Onun bir qardaşı öldü, anasından
doğulan yalnız o qaldı. Atası onu çox
sevir”. 21Sən qullarına demişdin:
“Onu mənim yanıma gətirin ki, öz
gözümlə görüm”. 22Biz də ağamıza
demişdik: “Uşaq atasından ayrıla
bilməz, çünki atasından ayrılsa, atası
ölər”. 23Amma sən qullarına demiş-
din: “Əgər kiçik qardaşınız sizinlə gəl-
məsə, bir daha gözümə görünməyin”.
24Sənin qulun atamın yanına gəldi-
yimiz zaman ağamızın sözlərini ona
çatdırdıq. 25Atamız dedi: “Yenə ge-
din, bizə bir az ərzaq alıb gətirin”.
26Biz dedik: “Gedə bilmərik. Kiçik
qardaşımız bizimlə getsə, gedərik,
kiçik qardaşımız bizimlə getməsə, o
adamın gözünə görünə bilmərik”.
27Sənin qulun atam bizə dedi:
“Bilirsiniz ki, arvadım mənə iki oğul
doğdu. 28Bir oğlum yanımdan getdi və
dedim ki, onu yəqin vəhşi bir heyvan
parçalayıb; indiyə qədər o oğlumu
görməmişəm. 29Bu oğlumu da yanım-
dan aparsanız və onun başına bir iş
gəlsə, ağ saçlı başımı kədər içində
ölülər diyarına endirəcəksiniz”. 30İndi
sənin qulun atamın yanına qayıtdığım
zaman uşaq bizimlə olmasa və ürəyi
bütün sevgisi ilə uşağa bağlanan
atamız 31onu görməsə, ölər. Onda biz
qulların qulun atamızın ağ saçlı başını
kədər içində ölülər diyarına endirərik.
32Mən qulun, atama uşaq üçün zamin
durub dedim: “Əgər onu sənin yanına

Gen Lat:Azeri Bible Cyrillic 14.01.2009 15:53 Page 55



gətirməsəm, atamın önündə ömrüm
boyu təqsirkar olacağam”. **33**İndi
xahiş edirəm, qoy uşağın əvəzinə mən
ağama qul olmaq üçün qalım, uşaq isə
qardaşlarımla birgə getsin. **34**Çünki o
mənimlə olmasa, necə atamın yanına
gedə bilərəm? Onda mən atamın
başına fəlakət gəldiyini görərəm».

### *Yusifin özünü tanıtması*

**45** **1**Yusif yanında duranların
hamısının önündə özünü saxla-
ya bilməyib qışqırdı: «Hamını yanım-
dan çıxarın». Yusif özünü qardaş-
larına tanıtdığı zaman yanında heç kəs
yox idi. **2**O hönkürüb ağladı. Misirlilər
və fironun saray adamları eşitdilər.

**3**Yusif qardaşlarına dedi: «Mən
Yusifəm. Atam hələ sağdırmı?» Qar-
daşları ona cavab vermədilər, çünki
çaşıb qalmışdılar. **4**Yusif qardaşlarına
dedi: «Mənə yaxın gəlin». Onlar yaxın
gəldilər. Yusif dedi: «Misirə satdığınız
qardaşınız Yusif mənəm. **5**İndi məni
buraya satdığınız üçün kədərlənməyin
və təəssüflənməyin, çünki Allah hə-
yatınızı qorumaq üçün məni sizdən
qabaq buraya göndərdi. **6**Artıq iki
ildir ki, ölkədə aclıqdır, hələ beş il də
əkin-biçin olmayacaq. **7**Allah məni
sizdən qabaq buraya göndərdi ki, sizi
yer üzündə saxlasın və böyük bir
qurtuluşla həyatınızı qorusun. **8**Ona
görə də məni buraya göndərən siz
deyilsiniz, Allahdır. O məni firona ata,
onun bütün saray adamlarına ağa,
bütün Misir ölkəsinə isə başçı etdi.
**9**Tez atamın yanına gedib ona söyləyin
ki, oğlun Yusif belə deyir: “Allah məni
bütün Misir ölkəsinə ağa etdi. Daha
durma, yanıma gəl. **10**Qoşen vilayə-
tində yaşayarsan. Özün, oğulların,
nəvələrin, qoyun-keçin, mal-qaran –
sənin hər şeyin mənə yaxın olar.
**11**Orada sənin qayğına qalaram, çünki
daha beş il aclıq olacaq. Yoxsa özün,
ailən və bütün yaxın adamların
yoxsulluq çəkəcək”. **12**İndi sizin və
qardaşım Binyaminin gözləri görür ki,
bu sözləri dilimlə sizə deyirəm.
**13**Misirdə sahib olduğum böyük izzəti
və bütün gördüklərinizi atama bildirin
və tezliklə atamı buraya gətirin».
**14**Yusif qardaşı Binyaminin boynuna
sarılıb ağladı, Binyamin də onun
boynuna sarılıb ağladı. **15**Yusif bütün
qardaşlarını öpdü və onların boynuna
sarılıb ağladı. Bundan sonra qardaş-
ları onunla söhbət etdilər.

**16**Yusifin qardaşlarının gəlməsi
barədə fironun sarayına xəbər çatdı.
Bu xəbər fironun və onun əyanlarının
xoşuna gəldi. **17**Firon Yusifə dedi:
«Qardaşlarına söylə ki, belə etsinlər:
heyvanlarınızı yükləyin və yola düşüb
Kənan torpağına gedin. **18**Atanızı və
ev adamlarınızı götürüb yanıma gəlin.
Sizə Misir ölkəsində ən yaxşı torpağı
verəcəyəm, torpağın şirəsini yeyəcək-
siniz. **19**Sənə isə əmr olunur ki, onlara
söyləyəsən: “Belə edin: arvad-uşağınız
üçün Misir ölkəsində özünüzə arabalar
alın və atanızı gətirib gəlin”. **20**Orada
qalan şeylərinizdə gözünüz qalmasın,
çünki bütün Misir torpağının ən yaxşı
şeyləri sizindir».

**21**İsrailin oğulları belə də etdilər.
Yusif fironun əmri ilə onlara arabalar
və yol üçün azuqə verdi. **22**Onların hər
birinə bir dəst paltar verdi, Binyaminə
isə üç yüz parça gümüş və beş dəst
paltar verdi. **23**Yusif atası üçün Misirin
ən yaxşı şeyləri ilə yüklənmiş on eşşək,
yol üçün taxıl, çörək və azuqə yük-

**45:1-3** *Həv. 7:13* **45:9-11** *Həv. 7:14* **46:6-7** *Həv. 7:15* **46:20** *Yar. 41:50-52*

Gen Lat:Azeri Bible Cyrillic 14.01.2009 15:53 Page 56



lənmiş on dişi eşşək göndərdi. [24]O,
qardaşlarını yola saldı və onlar get-
dilər. Yusif onlara dedi: «Yolda dava
etməyin». [25]Onlar Misirdən çıxıb Kə-
nan torpağına, ataları Yaqubun
yanına gəldilər. [26]Ona hər şeyi danışıb
dedilər: «Yusif sağ-salamatdır, özü də
bütün Misir ölkəsinə başçılıq edir».
Yaqub heyrətlənib qaldı və onlara
inanmadı. [27]Qardaşlar Yusifin onlara
dediyi bütün sözləri ona söylədilər.
Onu aparmaq üçün Yusifin göndərdiyi
arabaları görəndə ataları Yaqubun
ürəyi ruhlandı. [28]İsrail dedi: «İndi
inandım ki, oğlum Yusif sağ-salamat-
dır. Qoy ölməmişdən qabaq gedib onu
görüm».

### *Yaqubun Misirə getməsi*

46 [1]İsrail özünə məxsus hər şeyi
ilə birgə yola çıxdı. Beer-
Şevaya gəlib atası İshaqın Allahına
qurbanlar kəsdi. [2]Gecə görüntülərində
Allah İsraili çağırdı: «Yaqub! Ya-
qub!» Yaqub cavab verdi: «Mən bura-
dayam». [3]Allah dedi: «Mən Allaham,
atanın Allahıyam. Misirə getməkdən
qorxma, çünki orada səndən böyük bir
millət törədəcəyəm. [4]Mən də səninlə
birgə Misirə gedəcəyəm. Səni yenə
oradan çıxaracağam. Yusif öz əli ilə
sənin gözlərini bağlayacaq».

[5]Yaqub Beer-Şevadan çıxdı. İsra-
ilin oğulları ataları Yaqubu və arvad-
uşaqlarını fironun Yaqubu aparmaq
üçün göndərdiyi arabalara mindirdi-
lər. [6]Yaqub və onun bütün övladları
heyvanlarını və Kənan torpağında
əldə etdikləri hər şeyi götürüb Misirə
gəldilər. [7]O özü ilə birgə oğullarını və
qızlarını, oğul nəvələrini və qız nəvə-
lərini – bütün övladlarını Misirə gə-
tirdi.

[8]İsrailin Misirə gələn oğullarının –
Yaqubla oğullarının adları belədir:

Yaqubun ilk oğlu Ruven. [9]Ruvenin
oğulları: Xanok, Pallu, Xesron və
Karmi. [10]Şimeonun oğulları: Yemuel,
Yamin, Oxad, Yakin, Sohar və bir
Kənanlı qadından doğulan Şaul.
[11]Levinin oğulları: Gerşon, Qohat və
Merari. [12]Yəhudanın oğulları: Er,
Onan, Şela, Peres və Zerah. Ancaq Er
və Onan Kənan ölkəsində öldülər.
Peresin oğulları: Xesron və Xamul.
[13]İssakarın oğulları: Tola, Puvva, Yov
və Şimron. [14]Zevulunun oğulları:
Sered, Elon və Yaxleel. [15]Bunlar Ya-
qubun Leadan doğulan övladlarıdır.
Lea onları və qızı Dinanı Paddan-
Aramda doğdu. Yaqubun oğul və qız
övladları cəmi otuz üç nəfər idi.

[16]Qadın oğulları: Sifyon, Haqqi,
Şuni, Esbon, Eri, Arodi və Areli.
[17]Aşerin oğulları: İmna, İşva, İşvi,
Beria və onların bacısı Serah. Berianın
oğulları: Xever və Malkiel. [18]Bunlar
Lavanın qızı Leaya verdiyi Zilpadan
doğulan Yaqub övladlarıdır. Onlar on
altı nəfər idi.

[19]Yaqubun arvadı Rəhilənin oğul-
ları: Yusif və Binyamin. [20]Yusifin
Misirdə On şəhərinin kahini Poti-
Feranın qızı Asnatdan Menaşşe və
Efrayim adlı iki oğlu oldu. [21]Bin-
yaminin oğulları: Bela, Beker, Aşbel,
Gera, Naaman, Exi, Roş, Muppim,
Xuppim və Ard. [22]Bunlar Yaqubun
Rəhilədən doğulan övladlarıdır. Onlar
on dörd nəfər idi.

[23]Danın oğlu Xuşim. [24]Naftalinin
oğulları: Yaxseel, Quni, Yeser, Şillem.
[25]Bunlar Lavanın qızı Rəhiləyə verdiyi
Bilhadan doğulan Yaqub övladlarıdır.
Onlar cəmi yeddi nəfər idi.

[26]Yaqubun oğullarının arvadların-

Gen Lat:Azeri Bible Cyrillic 14.01.2009 15:53 Page 57



dan başqa, Yaqubun nəslindən olan
və onunla Misirə gələn övladları altmış
altı nəfər idi. 27Yusifin Misirdə do-
ğulan iki oğlu ilə birlikdə Misirə köçən
Yaqubun ailəsində yetmiş nəfər var
idi.

### *Yaqub oğullarının Qoşendə sakin olması*

28Yaqub Qoşen yoluna bələdçilik
etmək üçün özündən əvvəl Yəhudanı
Yusifin yanına göndərdi. Onlar Qoşen
torpağına girəndə 29Yusif arabasını
hazırlayıb Qoşenə atası İsraili qarşı-
lamağa getdi. Özünü atasına tanıtdırıb
onun boynuna sarıldı və uzun müddət
onu qucaqlayıb ağladı. 30İsrail Yusifə
dedi: «İndi ölə bilərəm, çünki üzünü
gördüm. Sən sağ-salamatsanmış».
31Yusif qardaşlarına və atasının ailə-
sinə dedi: «Qoy gedim firona xəbər
verim ki, Kənan torpağında yaşayan
qardaşlarımla atamın ailəsi yanıma
gəliblər. 32Onlar sürü sahibi olan
çobanlardır. Ona görə də qoyun-
keçiləri, mal-qaraları və bütün şeyləri
ilə birlikdə gəliblər. 33Firon sizi çağırıb
"Nə işin sahibisiniz?" deyə soruşsa,
34deyin: "Atalarımız kimi biz də
uşaqlıqdan bəri heyvandarlıqla məş-
ğuluq". Belə deyin ki, qoy sizi Qoşen
vilayətində yerləşdirsin, çünki Misirli-
lər çobanlardan iyrənirlər».

47 1Yusif fironun yanına daxil
olub dedi: «Kənan torpağın-
dan atam və qardaşlarım qoyun-ke-
çiləri, mal-qaraları və özlərinə məxsus
hər şeyləri ilə birgə buraya gəliblər və
indi Qoşen vilayətindədirlər». 2Sonra
qardaşları arasından beşini götürüb
fironun hüzuruna gətirdi. 3Firon
Yusifin qardaşlarına dedi: «Nə işin
sahibisiniz?» Onlar firona dedilər:
«Biz qulların, atalarımız kimi çobanıq.
4Bu ölkəyə müvəqqəti yaşamaq üçün
gəlmişik, çünki Kənan torpağında
dəhşətli aclıq hökm sürür. Sürülərimiz
üçün otlaq yox idi. İndi xahiş edirik ki,
Qoşen vilayətində yaşamağa izin
verəsiniz». 5Firon Yusifə dedi:
«Atanla qardaşların yanına gəliblər.
6Misir torpağı sənin önündədir: atanla
qardaşlarını bu torpağın ən yaxşı
yerlərində yerləşdir. Qoy Qoşen vila-
yətində yaşasınlar. Aralarında hansı
bacarıqlıdırsa, onu mənim sürülərimə
çoban qoy».
7Yusif atası Yaqubu götürüb firo-
nun hüzuruna gətirdi. Yaqub firona
xeyir-dua verdi. 8Firon Yaqubdan
soruşdu: «Neçə yaşın var?» 9Yaqub
firona cavab verdi: «Ömrümün yüz
otuz ilini qürbətdə keçirdim, amma
ömrüm az və ağır oldu, atalarımın
qürbətdəki ömrü qədər uzun olmadı».
10Sonra firona xeyir-dua verib onun
hüzurundan çıxdı.
11Yusif atası ilə qardaşlarını Misir-
də yerləşdirdi və fironun əmrinə əsasən
onlara ölkənin ən yaxşı yerində –
Ramses bölgəsində mülk verdi. 12Bun-
dan əlavə, Yusif atasına, qardaşlarına
və atasının ailəsinə malik olduqları
uşaqların sayına görə çörək saxladı.

### *Aclıq güclənir*

13Aclıq getdikcə o qədər gücləndi
ki, heç bir ölkədə çörək tapılmadı.
Misir və Kənan ölkələrinin əhalisini
aclıq taqətdən salmışdı. 14Yusif satdığı
taxılın əvəzində Misir və Kənan ölkə-
lərində yığılan bütün pulları toplayıb
fironun sarayına apardı. 15Misir və
Kənan ölkələrində pul qurtaranda

**46:27** *Həv. 7:14*

Gen Lat:Azeri Bible Cyrillic 14.01.2009 15:53 Page 58



bütün Misirlilər Yusifin yanına gəlib
dedilər: «Bizə çörək ver. Gərək qar-
şında ölək? Axı pulumuz qurtarıb».
**16**Yusif dedi: «Onda heyvanlarınızı
verin. Əgər pulunuz qurtarıbsa, hey-
vanlarınızı verin, onların əvəzinə sizə
çörək verərəm». **17**Onlar heyvanlarını
Yusif üçün gətirdilər. Yusif də atların,
qoyun-keçi və mal-qara sürülərinin,
eşşəklərin əvəzinə onlara çörək verdi.
Həmin il onları heyvanları əvəzinə
verdiyi çörəklə saxladı.

**18**İl başa çatanda ikinci il yenə onun
yanına gəlib dedilər: «Ağamızdan gizli
deyil ki, pulumuz qurtarıb, heyvan
sürülərimiz də ağamızındır. Ağamızın
hüzurunda canımız və torpaqlarımız-
dan başqa bir şeyimiz qalmadı. **19**Nə
üçün gözünün önündə torpağımızla
bərabər məhv olaq? Bizi və torpaq-
larımızı çörək əvəzinə satın al. Qoy
firon bizim də, torpaqlarımızın da
sahibi olsun. Toxum ver ki, ölməyib
yaşaya bilək, həm də torpağımız
səhraya çevrilməsin».

**20**Beləliklə, Yusif Misirin bütün
torpaqlarını firon üçün satın aldı.
Bütün Misirlilər öz zəmilərini satdılar,
çünki aclıqdan əzab çəkirdilər. Bütün
torpaqlar fironun oldu. **21**Yusif Misir
ərazisinin bir ucundan o biri ucuna
qədər bütün əhalisini şəhərlərə köçür-
dü. **22**Yalnız kahinlərin torpağını satın
almadı, çünki onlar firondan məvacib
alır və fironun verdiyi məvaciblə do-
lanırdılar. Buna görə də torpaqlarını
satmadılar.

**23**Yusif xalqa dedi: «Sizi də, torpaq-
larınızı da firon üçün satın almışam.
Alın, bu sizin toxumunuz, torpağı
əkin. **24**Məhsul yığılanda onun beşdə
birini firona verin. Beşdə dördünü isə
toxumluq olaraq istifadə edin. Həm
özünüz, həm külfətiniz, həm də öv-
ladlarınız yesin».

**25**Xalq isə dedi: «Sən bizim canımızı
qurtardın. Qoy ağamızın gözündə lütf
tapaq, biz fironun köləsi oluruq».
**26**Yusif məhsulun beşdə birinin firona
verilməsi barədə Misirdə bir torpaq
qanunu qoydu. Bu qanun bu günə
qədər qüvvədədir. Yalnız kahinlərin
torpaqları firona verilmədi.

### *İsrailin son sözü*

**27**İsrailin nəsli Misirdəki Qoşen
vilayətində yaşayaraq orada mülk
sahibi oldu. Onlar artaraq çoxaldılar.
**28**Yaqub Misir torpağında on yeddi il
yaşadı. O, yüz qırx yeddi il ömür
sürdü. **29**İsrailin öləcəyi gün yaxınla-
şanda oğlu Yusifi çağırıb dedi: «Əgər
gözündə lütf tapmışamsa, əlini budu-
mun altına qoy və and iç ki, xeyir-
xahlıq və sədaqət göstərib məni
Misirdə basdırmayacaqsan, **30**ancaq
atalarımla birgə uyumaq üçün öləndə
məni Misirdən aparıb onların məqbə-
rəsində basdıracaqsan». Yusif dedi:
«Dediyin kimi edərəm». **31**Atası dedi:
«Mənə and iç». O da and içdi. İsrail
yatağının başına[a] söykənib Allaha
səcdə etdi.

### *Yaqubun Efrayimə və Menaşşeyə xeyir-dua verməsi*

**48** **1**Bir müddət sonra Yusifə
dedilər: «Atan xəstədir». O, iki
oğlunu – Menaşşe və Efrayimi özü ilə
götürdü. **2**Yaquba xəbər verib dedilər:
«Budur, oğlun Yusif yanına gəlir».
İsrail gücünü toplayıb yatağı üstündə

---

a **47:31** *Yatağının başına* – yaxud *dəyənəyinin başına.*
**47:29-30** *Yar. 49:29-32; 50:6* **47:31** *İbr. 11:21*

Gen Lat:Azeri Bible Cyrillic 14.01.2009 15:53 Page 59



oturdu. 3Yaqub Yusifə dedi: «Külli-İxtiyar Allah Kənan torpağında olan Luzda mənə göründü və xeyir-dua verdi. 4O mənə belə dedi: “Bax Mən səni bəhərli edib nəslini çoxaldacağam, səndən çoxlu xalq törədəcəyəm. Səndən sonra bu torpağı övladlarına əbədi mülk olaraq verəcəyəm”. 5İndi sənin yanına, Misirə gəlməzdən əvvəl Misir torpağında doğulan iki oğlun da mənimdir: Efrayim və Menaşşe Ruvenlə Şimeon kimi mənimki olacaq. 6Onlardan sonra sənin üçün doğulan uşaqlar isə səninki olacaq, öz miras torpaqlarında qardaşlarının adları ilə qeyd olunacaq. 7Mən Paddandan gələndə Kənan torpağında Efrata yaxın yerdə Rəhilə yanımdaca öldü. Onu elə orada – Efrat yolunda, yəni Bet-Lexemdə basdırdım».

8İsrail Yusifin oğullarını görüb dedi: «Bunlar kimdir?» 9Yusif atasına dedi: «Allahın burada mənə verdiyi oğullarımdır». İsrail dedi: «Onları yanıma gətir, xeyir-dua verim». 10İsrail artıq qocalmış, gözləri zəifləmişdi və görə bilmirdi. O, nəvələrini özünə yaxınlaşdırdı və öpüb qucaqladı. 11Sonra İsrail Yusifə dedi: «Düşünmürdüm ki, üzünü bir də görərəm, amma Allah mənə sənin övladlarını da göstərdi». 12Yusif övladlarını atasının dizləri yanından kənara çəkib onun qarşısında üzünü yerə qoyaraq səcdə etdi. 13Sonra oğullarını götürüb Efrayimi sağ əli ilə İsrailin sol tərəfinə, Menaşşeni isə sol əli ilə İsrailin sağ tərəfinə çəkərək ona yaxınlaşdırdı. 14İsrail əllərini çarpaz uzatdı: sağ əlini kiçik olan Efrayimin, sol əlini isə Menaşşenin başına qoydu. Menaşşe ilk oğul olduğuna baxmayaraq, İsrail əllərini qəsdən dəyişdi. 15İsrail Yusifə xeyir-dua verərək belə dedi:

«Atalarım İbrahimin, İshaqın
xidmət etdiyi Allah,
Bu günə qədər mənim qayğıma
qalan Allah,
16Məni bütün pisliklərdən xilas edən
Mələk
Qoy bu uşaqlara da xeyir-dua
versin!
Onlar mənim adımla,
Atalarım İbrahim və İshaqın
Adı ilə çağırılsın,
Yer üzündə çoxaldıqca çoxalsın!»

17Yusif atasının sağ əlini Efrayimin başına qoyduğunu gördü və bu onun xoşuna gəlmədi. O, atasının əlini Efrayimin başından götürüb Menaşşenin başına qoymaq istədi. 18Buna görə də atasına dedi: «Ata, ilk oğul Menaşşedir, sağ əlini onun başına qoy. Belə düz deyil». 19Lakin atası istəməyib dedi: «Bilirəm, oğlum, bilirəm. Menaşşenin nəslindən də böyük bir xalq olacaq. Amma kiçik qardaşından daha böyük bir xalq törəyəcək, onun nəslindən çoxlu millətlər yaranacaq». 20O gün İsrail nəvələrinə xeyir-dua verərək dedi:

«İsrail nəsli
“Qoy Allah səni
Efrayim və Menaşşe kimi etsin”
Deyərək sizin adınızla
Xeyir-dua verəcək».

Yaqub beləcə Efrayimi Menaşşedən üstün tutdu. 21İsrail Yusifə dedi: «Artıq mən ölürəm, amma Allah sizinlə olacaq, sizi atalarınızın torpağına qaytaracaq. 22Sənə qardaşlarından bir pay da artıq olaraq Şekemi verirəm. Onu mən Emorluların əlindən qılıncım və kamanımla almışam».

**48:3-4** *Yar. 28:13-14* **48:7** *Yar. 35:16-19* **48:20** *İbr. 11:21*

Gen Lat:Azeri Bible Cyrillic 14.01.2009 15:53 Page 60



### *Yaqubun oğullarına xeyir-duası*

49 1Yaqub oğullarını çağırıb
dedi: «Yanıma toplaşın, gələ-
cəkdə başınıza gələnləri sizə söyləyim:
2Ey Yaqub oğulları, yığılıb eşidin,
Atanız İsrailə qulaq asın:

3Ey Ruven, ilk oğlum,
Gücümün və qüdrətimin mənbəyi
sənsən.
Ləyaqətin hamıdan üstündür,
Qüvvətin hamıdan çoxdur.
4Amma sən su kimi oynaqsan,
Artıq üstün olmayacaqsan.
Çünki atanın yatağına girib
Onu murdar etdin,
Sən döşəyimə çıxdın.

5Şimeonla Levi qardaşdır,
Qəddarlıq qılıncları ilə
silahlanıblar.
6Ey qəlbim, onların məclisinə
getmə,
Ey şərəfim, onların toplantısında
olma.
Çünki onlar qəzəblənəndə qətl
etdilər,
Əylənəndə öküzlərin ayaq vətərini
kəsdilər.
7Lənət olsun vəhşi qəzəblərinə,
Lənət olsun qəddar hiddətlərinə.
Onları Yaqubda ayıracağam,
İsraildə səpələyəcəyəm.

8Yəhuda, qardaşların səni mədh
edəcək,
Düşmənlərin boynu əlində olacaq,
Atanın oğulları önündə səcdə
edəcək.
9Yəhuda bir aslan balasıdır,
Ey oğlum, sən şikara çıxanda
Bir şir kimi yerə əyilirsən,
Dişi aslan kimi torpağa yatırsan.
Kim səni yerindən qaldıra bilər?
10Padşahlıq əsası
Yəhudanın əlindən getməyəcək,
Hökmdarlıq əsası onun nəslindən
itməyəcək;
O vaxta qədər ki əsanın Sahibi[a]
gələcək.
Onda xalqlar Ona itaət edəcək.
11Eşşəyini tənəyə,
Ulağını ən seçmə bir tənəyə
bağlayacaq.
Paltarını şərabda,
Köynəyini üzümün qızıl qanında
yuyacaq.
12Gözləri şərabdan da parlaq olacaq,
Dişləri süddən də ağ olacaq.

13Zevulun isə dəniz kənarında
yaşayacaq,
Ora gəmilərin limanı olacaq,
Ərazisi Sidonun yanınadək
uzanacaq.

14Qoyun ağılları arasında yatan
İssakar
Bir qüvvətli ulağa oxşar.
15O, yaxşı və rahat olan yer,
Bir səfalı ölkə görsə,
Çiynini yük daşımaq üçün əyər,
Mükəlləfiyyətçi qul olar.

16Dan İsrail qəbilələrindən biri olub
Öz xalqına hökm edəcək.
17Dan yol üstündə bir ilan,
Cığırda bir gürzə olacaq;
Elə bir gürzə ki atın topuğundan
sancır,
Süvarisi arxası üstə yıxılır.
18Ya Rəbb! Mən Sənin xilasını
gözləyirəm.

---

a **49:10** *Əsanın Sahibi* – ibrani mətnində *Şilo* sözü olub mənası tam aydın deyil.
**49:9** *Say. 24:9; Vəhy 5:5*

19Qad talançı basqınına düçar olacaq,
Lakin onları topuğundan vuracaq.

20Aşerdən zəngin nemətlər gələcək,
O, şahanə ləzzətli yeməklər
yetirəcək.

21Naftali azad edilmiş bir maraldır,
Ondan gözəl balalar doğulacaq.

22Yusif barlı bir ağac,
Çeşmə kənarında meyvəli bir
ağacdır,
Budaqları divarın üstündən aşar.
23Oxçular ona güclü hücum etdilər,
Düşmənçilik edib üstünə ox
yağdırdılar.
24Amma Yaqubun qüdrətli Allahı –
İsrailin Daşı və Çobanı olan
Allahın sayəsində
Onun kamanı möhkəm,
Qolları qüvvətli oldu.
25Sənə kömək edən
Atanın Allahıdır,
Sənə xeyir-dua verən
Külli-İxtiyardır.
Yuxarıda göylərin bərəkəti ilə,
Dərinlikdə olan
Su mənbələrinin bərəkəti ilə,
Döşlərin və bətnlərin bərəkəti ilə
Sənə xeyir-dua verəcək.
26Atanın xeyir-duası
Atalarımın xeyir-duasından daha
ucadır;
Əbədi qalan təpələrin
Zirvəsinə çatar.
Qoy xeyir-dualarım
Yusifin – qardaşlar arasında
Başçı olanın üstündə olsun.

27Binyamin acgöz bir qurddur,
Səhər ovunu yeyər,
Axşam qənimət paylar».

28Bunların hamısı İsrailin on iki qəbiləsidir. Ataları onlara xeyir-dua verərkən bu sözləri söylədi və hər birinə xeyir-dua verdi.

### *Yaqubun ölümü*

29Sonra Yaqub oğullarına vəsiyyət edib dedi: «Mən ölüb əcdadlarıma qoşulacağam. Məni atalarımın yanında – Xetli Efronun tarlasında olan
mağarada basdırın.
30O mağara Kənan torpağında olan Mamre qarşısındakı Maxpela tarlasındadır. İbrahim o mağaranı qəbir düzəltmək üçün Xetli Efrondan tarlası ilə birlikdə satın almışdı.
31İbrahimlə arvadı Sara[1] və İshaqla arvadı Rivqa[2] orada basdırılmışdı. Mən Leanı da orada basdırdım.
32Həmin tarla ilə oradakı mağara Xetlilərdən satın alınıb».
33Yaqub oğullarına vəsiyyət edib qurtaranda ayaqlarını yatağına yığaraq son dəfə nəfəs aldı və ölüb əcdadlarına qoşuldu.

### *Yaqubun dəfni*

50 1Yusif özünü atasının üstünə atdı və ağlayaraq onu öpdü.
2Sonra həkim xidmətçilərinə atasının meyitini mumiyalamağı əmr etdi. Həkimlər İsraili mumiyaladılar.
3Bu iş qırx günə göründü, çünki mumiyalamaq üçün qırx gün lazım idi. Misirlilər yetmiş gün İsrail üçün yas tutdular.
4Yas günləri qurtarandan sonra Yusif fironun saray adamlarına müraciət edib dedi: «Əgər gözünüzdə lütf tapmışamsa, firona söyləyin ki,
5atam məni and içdirib demişdi: "Mən can üstəyəm. Kənan torpağında özüm üçün qəbir qazmışam, məni orada basdır". İndi qoy o mənə izin versin ki,

**49:29-30** *Yar. 23:3-20* **49:31** – [1] *Yar. 25:9-10;* [2] *Yar. 35:29* **49:33** *Həv. 7:15* **50:5** *Yar. 47:29-31*

Gen Lat:Azeri Bible Cyrillic 14.01.2009 15:53 Page 62



gedib atamı basdırım və qayıdım».
6Firon dedi: «Get, atanın sənə and
içdirdiyi kimi onu basdır».

7Beləliklə, Yusif atasını basdırmağa
getdi. Fironun bütün əyanları, sarayın
və Misirin bütün ağsaqqalları,
8Yusifin bütün ev adamları, qardaşları
və atasının ev adamları onu müşayiət
etdilər. Qoşen vilayətində yalnız uşaq-
larını, qoyun-keçilərini və mal-qara-
larını qoydular. 9Onlarla birgə atlılar
və arabalar da yola çıxmışdı, ona görə
də dəstə çox böyük idi. 10Onlar İordan
çayının yaxınlığındakı Atad xırma-
nına çatanda böyük ağlaşma ilə
matəm qurdular. Yusif atası üçün
yeddi gün yas tutdu. 11O ölkənin
əhalisi olan Kənanlılar Atad xırma-
nındakı yası görəndə dedilər: «Gör
Misirlilər necə böyük matəmlə yas
tuturlar». Ona görə də İordan çayının
yaxınlığındakı bu yerə Avel-Misra-
yim[a] adı verildi.

12Yaqubun oğulları atalarının və-
siyyətini əmr etdiyi kimi yerinə yetir-
dilər. 13Onu Kənan ölkəsinə gətirib
Mamre qarşısındakı Maxpela tarlasın-
da olan mağarada basdırdılar. İbra-
him bir vaxt həmin mağaranı qəbir
düzəltmək üçün tarla ilə birlikdə Xetli
Efrondan satın almışdı. 14Yusif atasını
dəfn etdikdən sonra həm özü, həm
qardaşları, həm də onunla birlikdə
atasının dəfninə gələnlərin hamısı
Misirə qayıtdı.

### *Yusifin qardaşları ilə mehriban rəftarı*

15Ataları öləndən sonra Yusifin
qardaşları öz aralarında dedilər:
«Bəlkə Yusif bizə qarşı kin saxlayır.
Əgər ona etdiyimiz pisliyə görə bizdən
qisas alarsa, nə edərik?» 16Buna görə
də Yusifə xəbər göndərdilər: «Atan
ölümündən qabaq bizə vəsiyyət etdi ki,
gedib Yusifə belə deyin: 17“Bax sən-
dən xahişim budur ki, qardaşlarının
günahını və təqsirini bağışlayasan. Axı
onlar sənə pislik ediblər”. Xahiş edi-
rik, sən atanın Allahının qulları olan
biz qardaşlarının günahını bağışla».
Bu sözlər Yusifə çatanda o ağladı.
18Sonra qardaşları özləri Yusifin ya-
nına gedib önündə yerə qapandılar və
dedilər: «Biz sənin qullarınıq». 19Yusif
onlara dedi: «Məgər mən Allaham ki,
məndən qorxursunuz? 20Baxın siz
mənə qarşı pis fikrə düşdünüz, lakin
Allah onu yaxşı işə çevirdi ki, bu gün
gördüyünüzü etsin və çoxlu adamın
həyatını qorusun. 21Daha qorxmayın,
mən həm sizi, həm də övladlarınızı
saxlayacağam». Yusif onlara ürəklə-
rincə olan sözlərlə təsəlli verdi.

### *Yusifin ölümü*

22Yusifin və atasının nəsli Misirdə
sakin oldu. Yusif yüz on il ömür sürdü.
23O, Efrayimin üç nəsil övladlarını
gördü. Menaşşenin oğlu Makirin
övladları da Yusifin yanında doğuldu.
24Bir gün Yusif qardaşlarına dedi:
«Mən ölürəm, amma Allah mütləq sizə
nəzər salacaq. O sizi bu ölkədən
İbrahimə, İshaqa və Yaquba and
içdiyi torpağa aparacaq». 25Sonra
Yusif İsrailin övladlarını and içdirib
dedi: «Allah mütləq sizə nəzər salacaq.
Gedən zaman mənim sümüklərimi də
buradan çıxarın».

26Yusif yüz on yaşında öldü. Onu
Misirdə mumiyalayıb bir tabuta qoy-
dular.

---

a **50:11** *Avel-Misrayim* – ibrani dilində *Misirlilərin yası.*

**50:13** *Həv. 7:16* **50:25** *Çıx. 13:19; Yeşua 24:32; İbr. 11:22*